**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**İradə Avşarova**
**Qənirə Pirquliyeva**

# QAFQAZ ARXEOLOGİYASI

***Dərslik***

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.07.2009-cu il tarixli 920 saylı əmri ilə təsdiq edilmişdir.**

**BAKI-2010**

**Elmi redaktor:** **Q.S.İsmayılzadə**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **V.H.Əliyev**
*AMEA-nın müxbir üzvü, t.e.d., professor*
**K.X.Məmmədov**
*dosent, tarix elmləri namizədi*

**Avşarova İ.N., Pirquliyeva Q.Ə. Qafqaz arxeologiyası.**
Dərslik. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2010, 248 s.

*Oxucuya təqdim etdiyimiz bu kitab Qafqazın maddi mədəniyyət abidələrinin ən parlaq nümunələrinin təsvirinə və analizinə həsr olunmuşdur. Ümumiləşdirici xarakter daşıyan bu əsər əslində 150 ildən artıq bir zaman ərzində arxeologiya elminin Cənubi Qafqazdakı nailiyyətlərinin təsnifatıdır. Yaşadığımız məkanda ilk dəfə araşdırılan arxeoloji abidələr dövrü xronologiyaya uyğun olaraq öyrənilmişdir.*

*Kitabın ərsəyə gəlməsində həm Azərbaycanın məşhur arxeoloq-alimlərinin uzun illər apardıqları araşdırmaların nəticələrindən, həm də keçmiş Sovet məkanında ərazimizdə öyrənilən maddi mədəniyyət qalıqları ilə bağlı ən maraqlı elmi mülahizələrdən istifadə olunmuş, həmçinin XXI əsrin əvvəllərində aparılan elmi tədqiqatların ilkin nəticələrindən müəyyən qədər istifadə edilmişdir.*

*Kitab tarixçilər, o cümlədan dissertantlar, magistr və bakalavr pillələrində təhsil alan tələbələr və ümumiyyətlə arxeologiya elmi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur. Bütün oxucularımıza əvvəlcədən təşəkkür edir, bütün irad və təkliflərini aşağıdakı ünvana çatdırmaqlarını xahiş edirik.*

p_qanira@hotmail.com
i_avsharova@hotmail.com

*A* 5030209080 - 013 013 - 2010
*M* - 658(07) - 013

© ***«Bakı Universiteti» nəşriyyatı, 2010***

# MÜƏLLİFLƏRDƏN

Məlumdur ki, arxeoloji materiallar bəşər tarixinin uzun bir dövrünü öyrənmək baxımından çox mühüm mənbələr sayılır.

Oxuculara təqdim olunan bu dərslikdə Qafqazın qədim dövr tarixinə həsr edilmiş ümumiləşdirici əsərlərdən, monoqrafiyalardan və bir çox elmi məqalələrdən istifadə olunmuşdur.

Bildiyimiz kimi, Qafqazın təbii şəraiti ən qədim dövrlərdən insanların bu ərazilərdə məskunlaşması üçün zəmin yaratmışdır. Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş qədim yaşayış məskənləri və qəbir abidələri ərazisində yaşayan insanlar öz inkişaflarında ibtidai cəmiyyətdən başlayaraq tarixin bütün inkişaf mərhələlərini keçmişlər.

Əsərdə Qafqaz ərazisində yaşayan qədim insanların həyat tərzi, məşğuliyyəti, sənətkarlığı, təsərrüfat həyatı və Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələri barədə məlumat verilmişdir. Dərslikdə zəngin illüstrativ materiallar, şəkillər və tablolar da öz əksini tapmışdır. Arxeologiya elmində istifadə olunan metodlar, o cümlədən ən yeni informasiya texnologiyalarının imkanlarından nə dərəcədə bəhrələnməyin üsulları xüsusi bir mövzuda göstərilmişdir. Bununla da keçən 150 ildə arxeologiya elminin Qafqazdakı bütün abidələri gənc tarixçilər, arxeoloqlar və qədim dövrlə maraqlananlar üçün dərslikdə kifayət qədər araşdırılmışdır.

## ÖN SÖZ

İki yüzillikdən artıqdır ki, Qafqazın arxeoloji abidələri, Qafqaz arxeologiyası diqqət mərkəzindədir. Qeyri-adi coğrafi mövqeyə, zəngin və əlverişli təbii şəraitə, tükənməz yerüstü və yeraltı sərvətlərə malik olan bu diyar saysız-hesabsız minillikləri əhatələyən uzun bir yol keçmiş, bəşəriyyətin mədəni-tarixi inkişafında əsaslı rol oynamışdır. Şərqlə Qərbin yol ayrıcında yerləşən, onları qırılmaz tellərlə bir-birinə bağlayan Qafqaz məkanı özündə sulu çayları və gölləri, hüdudsuz dənizləri, qarlı dağ silsilələrini, münbit torpaqlı ovalıqları və vadiləri, geniş düzləri cəmləşdirməklə yüksək fiziki coğrafi ehtiyatlara malik olmuş, qədim dövrlərdən mövcud cəmiyyətlərin iqtisadi ictimai və mədəni inkişafına böyük təsir göstərmişdir.

Arxeoloji materialla müəyyən edilmişdir ki, Qafqaz, o cümlədən onun tarixi hissəsini təşkil edən Azərbaycan ərazisi antropogenezin erkən ocaqlarından biri olmuş, sonrakı tarixi mərhələlərdə ilkin əkinçilik mədəniyyətlərinin, yüksək sivilizasiyalara və siyasi qurumların - ilk dövlətlərin yaranma mərkəzlərindən birinə çevrilmişdir. Paleolit dövrünə aid mağara düşərgələri, tunc dövrünün qədim yaşayış yerləri və zəngin qəbir abidələri, ilkin şəhər mərkəzlərinin qalıqları, misilsiz qayaüstü təsvirlər dediklərimizə əyani nümunələrdir.

Qafqaz arxeologiyasının keçən dövr çərçivəsindəki kəşfləri ümumilikdə ümumbəşər tarixinin qanunauyğun inkişaf xüsusiyyətlərini üzə çıxarmaqla yanaşı ayrı-ayrı qədim mədəni mərkəzlərin səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə imkan vermişdir.

Coğrafi və tarixi şəraitin məcmuu Qafqazın ayrı-ayrı qədim mədəniyyətlərinin xarakterində və inkişaf tərzində daha parlaq şəkildə əks olunmuşdur.

Bəşər tarixinin ən qədim, xüsusən yazıya qədərki, tarixinin öyrənilməsində Qafqaz arxeologiyasının əhəmiyyəti xüsusilə danılmazdır. Təqdirəlayiq haldır ki, Bakı Dövlət Universitetində Qafqaz arxeologiyası ilə bağlı xüsusi kursların keçirilməsi tarixi diyarın elmi əhəmiyyətini daha parlaq şəkildə əks etdirir. Bu zəmində universitetin dosenti tarix elmləri namizədi İradə Avşarova və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri namizədi Qənirə Pirquliyevanın Qafqaz arxeologiyasına aid birgə hazırladıqları dərslik xüsusilə diqqətəlayiqdir.

Tələbələr üçün nəzərdə tutulan bu dərslik geniş arxeoloji materiallar əsasında yazılmışdır. Müəlliflər əsərdə Qafqazın daş dövründən tutmuş orta əsrlər daxil olmaqla bütün tarixi abidələrinin geniş icmalını vermiş və hər bir abidənin səciyyəvi xüsusiyyətlərini, eləcə də elmi dəyərini diqqətə çatdıra bilmişlər.

Dərslikdə müqayisəli materiallara geniş yer verilməsi də, müsbət hal kimi qiymətləndirilə bilər. Əsərin çox oxunaqlı və aydın dili vardır. Şübhə yoxdur ki, təqdim olunan dərslik Azərbaycanda Qafqaz arxeologiyası ilə bağlı ilk təşəbbüs olmaqla tələbələr tərəfindən böyük sevinclə qarşılanacaq və eyni zamanda geniş elmi ictimaiyyətin böyük marağına səbəb olacaqdır.

***Bakı Dövlət Universiteti***
***Tarix fakültəsi «Arxeologiya və Etnoqrafiya»***
***kafedrasının müdiri, tarix elmləri doktoru, professor***
***Q. S.İsmayılzadə***

## RƏYÇİDƏN

Qafqaz və Ön Asiya dünyada ilk insanların yaşayış üçün məskən seçdikləri ən qədim ərazilər hesab olunur. Azərbaycan və Gürcüstan ərazilərində XIX-XX və XXI əsrin əvvəllərində aparılan arxeoloji tədqiqatlar və əldə edilən maddi mədəniyyət nümunələrinin öyrənilməsi belə bir fikir söyləməyə əsas verir. 1960-cı ildə məşhur Azərbaycan alimi, t.e.d., professor M.Hüseynov tərəfindən Füzuli rayonu ərazisində Azıx mağarasının aşkar edilməsi və 1968-ci ildə burada keçmiş SSRİ məkanında ən qədim insana - azıxantropa məxsus çənə sümüyünün tapılması əslində Qafqaz regionu tarixinin tədqiqində böyük bir elmi çevrilişə səbəb oldu. Azıx mağarasının kompleks tədqiqi ilə D.V.Hacıyev, Ə.M.Məmmədov, H.Ş.Şirinov, V.V.Veliçko, Ə.Q.Cəfərov, V.M.Hacıyev, S.D.Əliyev və digər alimlərin yekun fikrinə əsasən, bu, Qafqazda öz böyüklüyünə görə karst boşluqları arasında ən möhtəşəmidir. Ümumi sahəsi 8000 $m^2$ olan Azıx mağarasını Qafqaz arxeologiyasının şah əsəri hesab etmək olar. Burada aşkar olunan maddi mədəniyyət nümunələri bu əraziyə ilk insan ayağının təxminən 1,5-2 mln. il bundan əvvəl dəydiyini təsdiq edir. Qafqaz regionunun, o cümlədən Şimali Azərbaycan ərazilərinin arxeoloji tədqiqi 1829-cu ildən başlanır. Həmin ildə Rusiya İmperator Arxeoloji Komissiyası tərəfindən Aleksandr Yanovski Cənubi Qafqaza göndərilmiş və o burada apardığı tədqiqatların nəticələrini 1846-cı ildə «Qədim Qafqaz Albaniyası haqqında» adlı çap etdirdiyi məqalədə şərh etmişdir. Bundan əlavə, 1834-cü ildə Şimali Azərbaycana gələn İsveçrə səyyahı Dübua de Manperi indiki Göygöl rayonu ərazisində arxeoloji qazıntılar aparmış və əldə etdiyi ümumi nəticələri Fransaya göndərmişdir. Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji tədqiqatı işi XIX əsrin II yarısında da davam etdirilmişdir. Rus şərqşünası N.Xanıkov, Fransız tədqiqatçısı Jak de Morqan, alman tədqiqatçısı Emil Resler, Moskva Arxeologiya Cəmiyyətinin üzvü A.İvanovski və digər alimlər Cənubi Qafqazın və ilk növbədə Azərbaycanın arxeoloji tədqiqi ilə məşğul olmuşlar.

Azərbaycan milli tarix elminin çox mühüm sahəsi olan arxeologiya elminin formalaşması məsələsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu sahənin formalaşması XX əsrin 20-30-cu illərinə təsadüf edir. 1920-ci ildə Azərbaycan Dövlət Tarix Muzeyinin yaradılması arxeoloji abidələrin qeydə alınması işində çox mühüm bir hadisə idi. Bu dövrdə Azərbaycanın arxeoloq alimləri Ələsgər Ələkbərov, İshaq Cəfərzadə, Davud Şərifov, Saleh Qazıyev, Yakob Hummelin, Y.Paxomov, 50-90-cı illərdə M.Hüseynov, İ.Nərimanov, Q.Əhmədov, R.Vahidov, R.Göyüşov, İ.Babayev, F.Qədirov, C.Xəlilov, A.Nuriyev, R.Qasımova və digərləri çox böyük elmi potensiala malik akademik məktəbin əsasını qoymuşlar. Bu alimlər öz tədqiqatları ilə bütün

Cənubi Qafqaz ərazisinin əksər hissəsinin, o cümlədən Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası - C.B.) torpaqlarının azərbaycanlılara - yəni regionun avtoxton əhalisinə məxsus olduğunu sübut etmişlər. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində ibtidai icma quruluşunun bütün mərhələləri izlənilir. Paleolit, mezolit, neolit, eneolit və tunc dövrünün bütün mərhələlərinə aid arxeoloji abidələr bu ərazidə yaşamış əhalinin müasir azərbaycanlıların əcdadları olduqlarını təsdiqləyir. Arxeoloji, antropoloji, odontoloji, etnoqrafik, epiqrafik və tarix elminin digər sahələri müasir dövrdə təcavüzkar erməni ideologiyasına qarşı ağır mübarizə şəraitində Azərbaycan alimləri tərəfindən çox uğurla istifadə olunur. 1945-ci ildən bu günə qədər ermənilərin Azərbaycan xalqına qarşı ərazi iddialarının qətiyyətlə dəf olunması işində arxeoloji nümunələrlə yanaşı qədim, antik, ilk orta və orta əsrlər dövrünə dair yazılı mənbələrdən də geniş istifadə olunmuş və onların böyük əksəriyyəti çap olunmuşdur. Azərbaycan alimlərinin Qafqaz və ilk növbədə Cənubi Qafqaz tarixi ilə bağlı apardıqları tədqiqatlar Rusiya, ABŞ, Fransa, Almaniya, İngiltərə, Yaponiyadan olan alimlərin böyük əksəriyyəti tərəfindən aparılan tədqiqatlarla elmi yanaşma metodologiyası baxımından, demək olar ki, eynilik təşkil edir.

Rusiya alimləri - İ.M.Dyakonov, B.Piatrovski, ABŞ alimi, mənşəcə erməni olan N.Qarsoyan, Azərbaycan alimləri akademik İ.H.Əliyev, t.e.n. S.M.Qaşqay, akademik Z.M.Bünyadov, akademik N.M.Vəlixanlı, Ə.Ə.Əlizadə; t.e.d. V.Z.Piriyev, t.e.d., prof. M.Şərifli, akademik İ.Hüseynov, AMEA-nın müxbir üzvləri O.Ə.Əfəndiyev, Y.M.Mahmudov, M.Nemətova, t.e.d. M.X.Heydərov, t.e.d. S.C.Əsədov, t.e.n. İ.S.Məmmədov və digərləri son 60 ildə nəşr etdirdikləri əsərlərində mövcud yazılı mənbələrə əsaslanaraq Cənubi Qafqazın aborigen əhalisinin azərbaycanlılardan ibarət olduğunu təsdiq etmişlər. Bu baxımdan BDU-nun Tarix fakültəsinin əməkdaşları t.e.n. İ.N.Avşarova və t.e.n. Q.Ə.Pirquliyeva tərəfindən çapa hazırlanmış «Qafqaz arxeologiyası» adlı dərslik diqqəti cəlb edir. 7 hissə, 9 fəsil, istifadə olunmuş ədəbiyyat siyahısı, illüstrasiyalardan ibarət olan bu dərslik öz strukturuna görə elmi baxımdan düzgün tərtib edilmişdir. «Qafqaz arxeologiyası» dərsliyinin çapı tarix elminin arxeologiya sahəsinə olan marağın təmin edilməsi işində, arxeoloji biliklərin tələbələr tərəfindən daha uğurla öyrənilməsində mühüm rol oynaya bilər.

***AMEA Tarix İnstitutunun***
***Elmi işlər üzrə direktor müavini, t.e.n.***
***C.Ə.Bəhramov***

# I HİSSƏ. İBTİDAİ İCMA QURULUŞUNUN TARİXİ

## I FƏSİL

## İBTİDAİ İCMA QURULUŞUNUN ÖYRƏNİLMƏ TARİXİ

### 1. İnsanın yaranması

Bəşər tarixinin ən qədim dövrü olan ibtidai icmanın tarixini öyrənərkən müxtəlif mənbələrdən - arxeologiyadan, etnoqrafiyadan, dilşünaslıqdan, antropologiyadan, geologiyadan və digər elmlərdən istifadə edilir. Lakin bu dövrün öyrənilməsində əsas mənbə arxeoloji, etnoqrafik və antropoloji məlumatlar sayılır.

İbtidai icma tarixinin öyrənilməsində əsas mənbələrdən birinin arxeologiya olduğu üçün biz şərhimizdə bilavasitə maddi mədəniyyət abidələri qalıqlarının öyrənilməsindən, tarixi dövrlərin işıqlandırılmasında onların rolundan başlayacağıq.

Ulu babalarımız öz dövrlərində yaşayıb-yaradaraq, həyat səhnəsini təbii və təsadüfi hadisələr nəticəsində tərk etmişlər. İnsanlar harada olmuşlarsa orada müəyyən iz qoyub getmişlər. Qədim dövrün insanlarının da özlərinə görə nailiyyətləri olmuşdur, bunlar nəsillərdən-nəsillərə keçmiş, artıb-çoxalmış, təkmilləşmiş, köhnələri yox olmuş və daha mükəmməl olan yeniləri ilə əvəz olunmuşlar. Belə silsilə şəklində olan inkişaf yolunu ancaq maddi mədəniyyət abidələrinin vasitəsilə öyrənmək mümkündür. Bu abidələr qədim dövr yaşayış yerlərindən, onlara aid qəbiristanlıqlardan, emalatxanalardan, qayaların üstündəki rəsmlərdən, müxtəlif müdafiə qurğularından, ibadətxanalardan, dini ocaqlardan və s. ibarətdir. Belə abidələr tədqiq edilərkən (qazılarkən) onların torpaq qatında, yəni insanların həyat fəaliyyəti və bu fəaliyyətin qalıqlarından əmələ gəlmiş təbəqədə (arxeologiyada bu, «mədəni təbəqə» adlanır) vaxtilə işlədilmiş məişət və təsərrüfat alətləri, silahlar, bəzək əşyaları, sümük, bitki qalıqları və başqa maddi mədəniyyət vasitələri tapılır. Bu tapıntıların hamısı insan əməyinin məhsulu olmaqla ibtidai icma tarixinin əsas mənbəyini təşkil edir.

Antik dövrün filosof-materialisti Demokritə (e.ə. 460-370) görə, insanlar ilk dəfə Yer üzünə heyvan aləmindən dönmüşlər: «Onlar kobud və vəhşi həyat keçirərək bitkilər və təsadüfi meyvələrlə qidalanmaqla, bir yerdən başqa yerə köçmüşlər». Deməli, Demokritə görə, qidalanma və özünü vəhşi heyvanlardan müdafiə etmək zərurəti insanları bir yerdən başqa yerə keçməyə, təbiətə qarşı mübarizə aparmağa sövq edirdi. Əlbəttə, Demokritin baxışlarında ibtidai icma dövrü haqqında sadəlövh cəhətlər də az deyildir.

Digər bir yunan filosofu Aristotel (e.ə.384-322) Demokritin əksinə olaraq, insanı «siyasi heyvan» sayırdı. Aristotel öz dövründəki patriarxal xarakterli təknigahın cəmiyyət tarixində ilk kəbin sistemi olduğunu və bunun ən ibtidai ailədə belə qanun olduğunu idealistcəsinə təsdiq edirdi. İbtidai cəmiyyətdə ilk dövrlərdən patriarxal ailənin mövcud olduğunu təsdiq edən Aristoteli «patriarxal ailə» nəzəriyyəsinin əsasını qoyanlardan biri hesab etmək olar.

Cəmiyyətin mənşəyi haqqında «patriarxal nəzəriyyə» ilk dəfə antik dövrdə əmələ gəlmişdir (Platon, Aristotel). Bu nəzəriyyəyə əsasən, bəşəriyyət tarixinin ilk mərhələsi «xoşbəxt əsr» hesab edilir. İnsan cəmiyyətinin ilk hüceyrəsi isə, bu nəzəriyyəyə əsasən, xüsusi mülkiyyət, quldarlıq, təkarvadlılıq (monoqamiya) və təkallahlığın (monoteizmin) mövcud olduğu patriarxal ailə olmuşdur. Ailə başçısı - ər və ya ata - öz ailəsi üzərində tam hakim hüquqlu ikinci bir monarx idi. Nəzəriyyə tərəfdarlarının fikrincə, onun hakimiyyəti, eyni zamanda, guya dövlət hakimiyyətinin də mənbəyi olmuşdur.

Antik dövrdə hətta bəşəriyyətin maddi inkişafını müəyyən dövrlərə bölməyə təşəbbüs edilmişdi. Lukretsi Kar öz poemasında, əfsanə və nağılları bir tərəfə ataraq, «xoşbəxt əsr» deyil, silahların hazırlandığı daş əsrini bəşər cəmiyyəti inkişafının əsası hesab etmişdir. Lukretsi Kar həmin poemasında nəzm ilə yazır ki, keçmişlərdə bir silah kimi qüvvətli əllərdən, diş, dırnaq və daşlardan, ağac parçası və oddan istifadə olunmuşdur. İnsanlar, Lukretsiyə görə, odu kəşf etdikdən sonra, mis və dəmirdən də istifadə etmişlər. Lukretsi misin yumşaqlığına və təbiətdə xalis halda daha çox rast gəlindiyinə görə dəmirdən əvvəl işlədildiyini də göstərir.

Göründüyü kimi, Lukretsi öz poemasında tarixi inkişafı daş, mis, tunc və dəmir əsrlərinə bölməyi nəzərdə tutur.

Utopik sosialist J.J.Russo (1712-1778) «...Bərabərsizliyin mənşəyi və əsasları haqqında mühakimə» (1755) və «İctimai saziş və ya siyasi hüquqların prinsipləri» (1762) adlı əsərlərində insanların ibtidai həyatını o qədər idealizə edir ki, bu dövr az qala həqiqətən «behişti» və yaxud yunanların adlandırdığı kimi, «qızıl əsri» xatırladırdı. J.İ.Russoya görə, ibtidai insanlar guya, bir-biri ilə münasibəti olmayan, bir-birindən tam təcrid olmuş halda yaşayan fərdlər olmuşlar.

Böyük rus alimi M.V.Lomonosovun ibtidai icma tarixinin öyrənilməsində böyük xidməti olmuşdur. Onun əsərlərində slavyan tayfaları haqqında qiymətli etnoqrafik məlumatlar vardır. Xüsusən onun 1767-ci ildə yazdığı «Qədim Rusiya tarixi» (rus xalqının mənşəyindən böyük knyaz I Yaroslavlın ölümünədək və yaxud 1054-cü ilədək) adlı əsəri rus tarixşünaslığı üçün qiymətli bir mənbədir. Bu əsərində M.Lomonosovun rus xalqının tarixini ryuriklərdən deyil, rus xalqının mənşəyindən başlaması diqqətəlayiqdir. Böyük rus alimi bu əsərində elmi olmayan «norman»

nəzəriyyəni ifşa etmişdir. Bundan əlavə, M.V.Lomonosov başqa xalqları (və dilləri) qiymətdən, hörmətdən salmaq və onların bəşəriyyət tarixindəki əhəmiyyətini azaltmaq istəyənlərin baxışlarına qarşı çıxmışdır.

XIX əsrin 60-70-ci illərindəki elmi baxışlarda böyük mövqeyə malik olan Ç.Darvinin «Təkamül nəzəriyyəsi» ibtidai icma dövrünün öyrənilməsinə və etnoqrafiya elminə çox təsir etmişdir.

Canlı aləmin inkişafındakı qanunauyğunluq və orqanizmlərin təbiətdən asılı olaraq dəyişməsi haqqında mütərəqqi fikirlər Ç.Darvindən çox-çox əvvəl (məsələn, hələ XVIII əsr fransız filosofları D.Didro (1713-1784), P.Holbax (1723-1789), J.Lametri (709-1751) və başqaları tərəfindən) söylənmişdi. Yerin və təbiətdəki bütün hadisələrin dəyişməsi haqqında daha aydın və səlis baxışlar böyük rus alimi M.V.Lomonosova məxsusdur. Bu baxışlar sonralar böyük ingilis alimi Ç.Darvinin (1809-1882) «Təbii seçmə yolu ilə növlərin əmələ gəlməsi» (1859) əsərində özünün sistemləşdirilmiş məcmusunu tapmışdır. Biologiya və bir sıra təbiət elmlərinin əldə etdiyi müvəffəqiyyətlərə əsaslanaraq Ç.Darvin göstərmişdir ki, təbiətdəki orqanizmlər mövcud şəkildə yaranmayaraq uzun bir tarixi inkişafın məhsuludur. Ç.Darvinə görə, bu «təkamülün» əsasını «təbii surətdə seçilmə» təşkil edir. Belə ki, təbiətdə bir sıra orqanizmlər ətraf mühitə uyğunlaşaraq və onun təsirinə qarşı daha dözümlü çıxaraq yaşayır, bəzi orqanizmlər isə bu cəhətdən dözümsüz olduğundan məhv olub gedir və bu səbəbdən, təbiətdə orqanizmlər təbii surətdə seçilib ayrılaraq dəyişir.

Ç.Darvinin baxışları canlılar aləminin inkişafına dair metafiziki və dini baxışlara o dövrdə böyük zərbə idi. Təkamül nəzəriyyəsi təbiət elminin inkişafında böyük müvəffəqiyyət qazanaraq elmi biologiyanın əsasını qoymuşdur. Eyni zamanda ibtidai cəmiyyətin inkişafı, insanların mənşəyi ilə bağlı elmi mülahizələrdə uzun müddət aparıcı yer tutmuşdur.

İbtidai icma tarixinin öyrənilməsində XX əsrin 60-cı illərinin böyük müvəffəqiyyətlərindən biri olan qəbilə quruluşunun öyrənilməsi hesab edilə bilər. Bu cəhətdən görkəmli Amerika alimi Luis Henri Morqanın tədqiqatları çox əhəmiyyətlidir.

L.H.Morqan İrogez tayfa ittifaqını dərindən tədqiq etmişdir. O, hətta bu ittifaqa daxil olan Seneka tayfası içərisində uzun müddət yaşamış və öz tədqiqatlarını ümumiləşdirərək - «İrogezlərin ittifaqı» (1861), «Qohumluq sistemi və insan ailəsinin xüsusiyyətləri» (1869), xüsusilə «Qədim cəmiyyət» (1877), «Amerika yerlilərinin evləri və həyatı» (1881) kimi bir sıra qiymətli əsərlər yazmışdır.

Paleontologiya, antropologiya və arxeologiya elmlərinin məlumatları, insanabənzər meymunların həyatı üzərində müşahidə, insanın və insan cəmiyyətinin yaranması şəraitini və prosesini aydınlaşdırmağa imkan verir.

XX əsrin əvvəllərində Vyana yaxınlığında Miosen dövrünə aid yer təbəqələrindəki kirəc laylarında qədim zamanlarda yaşamış bir meymunun azı dişi tapılmışdır. Bu diş bəzi xüsusiyyətlərinə görə insan dişinə daha çox oxşayırdı. Oradaca həmin heyvanın daha iki dişi tapılmışdır. Bu dişlərin sahibi o zaman alimlər tərəfindən driopitek* adlandırılmışdır. Ehtimal ki, insanların və eləcə də, Afrikada yaşayan insanabənzər meymunların ümumi əcdadları da bu driopiteklər olmuşlar.

1934-cü ildə Hindistanda Himalay dağları ətəyində Sivalik təpələrinin üçüncü dövrünə aid olan qatlarında bir neçə ali meymunun qalıqları tapılmışdır. Bu meymunlardan biri yastısifət ramapitek adlandırılmışdır. Pliosen çöküntülərində həmin meymunun bir neçə dişi olan yuxarı çənəsinin bir parçası da tapılmışdır. Ramapitekin köpək dişi ilə kəsici dişi arasındakı aralıq («diastem») yox dərəcəsindədir (bu aralığın olmaması insana xas olan bir əlamətdir). Ramapitekin dişlərində onu insana oxşadan başqa əlamətlər də vardır. Ramapiteklər driopiteklərə nisbətən insana daha çox oxşayırlar. Onlar insanabənzər meymunlardan köpək dişlərinin digər dişlərinə nisbətən qabağa çıxmaması ilə fərqlənir və demək onlar ki, insana daha yaxın olmuşlar. 1924-cü ildə Cənubi Afrikada tapılmış və avstrolopitek («avstralis» - cənub və «pitekos» - meymun sözlərindən əmələ gəlib, «cənub meymunu» deməkdir) adlanan insanabənzər meymunların tədqiqi və insanın əcdadları haqqında çoxlu material vermişdir. 1935-1951-ci illərdə 30-a qədər meymunun qalığı kəşf edilmişdir. Bunların tədqiqi nəticəsində avstrolopiteklərin şaquli vəziyyətdə hərəkət etdikləri də sübut edilmişdir. Avstralopiteklərin iki ayağı üstə yeriməyə başlaması ehtimal ki, onun yaşayış şəraitinin dəyişməsi ilə izah edilir.

Yüz min illər boyu Yer üzərindəki dəyişikliklər və inkişaf avstrolopitek tipli meymunların da tədricən insanabənzər başqa meymunlardan ayrılmasına və yüksəlməsinə səbəb olmuşdur. Düz yeriməyi öyrənməsi həyat uğrunda mübarizədə onlara böyük imkanlar qazandırmış, ağac və daş kimi təbii silahlardan istifadə etmək bacarığına yiyələnməyə kömək etmişdir.

Əlbəttə, avstrolopiteklərin insanın əcdadları olduğu haqqında tam və qəti hökm vermək olmaz. Uzaq geoloji dövrlər haqqında hələ natamam məlumatlarımız bu barədə qəti fikrə gəlməyi çətinləşdirsə də, hər halda, demək olar ki, insanların ilk əcdadları avstrolopiteklərə oxşar və onlara yaxın olmuşdur.

---

* Driopitek yunanca «drio» (ağac) və «pitekos» (meymun) sözlərindən olub ağacda gəzən meymun deməkdir. İnsana ən çox bənzər meymunlar qorilla, şimpanze və oranqutan meymunları hesab olunur. Bunlar bədən quruluşu, əzələ və qan tərkibinə görə insan ilə ümumi olan 100-ə qədər əlamətə malikdir. Bu ümumi əlamətlər oranqutanlarda azdır (50-yə qədərdir).

Yaşamaq uğrunda mübarizə nəticəsində, avstrolopiteklərin həyatı tədricən dəyişmişdir. Özünə qida əldə etmək üçün onlar ağaclara dırmaşmaqdan düzənliklərdə yeriməyə keçmişlər (buna coğrafi mühitdəki dəyişikliklər də təsir edirdi). Bədənin şaquli vəziyyət alması, başın dikliyi beynin inkişafına da təsir etmişdir. Beləliklə, düz yeriməyi öyrənmək sonrakı təkamül üçün çox qiymətli hadisə olmuşdur. Lakin bütün bunlar yenə də insanın əmələ gəlməsində başlıca və həlledici amil kimi qiymətləndirilmir.

F.Engels özünün «Meymunun insana çevrilməsi prosesində əməyin rolu» adlı məşhur əsərində yazır ki, əmək bütün insan həyatının birinci əsas şərtidir, həm də o dərəcədə belə bir əsas şərtdir ki, biz müəyyən mənada deməliyik: insanın özünü əmək yaratmışdır. F.Engelsə görə, əllərin və beynin inkişaf etməsinin meymunun insana çevrilməsində həlledici rolu olmuşdur. Bunun üçün isə yuxarıda deyildiyi kimi, şaquli vəziyyətdə yerimək, əllərin əmək fəaliyyəti üçün hərəkət orqanı olmaqdan azad olmasının həlledici əhəmiyyəti olmuşdur.

Əlbəttə, əllər də birdən-birə tam təkmilləşməmişdir. İnsan, əlinin köməyi ilə ilk çaxmaqdaşı bıçağını hazırlayana qədər çox uzun bir dövr keçmişdir. Bu müddət ərzində əl yeni-yeni vərdişlərə alışmış, əldə edilən daha böyük çeviklik isə nəsildən-nəslə keçib təkmilləşmişdir. F.Engels yazmışdır ki, əl nəinki əmək orqanıdır, o, həmçinin əməyin məhsuludur. Dik yerimək və əllərin əmək orqanına çevrilməsi insanın meymundan ayrılmasına başlanğıc olmuşdur. F.Engels «Təbiətin dialektikası»na girişdə yazır: «Min illər boyu davam edən mübarizədən sonra, ən nəhayət, əl ayaqdan ayrılıb, insan dik yeriməyə başladığı zamandan etibarən insan meymundan ayrıldı, beləliklə də, aydın nitqin inkişafı üçün əsas yaranmış oldu və bunun sayəsində o zamandan etibarən insanla meymun arasında keçilməz bir uçurum meydana gəldi».

Məlumdur ki, insanın əcdadı sürü halında, dəstələrlə yaşayırdı. İlk insanlar da sürü halında, dəstələrlə yaşamışlar. O dövrdə ilk əmək prosesi də yalnız möhkəm birləşmiş qruplar içərisində mümkün ola bilərdi. Qrupların möhkəmliyi isə formalaşmaqda olan insanların əmək fəaliyyətindən asılı idi. Heyvan aləmindən öz əməyi nəticəsində insana çevrilməkdə olan ibtidai insan kollektivinin qüvvəsi isə məhsuldar qüvvə idi.

**Pitekantrop.** XIX əsrin sonunda Yava adasında, Trinil yaxınlığında avstrolopitekə nisbətən daha mükəmməlləşmiş və insana daha artıq bənzəyən meymunların qalıqları tapılmışdır. Tədqiqatçılar onların Kaynozoy erasının dördüncü dövründə yaşadıqlarını müəyyən etmişlər. Bu meymunların ilk nümunəsi hollandiyalı həkim Dubua tərəfindən 1891-1892-ci illərdə kəşf edilmiş və pitekantrop (meymun-insan) adlandırılmışdır. 1936-cı ildə Yava adasındakı Modcokerto şəhəri yanında daha bir pitekantrop uşağın kəllə sümüyü tapılmışdır (bu vaxtadək yeddi pitekantropun sümüyü tapılmışdır).

Adından göründüyü kimi, pitekantrop - avstrolopitek adlanan və inkişaf etmiş meymunlarla ən ibtidai insan arasındakı keçid formasının bir nümunəsidir. Bunu pitekantropun tapılmış qalıqlarında həm meymunlara və həm də insana xas olan əlamətlərin olması da sübut edir. Məsələn, onun kəllə sümüyünün zahiri görünüşü, gözüstü alın sümüyünün qabağa çıxması, alnının kiçikliyi, bəzi dişlərinin quruluşu və s. meymunlar üçün xarakterikdir. Avstrolopiteklərə nisbətən pitekantropun geniş alnı beyninin inkişaf etmiş olduğunu göstərir. Yeni növ qidalar və onların əldə edilməsi şəraitinin təsiri altında çənəsinin kiçikliyi, dişlərinin nisbətən incələşməsi, bir şəklə düşməsi və sairə əlamətlər, şübhəsiz ki, pitekantropun artıq meymunlardan uzaqlaşdığını göstərir. Həcm etibarilə pitekantropun beyni də insana ən yaxın olmaqla müasir meymunların beyinlərindən bir yarım və yaxud iki dəfə artıqdır (ən iri qorilla kəlləsinin həcmi 600 $sm^3$, pitekantropun beyin həcmi isə 850-900 $sm^3$ idi). Tapılmış bir neçə sümük qalıqları pitekantropun artıq iki ayağı üstə şaquli vəziyyətdə yeridiyini sübut edir. Ümumiyyətlə, inkişaf dərəcəsinə görə pitekantrop antropoidlərə daha yaxın hesab olunur.

Yava adasının cənubunda pitekantropun sümükləri tapılmış yer qatlarında alimlər kvars daşından hazırlanmış bir neçə kobud silah tapmışlar. Beləliklə, pitekantropların əmək fəaliyyətinə şübhə etmək olmaz. Onun formalaşması və artıq meymundan uzaqlaşması, şübhəsiz ki, əməyin nəticəsi idi. Əks halda o, təkamülçülərin fikrincə, meymunun insana çevrilməsi prosesində tutduğu mövqeyə heç vaxt malik ola bilməzdi.

Quruluşuna müvafiq olaraq Pitekantropun əmək fəaliyyəti çox sadə, ilk silahları isə daş və ağaclar ola bilərdi. Ağac və daş silahlar indi də bir sıra zəif inkişaf etmiş tayfa və xalqlar tərəfindən işlədilməkdədir. Lakin yalnız daş, daşdan istifadə və onun emalı inkişafın bu mərhələsində texniki inkişafın möhkəm əsasına çevrilə bilmişdir.

1927-1937-ci illərdə Şimali Çində, təxminən Pekindən 50 kilometr cənub-qərbdəki Cjoukoudyan kəndində aparılan paleontoloji və arxeoloji tədqiqatlar zamanı 50-yə qədər meymunabənzər insanın sümüyü tapılmışdır. Onlar sinantrop (Çin adamı) adlandırılmışdır. Sinantroplar da pitekantrop qrupuna daxil olub, həyat tərzi və fiziki inkişafına görə onlardan daha irəli getmiş insanlar idi. İnsanın fizioloji quruluşu ilə əlaqədar olaraq onun beyninin də təkmilləşməsi və inkişafı sinantropların kəllələrinin tədqiqində özünü göstərir. Orta hesabla pitekantropun beyninin həcmi (870 $sm^3$) avstrolopitekindən çox fərqləndiyi halda, sinantrop da, öz növbəsində, beyin həcminin inkişafına görə (1040 $sm^3$) pitekantropu çox geridə qoymuşdu. Hətta tapılan sinantrop kəllələrindən birinin həcminin 1225 $sm^3$ olduğu müəyyən edilmişdir. Sinantropların sağ əli pitekantroplara nisbətən bu sahədə daha çox fərqlənir. Sağ əlin fəallığı, ən çox bu əl ilə işəgirişmə eyni zamanda əmək texnikası və istehsal alətlərinin inkişafına işarədir.

Məlumdur ki, ibtidai insanın həyatında odun böyük rolu olmuşdur. Cjoukoudyanda sinantropların oddan istifadə etdiyini göstərən kömür və kül yığınlarına da təsadüf edilmişdir.

Sinantropların təsərrüfat fəaliyyətində bitki məhsulları yığmaqdan əlavə, ovçuluq da böyük yer tutmuşdur. Cjoukoudyanda daş alətlərlə yanaşı, kül və kömür qalıqlarına qarışmış çoxlu heyvan sümüyünə təsadüf edilmişdir. Bəzən iri sümüklərin iliyini çıxarmaq məqsədi ilə onların sındırıldığına da rast gəlinir. Burada ayı, xırda gəmirici, vəhşi at, donuz, camış və başqa heyvan sümükləri də tapılmışdır. Pitekantroplar da qruplarla yaşamış və belə dəstələrlə vəhşi heyvanları ovlamışlar. Bu, ilk ibtidai insan sürüləri hesab olunur.

1907-ci ildə Almaniyada, Heydelberq yaxınlığında sinantropa yaxın olan bir adamın alt çənəsi tapılmışdır. Onu «Heydelberq adamı» adlandırmışlar. Daha belə bir ibtidai adamın çənəsi 1949-1950-ci illərdə Cənubi Afrikada (Svartrans mağarasında) tapılmışdır. Bu çənələrin məxsus olduğu adamlar «kaptelantroplar» adlandırılmışdır. Bunlar sinantrop və Heydenberq adamlarının Cənubi Afrikada yaşayan nümunələri idi. 1935-ci ildə belə adamların kəllə sümükləri Şərqi Afrikada (afrikantroplar), sonralar İspaniya, Fransa, Yuqoslaviya, İtaliya, Fələstin, İraq ərazilərində və başqa yerlərdə də tapılmışdır. Bunlar sinantropu çox xatırladırlar. Lakin onlarda sonrakı inkişaf izləri də müşahidə olunmuşdur.

**Neandertal adamları, onların həyat şəraiti.** Mustye mərhələsi silahlarını hazırlayan və onlardan istifadə edildiyi dövrdə yaşamış insanın sümükləri ilk dəfə 1856-cı ildə Neander (Almaniya) dərəsində tapılmışdır (Neandertal adamı). Belə adamların skelet qalıqlarına sonralar İspaniyada, Belçikada, Yuqoslaviyada, Fransada, İtaliyada və başqa ölkələrdə də təsadüf edilmişdir. Neandertal adamın daha yaxşı mühafizə olunmuş sümükləri Krımda Kiik Koba adlı yerdə, Özbəkistan ərazisindəki Teşik-Taş adlı mağarada, Abxaziyada, Volqaboyu və Ukrayna ərazilərində tapılmışdır.

Neandertal adam indiki insana daha yaxın olub, bədən quruluşuna görə pitekantrop və sinantroplara nisbətən daha da təkmilləşmişdi. Onun beyin həcmi də (1400 $sm^3$) indiki adamların beyin həcminə daha yaxın idi. Kəllə sümüyündəki girinti-çıxıntılardan görmək olur ki, pitekantropa və sinantropa nisbətən neandertalın beyninin nitqi idarə mərkəzi daha çox inkişaf etmişdir. Beynin alın tərəfdən inkişafı isə indiki insanların inkişafından çox az idi.

Neandertal adamı və onun müasirləri böyük buzlaşma dövründə yaşamışlar. Onların həyatı (Afrika və Cənubi Asiyada yaşayanlar istisna olmaqla) sərt iqlim şəraitində keçmişdir. Ehtimal ki, onlar mağaraları tutmaq üçün uzun müddət vəhşi heyvanlara qarşı mübarizə aparmalı olmuşdular. Bu mərhələdəki insan yaşayan mağaraların çoxunda od qalıqlarına və yanmış

heyvan sümüklərinə təsadüf edilmişdir. Soyuqdan və vəhşi heyvanlardan özünü qorumaq üçün insanların oddan istifadə etdiyi şübhəsizdir. Çox ehtimal ki, bu zaman insanlar artıq süni surətdə od əldə etməyi öyrənmişdilər. Tapılan sümüklərdən neandertal adamlarının mamont, ayı, vəhşi at, donuz və başqa heyvanları ovladıqlarını demək olar. Ovçuluq bu zaman da maddi istehsalın əsas sahəsi imiş.

Təbiət qüvvələrinə və iri vəhşi heyvanlara qarşı mübarizə pitekantrop və sinantropların yaşadıqları dövrdə olduğu kimi, neandertalların yaşadığı dövrdə də çox çətin olmuşdur. İstehsal alətlərinin bəsitliyi və az məhsuldarlığı şəraitində ayrı-ayrı fərdlərə həyat uğrunda mübarizədə qələbə qazanmaq asan iş deyildi. Təsadüfi deyildir ki, neandertalların tapılan sümükləri tədqiq edilərkən onların çoxunun 20 ildən az yaşadığı məlum olmuşdur. Bu, bir daha qədim insanın həyat şəraiti haqqında tədqiqatçılardan birinin aşağıdakı sözlərini xatırladır: «... ibtidai insanlar yaşayışın çətinlikləri içərisində, təbiətlə mübarizənin çətinlikləri içərisində tamamilə boğulurmuşlar». Belə həyat şəraiti hələ neandertal adamların əcdadlarını sürülərlə dolaşmağa və əlbir əməklə yemlənməyə məcbur etmişdi.

Çox ehtimal ki, bu sürülər sonralar məhz neandertalların yaşadığı dövrdə matriarxat nəsli insan icmalarına çevrilmişdir.

**İrqi formalaşma.** Neandertallar və onların dövrü haqqında danışarkən bir hadisəni də qeyd etməliyik. Neandertalların nəsilləri təxminən 45-40 min il bundan əvvəl Avropa, Asiya və Afrikada yayılmışlar. Bu yerlərdə tapılan insan qalıqlarından artıq o dövrdən indiki üç əsas insan irqinin formalaşmağa başladığını görmək olar. Avropoidlərin ilk nümayəndələri (məsələn, Kromanyon adamı) o zaman başlıca olaraq Avropada, zənci irqinin (neqroidlər) ilk nümayəndələri (qrimaldi adamı) Aralıq dənizi hövzəsində yaşayırmışlar. Monqoloidlərin sümük qalıqlarına ilk dəfə 1927-ci ildə Çində (sinantrop), 1937-ci ildə Sibirdə, Afont dağındakı (Krasnoyarsk) düşərgədə təsadüf edilmişdir.

Lakin bu irqlərin hələ ən qədim nümayəndələrini bir-birindən çox çətin ayırmaq olur və onların hamısının bir mənşəyə malik olduqlarını görmək çətin deyildir. Bu adamlar irqlərə bölünmənin ilkin dövrünün nümayəndələri idi. Neandertal adamlarının yaşadığı dövrə qədər ailə-nikah münasibətlərində də, şübhəsiz ki, müəyyən irəliləmələr olmuşdur. Bu münasibətlərin forması haqqında qəti bir söz demək çox çətindir. Lakin hər halda, ehtimal etmək olar ki, cinsi münasibətlər daha məhdud dairədə olmuşdur. İnsan qrupları parçalandıqca və kiçildikcə nizamsız cinsi əlaqələr də müəyyən səliqəyə düşmüşdür. Hər şeydən əvvəl, yəqin ki, valideynlər və onların övladları arasında məhdudiyyət qoyulmuşdur.

Neandertal adamların şüur inkişafına gəldikdə, bunu, hər şeydən əvvəl, onların əmək alətlərinin daha da təkmilləşməsi ilə müəyyən etmək olar.

Mustye mərhələsində biz ilk dəfə olaraq dəfnetmə adətinə təsadüf edirik ki, bu da neandertallarda təbiət qüvvələri qarşısında acizlik nəticəsi olaraq, ilk ayinlərin yarandığını göstərir. Tədqiqat zamanı 20-yə qədər neandertal adamın sümüklərindən onların vaxtilə dəfn edildiyi məlum olmuşdur. Bəzən bir qəbirdə iki cəsədin basdırıldığı da göstərilmişdir (məsələn, Krımda). Meyitləri qol və dizləri bükülü halda dəfn etmişlər. Beləliklə, dəfnetmə ayini kimi müəyyən bir inam - etiqad, göründüyü kimi, insanlarda lap əvvəlcədən deyil, sonralar, insanların əmələ gəlməsindən təxminən 600-500 min il sonra yaranmışdır.

**Kromanyonlar.** Neandertal insanlar bilavasitə kromanyonluların ulu babaları olmuşlar. Əvvəla, ona görə ki, bütün kromanyon insanlarının sümükləri abidələrin nisbətən üstdəki təbəqələrindən tapılmışdır. Həm də neandertalların sümükləri ilə birlikdə, bir ədəd də olsa, üst paleolitə aid silah tapılmamışdır. Bunlardan əlavə, kromanyon adamları fiziki quruluşca sinantrop və neandertallardan daha mükəmməldirlər. Kromanyon adamlarının qalıqlarına Aralıq dənizi hövzəsində, Ön və Orta Asiyada, Krım və Qafqazda, Şərqi və Orta Avropa ərazisində çox təsadüf edilmişdir.

Aralıq dənizi sahilində (İtaliya) Qrimaldi adlı yerdəki bir mağaradan tapılmış və tədqiq edilmiş insan sümükləri kromanyon adamlarını daha yaxşı öyrənməyə imkan vermişdir. Bu adamlar neandertallara nisbətən daha düzgün bədən quruluşuna, inkişaf etmiş alın və beyin həcminə (gənclərdə 1580 $sm^3$) malik olmuşlar. Kromanyonlular tam şaquli vəziyyətdə yerimişlər.

Neandertallara nisbətən daha inkişaf etmiş olan kromanyon adamları mürəkkəb işlər görə bilmiş və Mustye mərhələsinə aid silahlara nisbətən daha təkmilləşmiş alətlər hazırlamağı bacarmışlar.

Fransanın Orinyak adlı yerində tapılmış Mustye tipli alətlər içərisində daha təkmil əmək alətlərinə də təsadüf edilmişdir. Ehtimal ki, bu alətlər daha yüksək keyfiyyətli əmək alətlərinin hazırlanması və işlədilməsinə - keçid dövrünə aiddir. Həm də alətlərin Mustye tipli silahlarla qarışıq olması onların Mustye alətlərinin təsiri altında yarandığını təsdiq edir.

Orinyak alətləri kəsərlərdən, mızraq uclarından, bizdən, çaxmaqdaşı neştərlərindən, getdikcə xırdalaşan müxtəlif daş alətlərdən, çoxlu sümük və heyvan buynuzundan hazırlanmış alətlərdən ibarətdir. İlk dəfə olaraq, sümükdən düzəldilmiş müxtəlif nizə ucluqlarına, hətta sümük tilovlara (Hamburq yaxınlığında) təsadüf edilmişdir. Orinyak əmək alətləri orta paleolit silahlarına nisbətən daha da təkmilləşmiş silahlardır. Arxeoloqlar bu dövrün əmək alətlərini yuxarı paleolit dövrünə aid etmişlər.

Üst paleolit alət-silahları Orinyakdan əlavə, Solyutre (Şərqi Fransa) və Madlen mağaralarında da (Cənubi Fransa) çoxlu miqdarda tapılmışdır. Bu alət-silahlar sümükdən daha çox istifadə edilməklə hazırlanmış və bununla da Orinyak alətlərindən fərqlənmişlər. Madlen silahları (alətləri) arasında sümükdən və buynuzdan düzəldilmiş çoxlu iynə, biz və ağaca keçirtmək üçün xüsusi oyuğu olan ox ucluqlarına da təsadüf edilir. Üst paleolit tipli alətlər Don çayı boyunda (Voronejdən 23 km cənubda) və Qafqazda, Sibir və Krımda, həmçinin Azərbaycanda da tapılmışdır.

Bu istehsal alətləri və silahlar üst paleolit dövrü adamlarının istehsal üsulları və ictimai münasibətlərini öyrənməyə imkan verir. Bunlara əsasən demək olar ki, üst paleolit dövründə insanların həyat tərzi nisbətən mürəkkəbləşmişdir.

# II HİSSƏ. ARXEOLOGİYA

## II FƏSİL

## QAFQAZDA ARXEOLOGİYA ELMİNİN YARANMASI VƏ FORMALAŞMASI TARİXİ

### 1. Giriş

**I. Arxeologiya** - insan tarixini maddi mənbələr əsasında, özünəməxsus səciyyəvi üsullarla öyrənən elm sahəsidir. Arxeologiya yunan sözü olub hərfi tərcümədə, "qədim dövr haqqında elm" deməkdir.

Bəşəriyyətin yaranışı, maddi, mənəvi və ictimai həyatın inkişafı haqqında məlumatları biz tarixi mənbələrin tədqiqi nəticəsində əldə edirik. Tarixi mənbələr müxtəlif olub 2 əsas qrupa bölünür: yazılı və maddi mənbələr.

Arxeologiya elmi əsasən maddi mənbələrin tədqiqi ilə məşğul olur: insan əlinin məhsulu olan əmək alətləri, silahlar, qədim tikililərin qalıqları və s. Bəzən arxeoloqlar yerüstü yazılı mənbələr və abidələrlə işləməli olurlar, məsələn: qayaüstü təsvirlər, epiqrafik mətnlər. Lakin buna baxmayaraq başlıca arxeoloji mənbələr yer altından əldə edilir və özündə insanın keçmiş həyatı haqqında çoxlu sayda maddi mənbələri qoruyub saxlayır. Bu mənbələrin aşkar edilməsi, öyrənilməsi və nəticələrin çıxarılması arxeologiya elminin əsas vəzifəsi hesab olunur. Beləliklə, arxeologiya müstəqil elm sahəsi olub, öz tədqiqat predmetinə və özünəməxsus tədqiqat metodlarına malikdir. Tarix və arxeologiya elmi ayrılmazdır, onları bir-birindən yalnız tədqiqat mənbələrinin müxtəlifliyi və bu mənbələrin öyrənilmə üsulları fərqləndirir. Tədqiqatların məqsədi insan tarixinin öyrənilməsi isə dəyişməz olaraq qalır. Tarix elmindən fərqli olaraq arxeologiya insan tarixinin bütün bölmələrinin tədqiqi ilə məşğul olmur və buna görə də, arxeologiyanın dünyəvi elmlər sırasında xüsusi yeri vardır.

Bildiyimiz kimi, ən qədim yazılı mənbələr e.ə. IV minilliyin II yarısına aid edilir və cəmiyyətin inkişaf tarixinin yalnız 6 min illik bir mərhələsini işıqlandırır. Bu mərhələ əsasən ilk dövlət qurumlarının meydana gəlməsi və formalaşması ilə səciyyələnir. Yer kürəsinin bir çox ərazilərində, o cümlədən də Qərbi və Şərqi Avropada yazılı mənbələr e.ə. I minilliyin II yarısına aid edilir. Beləliklə, arxeologiya tarixin xronoloji çərçivələrini genişləndirir və qədim tarixin araşdırılması birbaşa axreoloji mənbələrin tədqiqindən asılıdır.

Arxeoloji abidələr və qədim əşyalar əsas arxeoloji mənbələr olub tarixi proseslərin araşdırılmasında mühüm rol oynayır və tarixin digər

tədqiqat obyektlərindən, o cümlədən yazılı mənbələrdən öz spesifikliyi ilə fərqlənir.

**II. Arxeoloji mənbələr.** Arxeoloji mənbələr öz xarakterinə və daşıdığı informasiyanın növünə uyğun olaraq xüsüsi qrupa aid edilir və aşağıdakı növlərə bölünür:

1. Əmək alətləri.
2. Silahlar.
3. Məişət əşyaları.
4. Dini-inanc xarakterli əşyalar.
5. Bəzək əşyaları.

Arxeoloji mənbələr öz adət-ənənələri ilə fərqlənən uzaq keçmişin mədəniyyət qalıqlarıdır ki, bu mənbələrin araşdırılması da xüsusi yanaşma tələb edir. Həmçinin nəzərə alınmalıdır ki, arxeoloji mənbələr əsasən fraqmental xarakterlidir və çox vaxt təbii, yaxud fiziki amillərin təsiri altında dəyişikliklərə məruz qalmış şəkildə aşkar olunur. Onların daşıdıqları informasiya birtərəfli olmayıb tarixin müxtəlif mərhələlərinə aid məlumatları əhatə edir. Qeyd edilən səbəblərə görə arxeoloji mənbələr dəqiq tarixi fakt hesab edilə bilməz. Bu, sözü gedən mənbələrin əsas çatışmayan cəhətidir. Qarşıya çıxan digər çətinliklərdən biri də onların ölü, artıq mövcud olmayan mədəniyyətin qalıqları olmalarıdır.

Arxeoloji materialların güvənli saxlanma, yeri sözsüz ki, torpaqdır. Torpaqdan aşkar edilən əşyaların sayı hər il artmaqdadır. Yeni tədqiqat üsullarının tətbiqi və texnologiyanın inkişafı sayəsində bu mənbələrdən yeni məlumatlar əldə olunur, yeni nəticələr çıxarılır və zaman keçdikcə onlara olan tarixi baxışlar dəyişir.

**Arxeoloji abidələr.** Arxeoloji abidələri istənilən ərazidə aşkar etmək olmaz. Bu yalnız yaşamla bağlı olan qədim yaşayış məskənlərində və insanların dəfn olunduğu yerlərdə mümkündür. Belə yerlər ümumilikdə arxeoloji abidə adlanır. Öz xüsusiyyətlərinə görə abidələr müxtəlifdir. Ən geniş yayılmış arxeoloji abidələr qədim yaşayış məskənləridir. Aid olduğu dövrdən və xarakterindən asılı olaraq arxeoloji abidələri aşağıdakı qruplara bölmək olar: müvəqqəti məskənlər - daş dövrü (paleolit, neolit) üçün mağaralar, düşərgələr, dayanacaqlar, daha sonrakı tunc, dəmir dövrlərinə və ilk orta əsrlərə xas olan təbii istehkamlar, arxlar və ya torpaq sədlərlə əhatə olunmuş yüksəkliklərdə salınan yaşayış məskənləri - kəndlər, süni istehkamlarla möhkəmləndirilmiş məskənlər şəhərlər aiddir. Yaşayış məskənləri yerləşmiş ərazilərdə torpaq qatı altında əsasən evlərin, daş, tunc və dəmir əmək alətlərinin qalıqları aşkar olunur.

Arxeoloji abidələrin digər böyük qrupunu - qəbirlər təşkil edir. Qafqazın bəzi bölgələrində və ümumiyyətlə, dünyada müxtəlif dövrlərə aid edilən, öz quruluşu ilə bir-birindən fərqlənən bir çox qəbir abidələri aşkar

edilib tədqiq olunmuşdur. Bunlar torpaq, yaxud daş kurqanlar, daş qutular, katakombalar, kromlex və torpaq üzərində heç bir izi olmayan ən sadə torpaq qəbirlər, dolmenlər, daşdan yonulmuş sərdabələr, gil küplərdir. Ən geniş yayılmış abidələrə toplu qəbirlər və kurqanlar aid edilir. Kurqan - bir və ya bir neçə qəbirin daş və torpaq və yaxud onların qarışığının örtülməsi nəticəsində əmələ gələn təpəyə deyilir. Kurqanlar əsasən toplu şəkildə müşahidə olunur, onlara nadir hallarda tək-tək rast gəlinir. Arxeoloqlar tez-tez heç bir yerüstü qurğuya malik olmayan qəbirlərlə işləməli olurlar. Araşdırmalar göstərir ki, qədim dövr dəfn mərasimlərində dövrün inanclarına uyğun olaraq qəbirlərə mərhumla birlikdə müxtəlif əşyalar qoyulurdu: əmək alətləri, silahlar, bəzək əşyaları, dulusçuluq məmulatları və s.

Arxeoloji abidələrdən sayılan qədim yataqlar və dağ-mədən işləri aparılan yerlərdə xüsusi maraq doğurur. Bu tip abidələr dövrün istehsalat mənzərəsini özündə canlandırır və bizdə əcdadlarımızın əmək prosesi barədə müəyyən təsəvvür yaradır. Onu da qeyd edək ki, qədim yataqlar adətən dağlıq ərazilərdə yerləşir.

Arxeoloqlar qədim insanın izləri olan mağaraları, məbədləri, cızma və döymə üsulu ilə həkk olunmuş qayaüstü rəsmlərin - petroqliflərin tədqiqi zamanı qiymətli materiallar əldə edirlər. Bu nadir abidələr tarixin müxtəlif mərhələlərində yaradılmışdır.

Bəzi yerlərdə ilk hidrotexniki qurğuların və yolların qalıqlarına da rast gəlinir. Bunlar da öz növbəsində arxeoloji abidə hesab olunur.

Arxeoloji abidələrin qazıntıları zamanı tədqiqatçılar yalnız maddi mənbələri aşkar edilməsi ilə məşğul olmurlar. Məs., yaşayış məskənləri öyrənilərkən məskənin yerləşdiyi ərazi, evlərin quruluşu, onların yerləşmə prinsipi və sayı, qəbirlərin tədqiqi zamanı isə qəbir abidələrinin quruluşu, yazıların və qaya təsvirlərinin araşdırılması zamanı təsvirin qayaya həkk olunma üsulu, süjeti, rəsmin bədii tərtibatı diqqətlə araşdırılır və elmi nəticələr çıxarılır.

Arxeoloji materiallar hətta abidə sərhədləri çərçivəsində də yerli-yerində olmurlar, onların öyrənilməsi əsasən dağılıb uçulması ilə əlaqədar olur. İnsan kollektivinin ərazidə uzunmüddətli məskən salması nəticəsində xüsusi mədəni təbəqə yaranır və bu təbəqələrdə əşyalar torpaq qatı ilə örtülmüş şəkildə olur. Əgər biz torpağın qalınlığını şaquli istiqamətdə kəssək, onun ayrı-ayrı qatları ən aşağı materik əsasından ən yuxarı yer qabığına qədər görünəcək. Bu qatlar arasında insan fəaliyyətinin qalıqları, tikinti və təsərrüfat tullantıları, orqanik məhsulların çürüntüləri, evlərin və təsərrüfat quyularının qalıqları olan zəngin təbəqələr yerləşir.

Hər bir yaşayış məskənlərində təbəqələrin rəngi, yerləşmə dərinliyi, qalınlığı, müxtəlif olduğu kimi, oradakı insan fəaliyyətinin qalıqları da müxtəlif olur. Mədəni təbəqənin bu kimi xüsusiyyətləri önəmlidir. Belə ki,

bir yaşayış məskənində müxtəlif dövrlərə aid bir neçə mədəni təbəqə yerləşə bilər. Mədəni təbəqənin qalınlığı dövrdən, buradakı insan fəaliyyətinin intensivliyindən və təbii amillərdən - torpağın eroziyası, küləyin istiqaməti və s.-dən asılıdır. Arxeoloqlar yaşayış məskənində araşdırma apararkən mədəni təbəqənin tərkibi, təbəqələrin yerləşmə ardıcıllığı, qurğular və onlar arasındakı əlaqəni öyrənirlər. Təbəqələrin bu cür araşdırılması stratiqrafiya (təbəqələrin təsviri) adlanır. Stratiqrafiya xronoloji nəticələrin çıxarılmasında böyük rol oynayır.

**Arxeoloji mədəniyyət -** İnsan fəaliyyətinin nəticəsi olan torpaq altındakı qalıqları aşkara çıxararkən arxeoloqlar bir çox hallarda insanların mədəni, dini həyatlarını özündə əks etdirən mənbələrlə üzləşirlər. Arxeoloji mədəniyyətlər aid olduqları dövrlərə görə bir-birindən fərqlənirlər. Hər bir dövrün abidələri öz növbəsində xronoloji cəhətdən və ərazi baxımından fərqli olurlar. Arxeoloqlar böyük xronoloji və sahə kompleksləri ilə işləyirlər və bu komplekslərin tərkibindən tarix üçün maraqlı olan arxeoloji mədəniyyət abidələrini ayırırlar.

**Arxeoloji mədəniyyət -** bu termin müəyyən bir ərazidə cəmləşmiş eyni dövrə aid edilən arxeoloji abidələrin və əşyaların toplusunu bildirir. Arxeoloji mədəniyyətin müəyyən olunmasında yaşayış məskənləri qəbir abidələri, əmək alətləri, dulusçuluq məmulatları və bəzək əşyaları əsas ünsür hesab olunur.

Bəzən arxeoloji mədəniyyət konkret bir xalqın tarixinə uyğun gəlir. Lakin heç də həmişə maddi-mədəniyyət elementlərinin uyğunluğu etnik cəmiyyəti əks etdirmir. Deməli, arxeoloji mədəniyyət hamımız tərəfindən qəbul olunmuş mədəniyyət anlayışından fərqlənir.

Arxeoloji mədəniyyətin adı bir çox hallarda bu mədəniyyətin ilk tapıntılarının aşkar edildiyi yerin, yaxud da daha önəmli hesab olunan abidənin adı ilə adlandırılır. Məs., Quruçay, Kür-Araz, Koban, Andropovski, yaxud da arxeoloji əlamətlərə uyğun olaraq: ağacdan, katakombalı və.s.

Bütövlükdə, arxeoloji mədəniyyətlərə verilən adlar nisbidir.

## 2. Qafqazda arxeologiya elminin inkişaf tarixi

Qafqaz ilk insan məskənlərinin formalaşdığı başlıca ərazilərdən biridir. Qafqaz ərazisində, demək olar ki, bütün arxeoloji mərhələlərə aid abidələr mövcuddur. Bu abidələrin sayca sıxlığı, xarakteri, ərazinin təbii şəraiti, coğrafi mövqeyi Ön Asiya ölkələri ilə qonşuluqda yerləşməsi ilə də əlaqədardır.

Qafqazda arxeoloji abidələrin tədqiqinə ilk dəfə 1829-cu ildə başlanılmışdır. Bu zaman rus alimi A.Yanovski İmperator Arxeoloji Komissiyası ilə birgə Plininin məşhur "Təbiət tarixi" əsərinin öyrənilməsinə

başlamış və əsər əsasında Qafqazın toponimlərinin yerləşmə əraziləri barədə "Qafqaz Albaniyasının qədimliyi" məqaləsini çap etdirmişdir. XIX əsrin 30-cu illərindən etibarən Qafqaza əcnəbilərin axını başlayır. İlk dəfə 1834-cü ildə İsveç əsilli alim Dubua de Manperi tərəfindən indiki Göygöl rayonu ərazisində qazıntı işləri aparılmış və nəticədə tədqiqatçı aşkar etdiyi qiymətli tapıntıları Fransaya göndərmişdir. 1848-ci ildə rus şərqşünası V.Xanikov Bərdə və Naxçıvanda qazıntı işləri aparmışdır. 1862-ci ildə franzsız səyyahı A.Berje Muğanda olmuş və Muğan düzündəki abidələr haqqında qısa məlumat çap etdirmişdi.

1871-ci ildə Gürcüstanda Qafqaz Arxeoloji Komitəsi yaradılır və 1881-ci ildə V Arxeoloji Qurultay üçün hazırlıq işləri görülməyə başlanılır. Bu zamanlar təkcə Azərbaycanın deyil, ümumi Qafqaz abidələrinin tədqiqinə də xüsusi maraq göstərilirdi. M.Polyakovun rəhbərliyi altında Naxçıvanda və N.Selosaninin rəhbərliyi ilə Bərdədə qazıntı işlərinə başlanır. Bundan başqa, bütün Qafqaz ərazisi boyu aşkar olunmuş tunc və erkən dəmir dövrü kurqan tipli qəbir abidələrindən əldə olunmuş əşyalara maraq artır. Belə qeyri-elmi qazıntı işləri Daşkəsən və Gədəbəy rayonlarında misəritmə sahəsində çalışan alman Valdemar Belk tərəfindən aparılmışdı. 1888-1890-cı illər arasında aparılan qazıntılar zamanı 300-dən artıq abidə daş qutu qəbir açılmış, qarət olunmuş və qiymətli tapıntılar Almaniyanın Hamburq, Münhen və Prussiya Xalqları Dövlət muzeylərinə göndərilmişdir. 1880-1882-ci illərdə fransız Jak de Morqan Talış ərazisində 230 qəbir abidəsi açmış və ən qiymətli hesab etdiyi əşyaları Parisin Sen-Jermen muzeyinə aparmışdır. 1892-1903-cü illərdə Şuşada alman dili müəllimi işləmiş Emil Resler Qarabağ və Gəncə çayı vadisində arxeoloji abidələrin tədqiqi ilə məşğul olmuşdur, eneolit, tunc və dəmir dövrlərinə aid maraqlı material toplamış və yuxarıda adları çəkilən "nadir əşya həvəskarları"ndan fərqli olaraq öz işi barədə ətraflı hesabat qoyub getmişdir. Həmin hesabat bu günə qədər arxeoloqlar və tarixçilər üçün qiymətli mənbə hesab olunur.

1903-cü ildən etibarən Yelenendorfda (indiki Göygöl) əczaxanada kimyaçı işləyən Q.Rozendorf Yelizavetpol quberniyasının arxeoloji abidələrində araşdırmalar aparmış, əldə etdiyi nəticələr haqqında Sankt-Peterburqda «İmperator yanında arxeoloji komissiyanın hesabatı»nda məqalə dərc etdirmişdi. Elə həmin dövrdə 1901-ci ildə yaradılmış Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz bölməsi Tiflisdə fəaliyyət göstərməkdə idi. Bu xətlə 1902-ci ildə M.Mayevski adlı şəxs tərəfindən Kür-Araz ovalığı abidələrinin bir hissəsi qeydə alındı. 1905-ci ildən hərbi zabit V.Skinder tərəfindən Gəncə çayı vadisində arxeoloji qazıntı işləri aparılmışdır.

Beləliklə, yuxarıda adı çəkilən bütün şəxslər professional arxeoloq-alim deyildilər və öz işlərində həmişə xəzinə axtaranlar-antikvar həvəskarı mövqeyindən çıxış etmişlər. Buna görə də Qafqazda arxeologiya elminin

formalaşması üçün sanballı heç nə etməmişlər. 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra "İstiqlal" muzeyi təşkil olundu. Muzeyə müntəzəm olaraq arxeoloji tapıntılar daxil olurdu. 1920-1930-cu illərdə Azərbaycanın Sovet İttifaqı tərkibinə daxil olmasından sonra bütün abidələr ümumxalq sərvəti elan olunur və onların əsaslı araşdırılmasına başlanılır. 1920-ci ildə Azərbaycanda yeni mərkəz - Azərbaycan Arxeoloji Komitəsi yaradılır. Bu yönümlü komitələr həmin dövrdə Azərbaycanla yanaşı Gürcüstan və Ermənistanda da təşkil olunmuşdu. 1924-cü ildə Zaqafqaziya respublikaları (Cənubi Qafqaz) Xalq Komissarları tərəfindən arxeoloji abidələrin öyrənilməsi barədə xüsusi dekret imzalanmışdı. İlk dəfə olaraq orta əsr şəhərlərinin (Bakı, Bərdə, Lənkəran) öyrənilməsi məsələsi ortaya qoyulur. 1925-ci ildən etibarən D.Şərifovun rəhbərliyi ilə Qəbələ şəhərində ilk elmi-arxeoloji qazıntı işləri başlanılır. Məhz həmin illərdə yerli arxeoloqlara olan ehtiyac hiss edilirdi. Bu zaman Azərbaycanda qazıntılarda işləmək məqsədilə rus arxeoloq və şərqşünasları təyin olundular. Belə alimlər arasında İ.Meşşanov, A.Miller, A.İessen, T.Passek, V.Latminin adları xüsusi qeyd olunmalıdır. 1928-ci ildən Naxçıvanda arxeoloji qazıntılar başlanılır. Ekspedisiya nümayəndələri Ordubaddakı Xaraba-Gilan abidəsində tədqiqat işləri aparmışdılar. Bu illərdə hökumət tərəfindən aparılan qazıntıların nəticələrinin elmi dərcinə başlanıldı. 1930-cu ildən başlayaraq Azərbaycan ərazisində yerli arxeoloqların rəhbərliyi ilə arxeoloji qazıntı işləri aparılır. Ekspedisiyadan A.Ələkbərov, İ.Cəfərzadə, D.Şərifov, S.Qaziyev və digərləri iştirak edirdilər. İşlər II Dünya müharibəsindən sonra daha da genişlənir. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaradılmasından sonra Tarix İnstitutunun tərkibində Arxeologiya və Etnoqrafiya bölməsi açılır. 1946-cı ildə Mingəçevir arxeoloji eskpedisiyası S.Qazıyevin rəhbərliyi ilə işə başlayır. Qazıntılar zamanı 20 mindən artıq elmi əhəmiyyətli və qiymətli eksponatlar aşkar olunub götürülmüşdü. Bu eksponatlar haqqında məlumat "Azərbaycanın maddi mədəniyyəti məcmuəsi"ndə öz əksini tapmışdı. Məcmuənin ilk üç sayı Mingəçevir qazıntılarının nəticələrinə həsr olunmuşdur.

1947-ci ildə Azərbaycanın görkəmli arxeoloqu İ.Cəfərzadənin rəhbərliyi ilə Qobustan qayaüstü rəsmlərinin tədqiqinə başlanıldı. 1951-ci ildə isə O.Həbibullayev Naxçıvan ərazisində məşhur çoxtəbəqəli Kültəpə abidəsini aşkar edir. 1953-cü ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində stasionar arxeoloji işlər aparılır. 1956-cı ildə M.Hüseynov paleolit abidələrinin öyrənilməsi ilə məşğul oldu. Azıx mağarasında tədqiqat işləri 1960-cı ildən başlamış 1980-ciilədək davam etdirilmişdir. Bununla da Azərbaycanın ilk insan məskənlərindən biri olması təsdiq olunur.

XX əsrin 60-70-ci illərində İ.Nərimanov tərəfindən fasilələrlə eneolit dövrünə aid bir sıra yaşayış yerləri, Şomutəpə, Töyrətəpə, İlanlıtəpə,

Qarğalar təpəsi və s. tədqiq edilmişdir və abidələr Cənubi Qafqazın qədim əkinçilik mədəniyyətini özündə əks etdirdiyinə görə Şomutəpə mədəniyyəti adlandırılmışdır. İlk əkinçilik mədəniyyəti abidələri İ.Nərimanovun rəhbərliyi ilə Azərbaycanın Mil-Qarabağ və Muğan düzündə də tədqiq olunmuşdur. Bu abidələr içərisində Əlikömәktəpədə (Cəlilabad rayonu) hazırda da tədqiqat işləri davam etdirilir.

Prof. Q.S.İsmayılzadənin rəhbərliyi ilə Azərbaycanın çoxtəbəqəli abidələrindən olan Qaraköpəktəpə yaşayış yeri və Kəlbəcərin qayaüstü təsvirləri XX əsrin 70-ci illərində öyrənilmişdir.

Prof. V.Əliyevin Naxçıvanda ardıcıl apardığı tədqiqatlar zamanı Gəmiqaya petroqliflərinin öyrənilməsinə başlanılmışdır.

1992-ci ildə Arxeologiya və Etnoqrafiya İnstitutu yaradıldı. İnstitut tərəfindən mütəmadi olaraq bütün Azərbaycan ərazilərində yüksək elmi səviyyəli arxeoloji qazıntı işləri aparılır. Yalnız Bakı-Ceyhan, Bakı-Ərzurum və digər kommunikasiya xətləri deyil, bütün problemli məsələlər olan yerlər araşdırılır.

Azərbaycanın antik və orta əsr şəhərlərinin öyrənilməsində İ.Babayevin, Q.Əhmədovun, R.Göyüşovun, R.Məlikovun, T.Dostiyevin, A.Məmmədovun və başqalarının əməyi böyükdür.

Şimali Qafqazın Krasnodar vilayətində 1898-ci ildə fransız alimi Jozef de Bau tərəfindən II mustye düşərgəsi qeydə alınmışdır. 1899-1902-ci illərdə fransız alimi Jak de Morqan Qafqazda apardığı arxeoloji kəşfiyyat işləri zamanı üst paleolit və müstye mədəniyyətinə aid yerüstü arxeoloji materiallar toplamışdır.

1925-1928-ci illərdə S.N.Zamyatnin Qafqazın II paleolit düşərgəsində arxeoloji tədqiqat işləri aparmış, paleolit dövrünə aid arxeoloji materiallar əldə edilmişdir.

1934-1950-ci illərdə S.N.Zamyatnin, M.Z.Paniçkina, A.A.Formozov Qafqaz ərazisində geniş miqyasda arxeoloji tədqiqat işləri aparmış və nəticədə Axştır, Navalişin, Voransov, Asin və digər arxeoloji abidələri qeydə almışdır.

1955-1990-cı illər ərzində fasilələrlə Cənubi Osetiya ərazisində V.P.Lubinin rəhbərliyi altında arxeoloji kəşfiyyat işləri aparılmış və Kudaro I, II, III, V və Toni mağara düşərgələri tədqiq olunmuşdur.

1960-1970-ci illərdə Qafqaz ərazisində aparılan arxeoloji kəşfiyyat işləri zamanı Ortava, Yaştux, Curcula, Laşe-Balta, Manaş, Sakariya, Sisxvati, Abadzex və digər paleolit düşərgələri qeydə alınmışdır.

Qafqazın mezolit dövrünün çöl tədqiqat işlərində B.A.Kuftin, S.N.Zamyatin, L.N.Salavyov, L.N.Maruaşvili, L.N.Kalanadze, A.D.Neoradze, İ.Caparidze, M.M.Hüseynov, İ.Cəfərzadə, X.A.Əmirxanov, V.P.Lyubin, Q.S.İsmayılzadə və başqaları iştirak etmişlər.

Şomutəpə tipli abidələrə Gürcüstan ərazisində də təsadüf edilmişdir. Bu tip yaşayış yerlərindən İmirisqora, Xramis Didiqora, Sosi, Aruxlo, Qadaçrimeqora, Danqreuliqora və başqa abidələrdə 1965-ci ildə Tibilisi Dövlət Universiteti və Gürcüstanın Dövlət Tarix Muzeyi tərəfindən ekspedisiyalar təşkil olunmuşdur. O.M.Caparidze, A.İ.Cavaxişvili və Gürcüstan EA-nın Tarix İnstitutu, arxeologiya və Etnoqrafiya İnstitutu bu abidələrin bəzilərində - Şulaverisqora, İmirisqora, Xramis Didiqora və Aruxlo I-də arxeoloji tədqiqat işləri aparmışdır.

Qərbi Azərbaycan ərazisində (İndiki Ermənistan) Ağrı düzənliyində (Ararat düzənliyi) Texut, Şenqavit, Adablur (Kzyaxblur), Saxkunk, Xatunarx və başqa oturaq əkinçi tayfalarına məxsus abidələrdə qazıntı işləri 1965-1968-ci illərdə aparılmışdır.

Dağıstan ərazisində XX əsrin 60-cı illərində (Dağıstanın dağlıq ərazilərində) Qinçi yaşayış yerində eneolit dövrü Kür-Araz mədəniyyətinə aid maddi mədəniyyət qalıqları tapılmışdır. Abidədə M.Q.Hacıyev tərəfindən tədqiqat işləri aparılmışdır. Bu ərazidə Qanşima, Yuxarı Labkomaxi abidələrində də 1975-ci ildə tədqiqat aparılmışdır.

### 3. Arxeoloji dövrləşmə və xronologiya

Məlumdur ki, insan tarixi bu və ya digər formasiyanın inkişafı ilə bağlı olaraq dövrlərə bölünür. Arxeologiya elmində xüsusi dövrləşmə işlənib hazırlanmışdır. Bu dövrləşmə müvafiq dövrü xarakterizə edən əmək alətlərinin hazırlandığı materiallara, hazırlanma texnikasına və maddi istehsalata əsaslanır. Ümumilikdə, bəşər tarixi üç böyük dövrə bölünür: daş, tunc və dəmir dövrü. Bu mərhələlərin hər biri də öz növbəsində müxtəlif mədəniyyətlərə və dövrlərə ayrılır. İstənilən arxeoloji dövr tarixi inkişafın uzunmüddətli bir zaman kəsiyidir. Məs., daş dövrünün əhatə etdiyi təxminən 2,5 mln. il ərzində əmək alətləri, onların hazırlanma üsulları mükəmməlləşdirilmiş, insanın özü dəyişmiş, bacarıq və təcrübəsi artmışdır. Məhz bu səbəbdən də, daş dövrü aşağıdakı mərhələlərə bölünür:

1.Paleolit (qədim daş dövrü); 2.Mezolit (orta daş dövrü); 3.Neolit (yeni daş dövrü).

Daş dövrü ilə tunc dövrü arasında eneolit yaxud «mis-daş» dövrü kimi tanınan keçid mərhələ olmuşdur. Bu mərhələ əsas etibarilə daşdan olan əmək alətlərinin istifadəsi, əmək prosesi və mis alətlərin tətbiq olunması ilə xarakterizə olunur.

Daha sonrakı mərhələ tunc dövrü adlanır. Bu dövrün səciyyəvi əlaməti misin tərkibinə bir sıra komponentlər əlavə etməklə yeni metal olan tuncun kəşfidir.

Nəhayət, dəmirin kəşfi və intensiv tətbiq olunması ilə (e.ə. təxminən IX-VI əsrlər) bəşər tarixinin yeni mərhələsi-dəmir dövrü başlanır.

Beləliklə, arxeoloji dövrlər əsas əmək alətlərinin təkamülü və onların hazırlanma üsuluna əsaslanaraq insan tarixinin başlıca xüsusiyyətlərini özündə əks etdirir. Lakin insan cəmiyyətinin formalaşması və ictimai münasibətlər haqqında tam dolğun təsəvvür yaratmır. Arxeoloji dövrləşmənin işlənib - hazırlanması arxeologiyanın inkişafı ilə birbaşa əlaqədardır. Müasir arxeoloji dövrləşmənin əsasları XIX əsrin sonu XX əsrin əvvəllərində hazırlanmışdır. Arxeologiyanın vəzifəsi təkcə maddi və ictimai həyatın tarixi proseslərinin araşdırılması ilə məhdudlaşmır, həmçinin tarixi hadisələrin xronologiyasını da müəyyənləşdirir. Xronologiya arxeologiyanın əsas hissəsi kimi çıxış edir və tarixi proseslərin gedişini özündə əks etdirir. Arxeologiya həm nisbi, həm də mütləq dəqiq xronologiyadan faydalanır. Nisbi xronologiyanın köməyi ilə dövrlərə uyğun arxeoloji materialların yerləşməsi müəyyən olunur, hadisələrin ardıcıllığı, eyni yaxud müxtəlif dövrlərə aid olması aşkar olunur. Məs.: konkret bir ərazidəki arxeoloji abidə çərçivəsində hansı mədəniyyət nümunələrinin daha qədim olması, tikililərin nisbi yaşı və s.

Bütün bunlarla yanaşı arxeoloqları dəqiq mütləq xronologiya da maraqlandırır. Konkret tarixlərin müəyyən olunmasında il hesabı tətbiq olunur.

Arxeoloji əşyalar, komplekslər, ayrı-ayrı mədəniyyət və abidələrin xronologiyası arxeologiya və təbiət elmləri tərəfindən hazırlanmış müxtəlif metodlarla müəyyənləşdirilir. Nisbi xronologiyanın öyrənilməsi zamanı müqayisəli, yaxud tipoloji analiz üsulundan istifadə olunur. Arxeoloqlar mədəni təbəqələrdən və qəbirlərdən üzə çıxarılmış çoxlu sayda əşya və maddi komplekslərlə işləyirlər. Bu zaman nisbi xronologiya həmin əşyaların hazırlandığı material və hazırlanma texnikası, mədəni təbəqədə yerləşmə yeri əsasında dəqiqləşdirilir. Arxeoloji kompleksdə dəqiq tarixləri məlum olan əşyalar - sikkələr, qədim yazılar olduğu halda arxeoloq dəqiq xronologiyanı müəyyən edə bilir.

Daş dövrü yaşayış məskənlərinin araşdırılması zamanı tez-tez geoloji, paleontoloji, paleobotanik məlumatlar nəzərə alınır. Yerin dərin qatlarından çıxarılmış heyvan sümükləri və qədim bitkilərin tozlarının nümunələrinə əsaslanaraq arxeoloji abidənin yaşını öyrənmək olur. Bu zaman həmin bitki və heyvanların mövcud olduğu geoloji dövr əsas götürülür.

Dəqiq elmlər tərəfindən işlənmiş digər metodlar da eyni üsulla tətbiq olunmaqdadır. Məs., radiokarbonal dövrləşmə. Bitkilərdə və heyvan sümüklərində atom çəkisi 14 (C14) olan karbon toplanır. Tarixi yaşı müəyyən etmək üçün karbonun orqanik maddədə parçalanma dərəcəsini

bilmək lazımdır. Bu zaman karbon tərkibli maddə nə qədər təmiz olarsa, onun tarixinin müəyyənləşdirilməsində də bir o qədər az səhvə yol verilər.

Dulusçuluq məmulatları, qədim metal mədənləri və gil sobalar olan arxeoloji komplekslərin tarixi yaşını vermək üçün paleomaqnit üsulu tətbiq olunur. Gil çox maraqlı xüsusiyyətə malikdir - soyutma zamanı (800 C-dən 200 C-yə qədər) o təzyiqin və dövrün maqnit sahəsinin istiqamətinin izlərini özündə saxlayır. Lakin yerin maqnit qütbü dəyişkəndir. Maqnit qütbünün illik dəyişməsini bilərək əşyanın tarixini müəyyən etmək olar.

Bəzən dəqiq xronologiyanı müəyyənləşdirmək üçün kimyəvi üsuldan istifadə olunur ki, bu zaman tapılmış sümük qalıqlarının tərkibindəki ftorun səviyyəsi nəzərə alınır. Sümüklərin ftorla zənginləşməsi uzun sürən bir prosesdir və yerləşdiyi təbəqədəki suyun tərkibindən asılıdır. Bu metod sümüklərin yaşı 10 min ildən artıq olduğu halda effektlidir. Sümük qalıqlarının yaşının müəyyənləşdirilməsində daha bir üsul - ultrasəslərin yayılma tezliyidir. Zamanla bu dalğaların sümükdə yayılma sürəti dəyişir. Ultrasəs metodu da məhz bu xüsusiyyətə əsaslanır.

Göstərilən metodlar məhdud tətbiq sahəsinə malikdirlər. Belə ki, dendroxronologiya yaxşı qorunub saxlanmış ağac gövdəsinə tətbiq olunur; geomaqnit üsulunun istifadəsi yalnız gildən hazırlanmış əşyanın bişirilmə yeri dəqiq məlum olan zaman mümkündür. Bu səbədən də hər hansı əşyanın tarixini müəyyənləşdirmək üçün müxtəlif metodlardan istifadə olunur. Müqayisəli-tipoloji analizin nəticələri isə uyğun gələn hər hansı digər metodun köməyi ilə yoxlanılır və yaxud dəqiqləşdirilir.

### 4. Arxeologiyanın bəzi tədqiqat üsulları

Arxeoloqun işində iki araşdırma mərhələsi aid edilir. Onlardan biri maddi obyektlərlə birbaşa işi əhatə edir. Geniş anlamda bu işə qazıntı təcrübəsi, axtarış metodları, nümunələrin götürülməsi texnikası, yerində və yaxud da laborator şəraitdə arxeoloji materialın konservasiya üsulu aid edilir, daha sonra nəticələrin çıxarılmasına başlanır. Arxeoloqlar əldə etdikləri materiala əsaslanaraq öz mülahizələrini irəli sürürlər. Bu mülahizələr müxtəlif istiqamətdə irəli sürülür: xronoloji, yaxud coğrafi yerləşmənin dəqiqləşdirilməsi, tarixi hadisələrin bərpası, sosial qurumlar barədə fikirlər, iqtisadiyyat, dini, texniki təcrübə haqqında və s.

**Kataloqlaşdırma.** Araşdırmaçı yalnız bir məqsədlə müxtəlif abidələrin təsvirini verərək sadə fikirlər irəli sürür: abidənin təbiəti və xarakteri barədə mülahizələrin verilməsi elmi analizə qədər, yaxud paralel şəkildə aparılır. Bu cür dərclər müxtəlif xarakterlidir. Məs., arxeoloji hesabat, materialların təsviri, milli muzey kataloqları, abidələrin beynəlxalq siyahısı və s. Onları birləşdirən cəhət eyni xarakteristikaya malik olan abidə

komplekslərinin ətraflı təsvirinin verilməsidir. Bura qazıntılar haqqında hesabat, əşyanın tipi və funksiyası (heykəllərin kataloqları, silahların siyahısı), saxlanma yeri (muzeylərin kataloqu) və s. daxil edilir. Bütün bunları yalnız bir janrda-geniş anlamda kataloqda toplamaq mümkündür. Kataloqdakı ilkin məlumatlar haqqında olan nəzəriyyə ayrı-ayrı abidələrin konkret təsvirindən daha çox bu abidənin ilk dəfə aşkar olunduğu dövrlə daha sonrakı elmi mülahizələrin irəli sürüldüyü vaxta qədərki zaman kəsiyində verilən təsviridir. Bu qəbildən ən yaxşı nümunə arxeoloji obyektlərin təsnifatıdır. Hər bir arxeoloq bu və ya digər dərəcədə araşdırılan materialların qruplaşdırılması ilə məşğul olur və bu iş müxtəlif adlarla adlandırılır - siniflər, tiplər, formalar, məktəblər, mədəniyyətlər və s. Belə **təsnifatlaşdırma** daha dərin, struktur fərqlərin nümayiş etdirilməsi üçün şərait yaradır. Təsnifatlaşdırmada tədqiq olunan obyektlərin nəzərə çarpan fərqləri öz əksini tapır. Lakin bu metod mənbəşünaslığın əsas aləti hesab oluna bilməz. Yuxarıda təsvir olunan metod və onun izahı artıq tarixi nəticə hesab olunur. Abidələrin səciyyəvi elementlərinə, məsələn, dulusçuluq nümunələrinə, hər hansı heykəllər, divar, qayaüstü rəsmlərə əsaslanaraq bəzi mülahizələr irəli sürmək olar. Beləliklə, kataloqların nəticəsində təxmini təsnifatlaşdırma aparmaq və məntiqi düşüncə əsasında tipləri müəyyənləşdirmək mümkün olur. Həmçinin müəyyən olunmuşdur ki, zaman və məkandan asılı olaraq onlar müxtəlif cür paylaşdırılır. Buradan da arxeoloji obyektlərin müxtəlif şəkildə yayılması və onların evolyusiyası haqqında nəticəyə gəlinir. Arxeoloqlar qədim tikililər və bu tikililərdən əldə olunmuş əşyaların xarici görünüşünə əsaslanaraq sosial fərqlər, onların hansı məqsədlə istifadə olunması və s. haqqında mülahizələr irəli sürürlər.

Beləliklə, arxeoloji nəticələrin əldə olunması üsullarını aşağıdakı şəkildə təsnifləşdirmək mümkündür:

1. Araşdırılan obyektlər haqqında təsəvvürlərin xüsusi təsvir sistemində cəmləşdirilməsi - kataloqlar;
2. Obyektlərin sinif və seriyalar üzrə bu və ya digər dərəcədə sistemləşdirilməsi metodu - təsnifatlaşdırma;
3. Tədqiq olunan təsvirin eyniləşdirilməsi, yəni elementlər arasında əlaqəni aşkar edən mətnlərin tərtib olunması;
4. Arxeoloji faktların izahı, onların digər mənbələrdən - ədəbi mətnlərdən, əlyazmalardan və s.-dən əldə olunmuş ilkin məlumatlar əsasında öyrənilməsi, sosial və tarixi nəticələrin çıxarılması.

## Arxeoloji abidələrin aşkar edilməsi və öyrənilməsi

**Kəşfiyyat.** Bu və ya digər tarixi şəhərin, yaxud da yaşayış məskəninin yerləşdiyi yerin müəyyənləşdirilməsi zamanı bir sıra məsələlər nəzərə

alınmalıdır. Ümumi oriyentasiya üçün çox vaxt qədim yazıçı və coğrafiyaşünasların əsərlərindən istifadə olunur. Yazılı mənbələrdən istifadə edərkən onları topoqrafik məlumatlarla müqayisə etmək gərəkdir. Belə ki, son iki minillikdə həmin yerin fiziki xəritəsində baş vermiş dəyişikliklər nəzərə alınmalıdır. Hər hansı bir ərazidə kəşfiyyat işlərinə başlamazdan əvvəl həmin ərazidə daha öncə aparılmış tədqiqat işlərinin nəticələri, obyekt haqqında bütün müasir ədəbiyyat ətraflı şəkildə öyrənilməlidir. Bundan əlavə, təsadüfən aşkar edilmiş tapıntılar da önəmlidir. Tapıntılar arasında qədim yazılar və sikkələr xüsusi əhəmiyyət daşıyır.

**Aerofotoçəkilişlər.** Ərazinin topoqrafik mövqeyi ilə yalnız müşahidə yolu ilə tanış olmaq kifayət deyil. Həmçinin burada geodez çəkilişlər də aparılmalıdır. Bu tədqiqatçıya, ərazi güclü dağıntılara və dəyişikliklərə məruz qaldığı zaman çox kömək edir. Belə ki, şəhərin mürəkkəb planının tərtib olunması yalnız texniki məsələ hesab olunmur. Bəzən ərazidəki ən xırda relyef dəyişiklikləri belə tədqiq olunan abidənin arxeoloji topoqrafiyasının öyrənilməsinə təsir edə bilər.

**Şurflaşdırma** - kəşfiyyat qazıntıları. Bu məqsədlə mədəni təbəqənin hər hansı artıq açılmış hissəsindən istifadə olunur. Kəşfiyyat işləri üçün dağıntılara daha çox məruz qalmış ərazi seçilir. Kəsik boyu qazıntının uzunluğu 4-5 m, eni isə 1-1,5 m olur. Bu zaman tətbiq olunan metodlar adi qazıntılar zamanı istifadə olunan metodlarla eynilik təşkil edir. Şəhərin arxeoloji topoqrafiyasını müəyyən etmək məqsədilə kəşfiyyat qazıntıları zamanı abidə ətrafında bir deyil, bir neçə təmizləmə işi aparılır. Qaydalara görə kəşfiyyat zamanı aşkar olunmuş bütün arxeoloji abidələr keçilən marşrutu təsvir edən xəritədə qeydə alınmalıdır.

**Qazıntı** - kəşfiyyat zamanı aşkar olunmuş nöqtələrdə daha sonra planlı qazıntı işlərinə başlanır. Qədim şəhərlərin arxeoloji tədqiqatında son mərhələ sözsüz ki, şəhərin bütün ərazisinin aşkar edilməsidir. Burada qarşıda duran əsas məsələlərdən biri şəhərin müxtəlif yerlərində mədəni təbəqələrin formalaşdığı zaman onların xarakterinin müəyyən olunmasıdır. Bu şəhərin ayrı-ayrı rayonlarının dəqiq tarixini tədqiq etməyə şərait yaradır. Tədqiqat aparılacaq ərazi artıq müəyyən edildikdən sonra arxeoloq qazıntı sahəsini hissələrə bölür. Bunun üçün ilk öncə sahədə şimaldan cənuba və yaxud şərqdən qərbə doğru əsas xətt cızılır. Hissələrin künclərinə dəmir çüylər vurulmalıdır. Onları qazıntı işləri zamanı mümkün olan qədər kənarda saxlamaq lazımdır. Sahə hissələrə bölündükdən sonra su tərəzisinin köməyi ilə hamarlaşdırılır. Hamar sahədə relyef ölçülərini hər 2 m-dən bir, nahamar səthdə isə 1 m-dən bir götürmək lazımdır. Ölçmə işlərindən sonra ayrılmış hissələrin sərhədləri müəyyən olunur və 5-7 sm dərinliyində qazılır. Daha sonra ətrafına ip çəkilir və bir neçə nöqtədən şəkilləri çəkilir. Bütün tapıntılar nəzərə alınmalı və gündəlikdə qeyd olunmalıdır - kütləvi materiallar qrup

şəklində, individual tapıntılar - hər biri ayrıca qısa xarakteristikası ilə verilməlidir.

**Yeni arxeoloji metodlar.** Arxeologiyada formallaşdırma prinsipi gözlənilir - bütün əldə olunmuş obyektlər və materiallar öz keyfiyyət və kəmiyyət əlamətlərinə görə təsvir olunur və sistemləşdirilir. Hətta ən erkən elmlərdə də tip, sinif kimi açar sözlərdən elementar (sadə) hesablar aparmaq məqsədilə istifadə olunur. Tədqiqatların müasir mərhələsində arxeoloji materialların işlənməsi daha mürəkkəbdir. O özünə "arxeoloji mədəniyyət", "tipologiya" kimi anlayışları daxil edir. Bilgisayarın arxeoloqun köməkçisi vəzifəsindən çıxış etməsi materialların araşdırılmasına çox az təsir göstərir. Müasir texnologiyaların ən böyük özəlliyi məlumatların işlənməsinin sürətləndirilməsi, o cümlədən də əlavə informasiyanın külli miqdarda olmasıdır. Hazırda alimlər arxeoloji abidələrin məlumat bankını hazırlayırlar. Bu məqsədlə məlumat mənbələrinin idarə sistemi proqramı Dbase4+ proqramından istifadə olunur. Proqram informasiya ilə işi iki istiqamətdə asanlaşdırmağa imkan verəcək - formallaşdırma və analiz. Proqramın əsasında arxeoloji abidələrin sinifləşdirilməsi dayanır.

Bu cür proqramların yaradılmasının əksinə olaraq yeni məlumatların çox böyük həcmdə artması ilə rastlaşdı. Əlamətlər proqramın analitik funksiyalarının yığılması ilə nəticələndi. Buna iki əsas səbəb göstərmək olar:

- bu cür sistemlər xüsusi kataloqlara çevrilir, həmin kataloqlar obyektlər haqqında təsəvvür verirdilər. Belə ki, işlənmə məqsədi ilə nə qədər çox məlumat yerləşdirilirdisə, o qədər də məhdud axtarış sistemi alınırdı.
- proqramı yaradan tədqiqatçılar proqram yaradılarkən istifadə olunmayan yeni hissələrin də zamanla tətbiq olunmasına ümid edirdilər.

XX əsrin 80-90-cı illərinin proqramında ən əsas problemlərdən biri onun möhkəm, sinifləşmə strukturuna malik olması idi. Bu, məlumat mərkəzini yeni informasiya ilə yükləməyə imkan vermir, onun axtarış fayllarını artırmırdı. Belə vəziyyətin səbəbi kimi bir tərəfdən XX əsrin 80-90-cı illər proqramının texniki tərəfdən zəif olması, digər tərəfdən isə tədqiqatçılar öz işlərində sinifləşməyə əsaslanırdılar. Bu gün, *Microsoft, Access, Exsel* və digər proqramların sayəsində məlumat mərkəzinin yaradılmasında tamamilə yeni səviyyə əldə olunmuşdur. Yeni mərkəz əvvəlkindən fərqli olaraq yeni məlumatlar yükləməyə imkan yaradır, həmçinin genişmiqyaslı iş sxemi təqdim edir. Abidələrin sonrakı "bilgisayar işlənməsini" hazırlamaq üçün ilk və ən vacib mərhələ materialın sahədən çıxarılarkən işlənməsi keyfiyyətinin yaxşılaşdırılmasıdır. Əsas məqsəd mümkün qədər çox keyfiyyətli əlamətlərin əldə olunmasıdır (üçölçülü fiksasiya). Bu metod abidələrin qazıntıları zamanı geniş istifadə olunur. Məhz bu, abidənin sonrakı tədqiqatı üçün imkan yaradır. Konkret bir abidənin qazıntıları zamanı materialın üçölçülü qeydə alınması, məsələn,

küplərin qalıqlarını və mikrostratiqrafiyasını izləməyə imkan yaradır. Qazıntı yerində materialın işlənməsinin başqa metodları da var. Məs., bütöv küplərin qeydə alınması, torpağın yuyulması və s.

Bu cür metodların çoxalması tədqiqat obyektlərinə yeni baxış açır. Xarici, mədəni əlamətlərin əvəzinə daxili əlaqələr üzə çıxarılır. Hər bir sümüyün tərkibi, texnoloji kirəmit qruplarının yayılması və s.

Məlumatların işlənməsində digər istiqamət qrafik bərpa üsuludur. Bu üsul abidənin xarakterik keyfiyyətlərini nəzərə alır. Bu cür məsələlər Adope Photoshop, Autodesk (Autodesk Land Desktop) proqramlarının köməyi ilə həyata keçirilir.

Qazıntı zamanı aşkar edilmiş bütün tapıntıların təsvirinin verilməsi abidənin bütövlükdə ilkin görünüşünün bərpasına gətirib çıxarır. Statistik işləmlərin nəticələri də keyfiyyətli əlamətlərə çevrilə bilər.

Kütləvi artıqlarla doldurulmuş arxların qazıntıları zamanı bəzi çətinliklər meydana çıxır. Adətən, arxeoloji material qazıntılar zamanı kirəmit, sümük və daşla dolu "çanta"nı xatırladır. Çətinlik isə ondan ibarətdir ki, çöl şəraitində qazıntılarda koordinat sistemindən istifadə olunur. Buna görə də, bütün daxili əlaqələr haqqında suallar proqram vasitəsilə aydınlaşdırılır. Qaydalara görə iş aşağıdakı ardıcıllıqla aparılmalıdır:

1. Materialın çöl şəraitində qeydə alınması.
2. Materialın kamera şəraitində işlənməsi.
3. Əlamətlər proqramının işlənib hazırlanması.
4. Əldə olunmuş nəticələrin Autodesk proqramına köçürülməsi.

Autodesk proqramı (özündə 3D proyektinin imkanlarını birləşdirən və AutoCad proqramı əsasında hazırlanan AndDesktop) Bu proqram məhsulunun özəlliyi yüksək arsenal funksiyasına malik olmasıdır. Ərazinin relyefinin verilməsi, coğrafi redaktordan təsvirlərin (ağac, daş, sütunlar) köçürülməsi, üçölçülü qrafika və bir çox digərləri bu qəbildən olan funksiyalara aiddir. Beləliklə, arxeoloji materialların öyrənilməsində yeni metodlardan istifadənin nəticələri aşağıdakılardır:

1. Bilgisayarın istifadəsi çoxlu miqdarda əlamətlərin işlənməsinə şərait yaradır.
2. Çöl şəraitində arxeoloji materialların qeydə alınma üsullarının inkişafı.
3. Laborator şəraitdə materiallardan maksimal dərəcədə məlumatların əldə olunması. Bu, arxeoloji abidəni sonrakı tədqiqat mərhələsinə hazırlamaq üçün ən vacib və əsas mərhələ hesab olunur.

Məlumatların işlənməsi üçün bir-biri ilə əlaqəli iki istiqamət əsas götürülür: bütün əlamətlərin kəmiyyət əlamətlərinin keyfiyyət əlamətləri ilə əvəzlənməsi.

# III HİSSƏ. DAŞ DÖVRÜ

## III FƏSİL

## QAFQAZIN DAŞ DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ

### 1. Azərbaycanın daş dövrü arxeoloji abidələri

"Paleolit" terminini ilk dəfə 1865-ci ildə ingilis Lebbok işlətmişdir. Fransız arxeoloqu Buşe de Pert XIX əsrdə elmi cəhətdən sübut etmişdir ki, Avropada daşdan hazırlanmış əmək alətləri aşkar olunmuşdur. Paleolitin tədqiqində növbəti addım Q.Mortilye, A.Beylyanın tapıntıları oldu. Mortilye diqqət yetirmişdi ki, daş əmək alətləri biri-birindən forma və hazırlanma üsullarına görə fərqlənirlər. O, paleolit dövrünü mərhələlərə ayırmış və bu mərhələləri, dövrü xarakterizə edən tapıntıların aşkar olunduğu yerin adı ilə adlandırmışdı. Beləcə ən kobud əmək alətləri Şel (Paris yaxınlığında yer adı) adını aldı. II mərhələ Aşel (Alp dağlarında) adı ilə adlandırıldı. Sonralar Fransada Mustye adlanan yerdə mağaradan orta daş dövrünə aid alətlər tapıldı və həmin yerin adı ilə Mustye adlandırıldı. Müasir arxeologiyada paleolit, qədim, orta, son aşel dövrlərinə, mustye və son paleolitə ayrılır.

Daş dövrü, yaxud paleolit - əmək alətləri və silahların əsasən daşdan hazırlandığı qədim tarixi mərhələdir. Bu mərhələ kalium-karbon analizinin nəticəsinə görə 2.6 milyon il insanın heyvani vəziyyətdən ayrılmasından metalın kəşfinə qədər davam etmişdir. İnsan cəmiyyətinin formalaşması uzun bir proses olub, yüz minillikləri əhatə edir. Bu proses Yer kürəsinin bir sıra yerlərində, daha dəqiq desək, yaşam üçün əlverişli coğrafi şəraitə malik olan ərazilərdə intensiv getmişdir. İnsan cəmiyyətinin formalaşması prosesinin ilkin mərhələsində təbii şərait, yəni coğrafi mövqe inkişaf səviyyəsinə təsir edən başlıca amil olmuşdur.

İlk insanın yaranması Yer kürəsi tarixinin IV mərhələsinə-pleystosen dövrünə təsadüf edir. III mərhələnin sonu (pliosen) Yer kürəsində havanın temperaturunun aşağı düşməsi və bir çox ərazilərin buzlaşması ilə səciyyələnir. Buzlaqların şimalda daha geniş vüsət almasına səbəb iqlim şəraitinin kəskin dəyişməsi olmuşdur. Belə ki, bu dövrdə Avropanın şimal hissəsi, o cümlədən də Alp və Qafqaz dağları tamamilə buz qatı ilə örtülmüşdü.

IV dövr - antropogenez eopleytosen, pleystosen və qolosen dövrlərinə bölünür. Eopleystosen dövründə güns, pleystosen dövründə mindel, riss, vyurm buzlaşmaları olmuşdur.

Müəyyən olunmuşdur ki, pleystosen dövründə Avropa ərazisi üç əsas buzlaşma mərhələsini keçirmişdir: mindel, riss, vyurm. Bu mərhələlər də öz

aralarında iki yerə bölünür: mindel-riss, riss-vyurum. Sonuncu mərhələ buzlaqların çəkilməsi ilə səciyyələnir.

Buzlaşma dövrü yer kürəsinin bütün ərazilərində bərabər səviyyədə getməmişdir. Belə ki, bu dövrdə quru-kontinental iqlimə malik ərazilərdə buzlaq sahələr daha az idi, Afrikanın cənubunda isə ümumiyyətlə, buzlaşma dövrü yağışlarla səciyyələnirdi.

Asiya və Avropanın iri dağ massivləri buzlaqları şimal ərazilərinin buzlaq təbəqəsi ilə birləşmişdi. Buna görə də, Qafqazın buzlaşma dövrü ilə əlaqəli geoloji terminləri nisbi xarakter daşıyır.

Erkən daş dövründə Qafqazda insanların məskunlaşması istiləşmə ilə birbaşa bağlı olmuşdur. Buzlaşmanın sonundan etibarən Ön Asiyanın dağlıq və dağətəyi ərazilərindən şimal istiqamətində insanların miqrasiyası başlamış və ehtimal ki, bəzi qruplar Böyük Qafqaz dağ silsiləsinin ətəklərində yerləşmişlər (o cümlədən Cənubi Osetiyada aşkar edilən aşel dövrü mağaralarda).

Buzlaşmanın yenidən başlanması zamanı Qafqazda həyat şəraiti xeyli dəyişmişdir. Qar kütlələri aşağılara qədər enməyə başlamış, bununla da insanlar dağlıq əraziləri tərk edərək əsasən təbii mağaralarda, dağlararası dərələrdə, açıq tipli düşərgələrdə məskunlaşaraq, tədricən oturaq həyat sürmək məcburiyyətində qalmışlar. Bu zaman qar-buz kütlələri Şimali Qafqazı Cənubi Qafqazdan ayırmışdı. Bununla da üst paleolitdə vyürm buzlaşması dövründə insanların burada yaşaması o qədər çətinləşmişdi ki, onlar dağlıq əraziləri həmişəlik tərk etmişlər.

Qafqazın buzlaq ərazilərinin geoloji sxemi və Qara dəniz, Xəzərin səviyyəsi, yəni kontinental və dəniz çöküntüləri Abxaziyadan (Qafqazın Qara dəniz sahilləri) aşkar olunmuş arxeoloji materiallar nəzərə alınaraq tərtib olunmuşdur.

IV mərhələnin erkən çağlarında Cənubi Qafqazda insan cəmiyyətinin formalaşması üçün əlverişli şərait yaranır. Heç də təsadüfi deyil ki, Qafqaz bölgəsində insan mədəniyyətinin ilk izlərinə məhz Gürcüstan, Azərbaycan, Qərbi Azərbaycan - Zəngəzur mahalı (İndiki Ermənistan) və qismən Abxaziya ərazisində rast gəlinir.

Azərbaycan AMEA Tarix İnstitutunun arxeoloqları apardıqları arxeoloji tədqiqat işləri nəticəsində bir neçə mağara abidəsi aşkar edərək tədqiq etmişlər. Bunlardan Daşsalahlı, Damcılı, Şuşaqala, Daşqala, Azıx, Tağlar, Qazma və Buzeyir mağaralarını göstərmək olar.

Adları çəkilən mağara düşərgələri bəşəriyyət tarixinin müxtəlif dövrlərinə aid edilir.

Bunlardan Azıx mağarası dünya arxeologiyasında xüsusi yer tutur. Mağara 1960-cı ildə Məmmədəli Hüseynov tərəfindən qeydə alınmış və həmin vaxtdan burada arxeoloji tədqiqat işləri aparılmışdır. Mağaranın

kompleks tədqiqi ilə sonradan D.V.Hacıyev, Ə.Q.Cəfərov və digər alimlər də məşğul olmuşlar.

Azıx mağarası Azərbaycanın Qarabağ ərazisində yerləşir. Azıx mağarası Quruçayın sol sahilində olub, dəniz səviyyəsindən 900 m yüksəklikdədir. Mağaranın qarşısında olan Quruçay dərəsi Alp çəmənliyi ilə örtülmüşdür. Mağaranın cənub və şimal tərəfləri dağətəyi meşələrlə əhatə olunmuşdur. Hələ çox qədim dövrlərdə, pliosenin sonlarında, pleystosenin əvvəllərində Azıx mağarası ərazisində Quruçay dərəsi yolu ilə müxtəlif iqlim şəraitində çoxlu heyvanat aləmi yayılmışdır. Eyni zamanda 2 milyon il bundan əvvəl Şərqi Afrikada yaşamış Homo Habilisə yaş etibarı ilə yaxın olan ilk insanlar burada məskən salmışlar.

Quruçay dərəsi istehsal alətləri hazırlamaq üçün zəngin xammal mənbəyi olmuşdur. Burada kvars, kvarsit, çaxmaqdaşı, bazalt, xalsedon, felzit, yaşma və s. minerallar vardır. Azıx mağarası karst mənşəli olub, əsasən son Ağcagil-Abşeron dövrlərində əmələ gəlmişdir. Mağaranın uzunluğu 600 m-dən çoxdur. Ümumi sahəsi 8000 $m^2$ yaxındır. Mağara olduqca hündür (20-25 m), salonlardan və içərisi torpaqla dolmuş keçid yollarından ibarətdir. Mağarada 10 arxeoloji təbəqə müəyyən olunmuşdur. Çöküntünün ümumi qalınlığı 14 metrdir. Mağaranın çöküntülərində qədim paleolitin dövrlərini ardıcıl əks etdirə bilən bütün təbəqələr qeydə alınmışdır: şellə qədər olan çay daşı alətləri mədəniyyəti, ilk aşel, orta aşel, son aşel - qədim mustye. Mağara abidələri arasında stratiqrafik quruluşda belə ardıcıllıq hələ ki, dünyanın heç bir yerində qeydə alınmamışdır. Azıx mağarasının ən aşağı təbəqələrində (X-VII) kobud və daha primitiv daş alətlər çaydaşı alətləri mədəniyyəti tapılıb öyrənilmişdir.

Mağaradakı bu tapıntılar 700 min ildən artıq yaşı olan altıncı təbəqədən aşağıda qeydə alınmışdır. Təbəqədən çoxlu çapacaqlar və başqa alətlər aşkar olunmuşdur. Bunlar əsasən protoçopper, protoçoppinq, kubvari alətlər, kobud qaşovlar və qəlpələrdən ibarətdir. Alətlər eyni texniki üsulla hazırlanmışdır. Çay daşından hazırlanmış alətlər içərisində 4-5 kq ağırlığında nəhəng çoppervari alətlər xüsusilə diqqəti cəlb edir. Azıxda öyrənilmiş çay daşı alətləri mədəniyyəti Şərqi Afrikanın Olduvey Mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Eyni zamanda alətlərin hazırlanmasında fərqli cəhətlər də vardır ki, bu da Azıxın alt çöküntülərindən aşkar olunmuş əmək alətlərini Quruçay mədəniyyəti adlandırmaq imkanı vermişdir. Quruçay mədəniyyətinin yaşı Xəzər dənizinin Abşeron səviyyəsi ilə bağlanılır. Bu nöqteyi-nəzərdən Quruçay mədəniyyətinin yaşı 1 milyon 200 min ildən daha qədimlərədək aid edilə bilərdi.

Azıx mağarasında çay daşı alətləri - Quruçay mədəniyyəti dövrü, özünün uzunmüddətli inkişafından sonra qədim aşel ilə əvəz olunmuşdur.

Arxeoloji qazıntılar zamanı buradan külli miqdarda daş məmulatı ilə yanaşı müxtəlif heyvan sümükləri də aşkar olunmuşdur. Daş alətlər əsasən kobud və formaca primitiv əmək alətlərindən ibarətdir. Bunlardan çopperləri, çoppinqləri, baltavariləri və ibtidai formalı kobud əl çapacaqlarını göstərmək olar. Buradan həmçinin külli miqdarda fauna qalıqları da aşkar olunmuşdur.

Ümumilikdə bu kompleksin qədim aşel dövrü abidələri arasında oxşarı yoxdur. Arxeoloji materiallar özündən aşağıdakı təbəqələrdəki çay daşı alətləri mədəniyyətinə və özündən yuxarıdakı (V təbəqə) orta aşel dövrü alətlərinə yaxındır. Quruçay mədəniyyəti çaydaşı alətləri mədəniyyətləri ilə aşel arasında keçid dövrünü təşkil edir.

Mağaranın VI təbəqəsində ocaq yeri qeydə alınmışdır. Ocaq cənub hissəsində, qaya divarının yanında salınmışdır. Bu da mindel buzlaq dövrünün əvvəllərinə aid olmaqla ən qədim ocaq sayılır. Azığın VI təbəqəsi tədqiqatçılar tərəfindən mindel buzlağı dövrünə aid edilir.

Altıncı təbəqə qədim aşel dövrü mədəniyyəti orta aşel mədəniyyətinə məxsus (mindel-riss) beşinci təbəqə ilə əvəz olunmuşdur. Arxeoloji qazıntılar vasitəsi ilə beşinci təbəqədən tapılmış daş alətlərin əsasını çopperlər və kobud hazırlanmış itiuclu alətlər təşkil edir.

1968-ci ildə aşel təbəqəsindən (V), azıxantrop adlandırdığımız qədim adamın alt çənəsinin qırılmış hissəsi tapılmışdır. Çənənin quruluşundakı spesifik cəhətlərə əsasən, bu tapıntı bir tərəfdən pitekantroplara, xüsusilə mauer adamı çənəsinə yaxınlıq təşkil etməklə yanaşı, digər tərəfdən də bir çox proqressiv cəhətlərinə görə Fransadakı Araqonun aşel təbəqələrindən aşkar olunmuş preneandertallara daha yaxındır.

Azıxantropun qalığı alt çənənin sağ tərəfindən ibarət olub, ağıl dişi bütöv, ikinci azu dişi qırılmış, üçüncü azu dişinin kötük hissəsi qalmışdır.

Aparılan arxeoloji və paleontropoloji tədqiqatlar azıxantropların ovladıqları heyvanların əksəriyyətinin mağara ayıları və maral növlərindən ibarət olduğunu göstərmişdir.

Məhz bu dövrdə ovçuluğun inkişafı nəticəsində, ibtidai insanlar torpaqda qazma üsulu ilə süni ocaqlar qurmağa başlamış, onların ətrafına qalın ocaq külü ilə sədd çəkmişlər. Kül qurşağının arxasını isə sal daşlarla bərkitmişlər. Təsadüfi deyil ki, orta aşel təbəqəsində üç ocaq yeri qeydə alınmışdır. Ocaqlardan biri 10 $m^2$ sahəni əhatə edir.

Qeyd olunanlarla yanaşı, ocaqla eyni sahədə, qaya divarları arasında xəlvəti yerin olması da təsadüfi deyildir. Həmin yerdə mağara ayılarının kəllələri gizlədilmişdi. Onların içərisində yalnız bir kəllə daha böyük maraq doğurur. Kəllənin üzəri bir-birinə paralel 8 maili xətlə cızılmışdır.

Ayı kəllələrinin gizlədilməsi Gürcüstan (Cənubi Osetiyada) Kudaro mağarasının aşel təbəqəsində və Cənubi Fransada Lazare mağara düşərgəsində qeydə alınmışdır.

Azıx mağarasının IV təbəqəsindən maddi mədəniyyət qalıqları tapılmışdır. IV təbəqənin üstündə III təbəqə yerləşmişdir. Qazıntının stratiqrafiyasından müəyyən olunur ki, orta aşeldən sonra ibtidai insanlar mağaradan çıxıb getmişlər. Odur ki, bu təbəqə lal təbəqə hesab olunur.

Başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da qazıntının stratiqrafik kəsiyində aşel mustye ilə əvəz olunmuşdur. Mustye təbəqəsi öyrənilərkən buradan iki mindən çox daş məmulatı və külli miqdarda müxtəlif heyvan sümükləri aşkar olunmuşdur. Təbəqədən son aşel tipli əl çapacaqları ilə birlikdə dişli mustye xarakterli əmək alətləri də tapılmışdır.

Mağarada arxeoloji qazıntı işləri 1986-cı ilə qədər davam etdirilmişdir.

**Mustye dövrü.** Bu dövrə aid maddi mədəniyyət qalıqları ilk dəfə Fransanın Le-Mustye düşərgəsində müəyyən olunduğuna görə tapıldığı yerin adı ilə Mustye mədəniyyəti adlandırılmışdır.

Bu mədəniyyət əsasən Avropada, Şimali Afrikada, Yaxın və Orta Şərq ölkələri ərazisində, Orta Asiyada yayılmışdır. Aparılan arxeoloji tədqiqatlar Mustye mədəniyyətinin 120-100 min il bundan qabaq başlanmasını və 35-33 min il əvvəl sona çatmasını müəyyən etmişdir.

Bu dövrdə qədim insanların bədən quruluşunda, əmək alətləri hazırlanmasında, təsərrüfatında, həyat tərzində dəyişikliklər baş vermişdir.

Mustye dövrünün sakinləri olan neandertallar düşərgələrdə yaşayış tikililərini əsasən nəhəng heyvan sümüklərindən və ya iri qaya parçalarından düzəldirdilər. Onların əsas məşğuliyyəti ovçuluq olmuşdur. Arxeoloji qazıntılar zamanı Mustye mədəniyyətinə aid olan düşərgələrdə neandertal tipli insanların qəbirləri aşkar olunmuşdur.

Mustye dövrü orta pleystosenin II yarısına aid olaraq buzlaşma və iqlimin daha da soyuması, rütubətin artması ilə səciyyələnir. Mustye dövründə daşın işlənmə texnikası daha da təkmilləşdirilir: daşın ikitərəfli işlənməsi əvəzinə birtərəfli işlənməsi geniş vüsət alır.

Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Mustye mədəniyyətinə aid Azıx (III təbəqə), Tağlar, Daşsalahlı, Damcılı, Qazma və Buzeyir mağara düşərgələri aşkar olunmuşdur.

Hazırda respublikamızın ərazisində Mustye mədəniyyətinə aid ən möhtəşəm və ən zəngin maddi mədəniyyət qalıqlarına malik qədim insan düşərgəsi Tağlar mağarasıdır. Tağlar Mustye düşərgəsi Dağlıq Qarabağın ən mənzərəli guşələrindən birində Tuğ və Tağlar kəndlərinin arasında yerləşir.

Mağara ilk dəfə M.Hüseynov tərəfindən 1960-cı ilə qeydə alınmış və 1963-cü ildə burada ilkin tədqiqat işləri aparılmışdır. Arxeoloji qazıntı işləri fasilələrlə (1985-ci ilədək) M.Hüseynovun rəhbərliyi ilə aparılmışdır. Arxeoloji qazıntı işləri sonradan Ə.Cəfərova həvalə edilmişdir. Mağara əhəng daşlarından təbii yolla əmələ gəlmişdir.

Tağlar Mustye düşərgəsinin çöküntülərində altı mədəni təbəqə qeydə alınmışdır. Mağaranın I təbəqəsindən eneolit, tunc və orta əsrlər dövrünə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Mağaranın II təbəqəsi və bütün aşağı təbəqələr Mustye mədəniyyəti dövrünə aid edilmişdir. Mağaradan levallua və Mustye itiucluları, qaşov tipli alətlər, nüvələr, istehsal tullantıları və fauna qalıqları tapılmışdır. Aşkar olunmuş əmək alətlərinin əksəriyyəti çaxmaq daşından hazırlanmışdır. Alətlər olduqca zərif olub, bir neçə işlək ağıza malikdirlər.

Buradan tapılmış əmək alətləri Tağlar tipli alətlər adı ilə elm aləmində tanınır. Tapıntılara əsaslanaraq belə bir fikir irəli sürülür ki, insanlar burada yalnız ovçuluqla məşğul olmuşlar. Mustye dövrünün buradakı mövcudluğu 120 min ildən-35 min ilə qədərki dövrü əhatə edir. Maraqlıdır ki, Azıx paleolit düşərgəsinin üçüncü təbəqəsinin daş alətləri içərisində də bir neçə ədəd Tağlar tipli əmək alətləri qeydə alınmışdır.

Abidədən əldə olunan heyvan sümükləri göstərir ki, Mustye mədəniyyəti dövründə də qədim insanların əsas fəaliyyəti ovçuluqla bağlı olmuşdur. Abidənin ən maraqlı tapıntılarından biri də çox sayda ocaq laylarının qeydə alınmasıdır.

1983-cü ildə Naxçıvan ərazisində M.M.Hüseynov rəhbərliyi ilə aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində Şərur rayonunun Tənənəm kəndi yaxınlığında Qazma dərəsində mağara qeydə alınmışdır. Mağaraya Qazma adı verilmişdir. Tənənəm kəndindən 3 km cənub-şərqdə yerləşən bu mağara tunel formalı olub, karst mağarasıdır. Qazma mağarasında aparılan arxeoloji qazıntılarda dörd mədəni təbəqə qeydə alınmışdır. Mağaranın I təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı orta əsrlər, tunc və eneolit dövrlərinə aid gil qab qırıqları aşkar olunmuşdur. II təbəqədən isə bir ədəd mezolit-eneolit dövrünə aid daş alət tapılmışdır. Düşərgənin III təbəqəsindən çoxlu sayda fauna qalıqları ilə birlikdə daş dövrünə aid 8 ədəd əmək aləti qeydə alınmışdır.

1987-1990-cı illərdə Qazma Mustye düşərgəsində Ə.Cəfərovun rəhbərliyi ilə arxeoloji qazıntı işləri davam etdirilir və nəticədə zəngin maddi mədəniyyət nümunələri aşkar olunur. Qazma düşərgəsinin əmək alətləri əsasən qaşov tipli alətlərdən və itiuclulardan ibarətdir. Əmək alətləri dəvəgözü və çaxmaqdaşından hazırlanmışdır. Mağarada 1987-1990-cı illərdə aparılan arxeoloji qazıntılar zamanı altı mədəni təbəqə qeydə alınmışdır. Mağaradan tapılan sümük qalıqları göstərir ki, Mustye mədəniyyəti dövründə Qazma sakinlərinin həyatında ovçuluq xüsusi yer tutmuşdur. Düşərgənin beş və altıncı təbəqələrində bir neçə ocaq yeri aşkar olunmuşdur.

Son illər mağaranın tədqiqi A.Zeynalova həvalə olunmuşdur. Uzun illər aparılan tədqiqatlar Azərbaycan ərazisində neandertal tipli insanların daha geniş ərazilərdə yaşadıqlarını göstərmişdir.

Daş dövrünə aid daha bir maraqlı abidə Lerik rayonu ərazisində aşkar olunmuşdur. Bu 1985-ci ildə Ə.Cəfərov tərəfindən aşkarlanmış Buzeyir mağarasıdır. Aşkar olunmuş 6 mədəni təbəqədən IV və VI Mustye dövrünə aid edilir. Kəlbəcər rayonu ərazisindəki Zar mağaraları da həmin dövrlə əlaqələndirilir.

Zəngin paleolit tapıntıları (bu, əsasən nəsli kəsilmiş heyvan sümüklərindən ibarət olan qəbirstanlıq şəklindədir) Binəqədi kəndində, Bakı yaxınlığında 1938-ci ildə aşkar olunmuşdur. Sümüklər 1 m qalınlığında neft hopmuş təbəqədən çıxarılmışdır. Bu ərazidə mağara pələnginin, canavar, tülkü, mağara öküzü, kərgədan və maral sümükləri müəyyən olunmuşdur. Binəqədidən həmçinin bitki qalıqları da aşkarlanmışdı - üzüm, nar, fındıq, armud və s. ağacların budaqları. Binəqədi tapıntılarının tarixi 40 min il əvvələ aid edilir.

Beləliklə, məlum olur ki, Azərbaycan ərazisində insanlar hələ alt paleolit dövründən məskunlaşmışlar.

1924-cü ildə Krımın Kik-Koba mağarasında yaşlı adamın və uşağın sümük qalıqları tapılmışdır. 1953-cü ildə Krımın Staroselye düşərgəsində uşaq skeleti aşkar edilmişdir. Mustye dövrünə aid maraqlı tapıntı 1938-ci ildə Özbəkistanın Teşik-Taş mağarasında qeydə alınmışdır. Bu neandertal oğlan uşağının sümük qalıqları idi. Aparılan arxeoloji tədqiqatlar nəticəsində Gürcüstanın Sakariya, Gurçula, Kudaro, Şimali Qafqazın Barakayevsk və digər Mustye düşərgələrində də neandertal tipli insanlara məxsus sümük qalıqları tapılmışdır.

## 2. Gürcüstanın və Şimali Qafqazın daş dövrü arxeoloji abidələri

Qafqazda daş dövrü abidələrinin izlərinin axtarışlarına Tbilisi ərazisində keçirilmiş V Arxeoloji Qurultayın tədqiqat işlərinə hazırlıq mərhələsində, 1881-ci ildə başlanmışdır. Lakin Qafqazın paleolit dövrünün araşdırılmasının ilk addımı kimi 1898-ci ildə fransız alimi Cozef de Bay tərəfindən Şimali Qafqazda-Krasnodar yaxınlığında İl adlı Mustye düşərgəsinin aşkar edilməsi qəbul olunur. Paleolit dövrü abidələrinin Cənubi Qafqazda açılması isə bir qədər sonra, fransız alimi Jak de Morqanın Qərbi Azərbaycan ərazisinə səfəri ilə əlaqələndirilir. Ümumiyyətlə, Qafqazın paleolit dövrü abidələrini araşdıran arxeoloqların işini dörd əsas mərhələyə bölmək olar:

**I mərhələ** XIX əsrin sonlarından 1934-cü ilə qədərki dövrü əhatə edir və daha öncə aşkar olunmuş abidələrin tədqiqatı ilə xarakterizə olunur. 1925-ci ildə S.Zamyatn II düşərgəsində araşdırma işlərinə yenidən başlayır.

**II mərhələ** 1934-1941-ci illəri əhatə edir. Bu zaman sovet qafqazşünaslıq elminin təməli qoyulmaqda idi. Planlı axtarış işləri Qafqazın Qara dəniz ətrafını əhatə edirdi və bir sıra paleolit abidələri məhz bu mərhələdə aşkar edilmişdir. Məs., Soçi-Abxaz Qara dəniz ətrafı bölgəsində - Yaştux, Qvard, Mustye dövrü abidələrindən-Oçamçire, Eşeri, Kelasuri və s.

S.N.Zamyatnin tədqiqatlarının əsas nailiyyətlərindən olan Aşel və Mustye dövrünə aid iki abidə Qərbi Azərbaycanda (indiki Ermənistanda) tədqiq olunmuşdur.

**III mərhələ** 1945-1955-ci illəri əhatə edir. Bu mərhələni səciyyələndirən ən əhəmiyyətli yenilik erkən paleolit abidələrinin və tədqiqat zamanı qarşıya çıxan problemlərin həllinə Milli Qafqaz elmi mərkəzlərində yetişmiş arxeoloq-alimlərin də cəlb olunması idi. III mərhələdə əldə olunmuş böyük uğur - Qərbi Azərbaycan və cənubi Osetiya ərazisində Aşel və Mustye mədəniyyətinə aid edilən abidələrin yerləşdiyi iki böyük rayonun aşkar edilməsi hesab olunur.

**IV mərhələ** 1955-ci ildən başlayaraq günümüzə qədər davam etməkdədir. Tədqiqatlar zamanı Aşel mədəniyyətini özündə təcəssüm etdirən çoxtəbəqəli mağara-məskən aşkar edilmişdir. Bunlar - Kudaro I, Kudaro III və Cənubi Osetiya bölgəsində yerləşən Tsona abidəsidir.

Hazırda alt paleolit demək olar ki, Qafqazın bütün bölgələrində müəyyən olunmuşdur.

Cənubi Qafqazın ən mühüm abidələrindən olan Satani-dar, Yerevan I, Lusakert I, II Azərbaycanın qərb bölgəsində - İrəvan ərazisində yerləşir. Abidədən əldə olunan Mustye dövrünə aid əmək alətləri Azıx, Tağlar mağara-düşərgələrindən əldə olunan müxtəlif inkişaf dövrlərinin əmək alətləri ilə yaxın analogiya təşkil edir. Bu da yəqin ki, təsadüfi olmayıb Azıx mağarasının ilk sakinlərinin tədricən mağaranı tərk edərək yüksək yerlərdə məskunlaşması ilə əlaqədar olmuşdur.

Satani-dar (Qərbi Azərbaycan - Şeytan dərəsi). İndiki Ermənistanın cənub-qərbində Araqaç dağının aşağı ətəklərində yerləşən bu abidədən keçən yüzilliklərdə xeyli miqdarda çaxmaqdaşı və bazaltdan hazırlanmış əmək alətləri aşkar edilmişdi. Onların içərisindən 1950-ci ildə M.Z.Paniçkina və 1954-cü ildə D.A.Sardaryan arxaik - şel dövrünə aid əmək alətlərini scçərək xüsusi bir qrupa aid etmişlər. Şell dövrü əmək alətlərinin çox primitiv üsulla kobud şəkildə hazırlanması, məhdud funksiyaları daşımaları baxımından Satani-dar abidəsi üçün elmdə bu günə qədər aktuallığını saxlayır.

Qərbi Gürcüstanın mağara tipli düşərgələrinə Kutaisi yaxınlığındakı məşhur mağara aiddir. İlk dəfə bu mağara tipli düşərgə 1914-cü ildə Şmidt və L.Kozlovski tərəfindən öyrənilmişdir. 1926-28-ci illərdə gürcü alimi Q.K.Nioradze Çxerimel çayı sahilində yerləşən Devis-Xvrali mağarasını aşkar etmişdir. Bu dövrün abidələr qrupuna Mqvimevi-talvar tipli qayalıqlar

və Qərbi Gürcüstanın mağara tipli düşərgələrində 1916-1917-ci illərdə S.Krukovski tərəfindən aşkar edilən Kvadjila-Klde mağarası da aiddir.

**Dmanisi.** Dmanisi paleolit düşərgəsi Tbilisi şəhərindən 90 km aralı olub Çavaxeti dağlarında yerləşir. Abidədə 1980-cı ildən etibarən arxeoloji qazıntı işləri aparılmışdır. Mağarada 1991-2002-ci illər ərzində aparılmış qazıntı işləri zamanı dörd metrlik çöküntü qalıqları üzə çıxarılmış, daş məmulatları, paleoantropoloji tapıntıları qeydə alınmışdır. Abidədə aparılan kompleks arxeoloji tədqiqatlar nəticəsində 6 təbəqə qeydə alınmışdır. Beşinci təbəqədən qədim insana məxsus paleoantropoloji tapıntılar əldə olunmuşdur. Tədqiqi göstərir ki, Dmanisidən tapılan insan sümükləri Şərqi Afrikanın (Yava-Pitikanrop) qədim insan tapıntıları ilə yaxın analogiya təşkil edir və bu tapıntılar Homo habilisdən (kamil insan) - Homo erektusa (dik gəzən insan) keçid mərhələsinə aid olunur. Dmanisi düşərgəsindən aşkar olunmuş qədim insan qalıqları şərti olaraq Homo Dmanisi adlandırılmışdır. Mağaradan qədim insanlara aid dörd kəllə və dörd çənə qalığı aşkar edilmişdir. Dmanisi rayonunda aparılan kompleks elmi tədqiqatlar zamanı burada qədim insanların 1,7-1,8 mln il bundan əvvəl məskunlaşması müəyyən edilmişdir.

Düşərgədə qazıntı işləri arxeoloq D.Lordkiparidzenin rəhbərliyi ilə aparılmışdır. Aparılan arxeoloji qazıntılar zamanı II, III və V təbəqədən zəngin arxeoloji materiallar tapılmışdır. Maddi-mədəniyyət qalıqları içərisində əsas yeri çay daşlarından hazırlanmış kobud çapma alətləri təşkil edir.

**Kudaro** mağara düşərgələri Böyük Qafqaz dağları ərazisində Cənubi Osetiyanın Cav rayonunda, Adcori çayının sol sahilində yerləşir. Mağara dəniz səviyyəsindən 1600 metr yüksəklikdədir. Kudaro I mağarasının çöküntülərində altı mədəni təbəqə qeydə alınmışdır. Abidənin ilk təbəqəsi Aşel dövrünə aiddir. Abidənin V-VI təbəqələrindən Aşel dövrünə aid olan maddi mədəniyyət nümunələri tapılmışdır. Düşərgənin əmək alətləri kobud əl çapacaqları və qaşovlardan ibarətdir.

Kudaro III mağara düşərgəsi Kudaro I düşərgəsinin yaxınlığında olub, 7 mədəni təbəqədən ibarətdir. Abidənin II təbəqəsi mezolit, III-IV təbəqəsi Mustye, V-VI təbəqəsi isə Aşel dövrünə aid edilmişdir.

Abidədə 1955-1990-cı illər arasında V.P.Lyubinin rəhbərliyi ilə qazıntı işləri aparılmışdır.

Qafqazın paleolit düşərgələrindən biri də **Tsona mağarasıdır.** Mağara Cənubi Osetiya ərazisində olub, Kudaro mağara düşərgəsindən 5-6 km cənubda dəniz səviyyəsindən 2100 metr yüksəklikdə yerləşir. Mağarada qazıntı işləri 1958-69-cu illər arası A.N.Kalandadzenin rəhbərliyi altında aparılmışdır. 1977-ci ildə isə bu abidədə qazıntı işlərinə D.M.Tuşabramişvili rəhbərlik etmişdir. Düşərgənin III-IV-V təbəqələrindən Mustye, VI-VII təbəqələrindən isə Aşel dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar

olunmuşdur. Tsona mağara düşərgəsinin çöküntü qalıqlarının ümumi qalınlığı 16 m-ə bərabərdir. Abidədən arxeoloji qazıntılar zamanı daş məmulatları və fauna qalıqları əldə edilmişdir. Əmək alətləri içərisində əl çapacaqları və kobud çapma alətləri çoxluq təşkil edir.

Qafqazın üst paleolit dövrü düşərgələrindən biri də **Axiştır mağarasıdır.** Mağara Qara dənizin sahilində Soçi şəhərindən 15 km cənubda Mizimti çayının sol sahilində dəniz səviyyəsindən 300 m yüksəklikdə yerləşir. Mağara ilk dəfə 1936-cı ildə M.Z.Paniçkina tərəfindən qeydə alınmışdır. Abidədə 1937-1938-ci illərdə S.N.Zamyatnin rəhbərliyi altında qazıntı işləri aparılmışdır. Mağarada çöküntünün ümumi qalınlığı 6 m-dir. Abidənin çöküntülərində 7 mədəni təbəqə qeydə alınmışdır. III təbəqədən üst paleolit, aşağı təbəqədən isə Mustye mədəniyyətinə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Sonrakı dövrlərin qazıntıları bu abidədə daha 2 təbəqə - mezolit və eneolit dövrü təbəqələrini üzə çıxarmışdır. Abidədən 6 minə yaxın fauna qalıqları, 4 minə yaxın daş məmulatı aşkar olunmuşdur. Əldə olunan fauna qalıqlarının 90%-dən çoxunu mağara ayılarının sümükləri təşkil edir. Düşərgənin daş məmulatlarının əksəriyyəti çaxmaq daşından hazırlanmış alətlərdən ibarətdir.

Kep-Boğaz (və yaxud Apianca mağarası) Abxaziyanın Gülripş bölgəsinin Çebelda kəndindən 5 km cənubda, dəniz səviyyəsindən 450 m hündürlükdə Kodora çayının sağ sahilində və Apianca dağının şərq ətəklərinə yaxınlıqda yerləşir. Mağara 276 $m^2$-lik bir sahəyə malikdir. Abidə 1940-cı ildə L.N.Solovyov tərəfindən aşkar edilmişdi. Mağaranın aşağı qatlarından tapılan ayrı-ayrı əmək alətləri mustye dövrünə aid edilir. Mağaranın araşdırılması müasir dövrümüzə qədər davam edir. Bununla belə, elmi nəşrlərdə mağaradan üst paleolit dövrünə aid xarakterik əmək alətlərinin tapılması haqqında məlumatlar mövcuddur.

Daş dövründə, həmçinin indiki insan irqlərinin, demək olar ki, hamısı formalaşmış və inkişaf etmişdir. Yer kürəsinin insan tərəfindən intensiv mənimsənilməsi prosesi də məhz bu dövrə təsadüf edir. Daş dövründə bir sıra böyük ixtiralar edilmişdir ki, bu ixtiralar insan cəmiyyətinin sonrakı inkişafına əsaslı təsir göstərmişdir. Həmin ixtiraların sırasına odun əldə olunması və onunla davranış üsulu, geyimin kəşf edilməsi və evlərin tikilməsinin öyrənilməsi, balıqçılıq, ovçuluq və əmək alətlərinin, o cümlədən də, oxun ixtirası aid edilir. Daş dövrünün sonlarında insanlar artıq qab-qacaq hazırlamağı, parça istehsal etməyi öyrənmişdilər. Həmçinin, bu dövrdə müxtəlif materiallar - daş, sümük, ağac, müxtəlif heyvan, bitkilərin xeyirli cəhətləri haqqında məlumatların toplanması da az əhəmiyyət daşımırdı. Nəhayət, daş dövrünün sonunda insan tarixinin ən böyük inqilablarından biri baş verdi. İnsan artıq əkinçilik və maldarlığı mənimsəməklə insehsal təsərrüfatına keçdi. Daş dövrünün - insan tarixinin bu özülünün əhəmiyyəti

müqayisə olunmaz dərəcədə böyükdür. O qədər böyük və əvəzolunmazdır ki, onsuz insan cəmiyyətinin sonrakı tarixi təsəvvür olunmazdır.

Beləliklə, Qafqazın daş dövrü abidələrinin bir-birindən bəzi parametrlərə görə kəskin fərqlənməsi üst paleolitin sonlarında artıq nəzərə çarpır. Ehtimal etmək olar ki, məhz bu zamandan etibarən hər bir mədəniyyət müstəqil olaraq inkişaf etməyə başlamışdır. Şimali Qafqazla Cənubi Qafqaz arasında müəyyən fərqli cəhətlər meydana gəlmişdir. Qafqaz sıra dağları bu əraziləri 2 hissəyə bölmüşdür. Qafqazın Qara dəniz sahillərində və Şimali Qafqazda ayrı-ayrı insan qruplarının miqrasiyası və mədəni əlaqələri arxeoloji abidələrdə də öz əksini tapmaqdadır.

Üstpaleolit dövründə Qafqaz dağlarının ətəklərində yaşamağa başlayan insanların əsasən ovçuluqla məşğul olmaqlarını aşkar edilən osteoloji qalıqların analizi nəticələrində də sübut olunmuşdur. Bu dövrdə şərait və məkan imkanı daxilində ovçuluq və yığıcılıq xüsusi məşğuliyyətə çevrilir.

Aşkar edilən mədəniyyətlərin lokal xüsusiyyətlərinə əsaslanaraq, bir çox alimlər üst paleolitdə qəbilə-tayfa münasibətlərini bərpa etməyə cəhd etmişlər. Ehtimal etmək olar ki, etnik və yaxud tarixi-mədəni insan qrupları zaman getdikcə tayfalarda birləşmişlər.

İnsan cəmiyyətinin paleolit dövrü bir neçə xronoloji mərhələlərə bölünür - alt, yaxud erkən paleolit 2 mln ildən-100 min ilə qədər; orta paleolit-100 min ildən-40 min ilə qədər; üst yaxud son paleolit 40 min ildən-12 min ilə qədər.

Cənubi Qafqazda Aşel dövrünə aid olan mağara və düşərgələrdə mədəni təbəqənin qalıqları Şel dövrü ilə müqayisədə daha geniş ərazilərdə (əsasən çay kənarında) təsadüf olunur. Əksər hallarda Aşel dövrünə aid tapıntılar mədəni təbəqənin II qatında yerləşir. 1934-1936-cı illərdə S.N.Zamyatnin Qafqazın Qara dəniz sahillərində, Abxaziyada, konkret olaraq Suxumi yaxınlığında Yaştux dağ yamacında bu tip materiallar aşkar etmişdir. Abxaziyanın Aşel dövrünə aid tapıntıları (klekton), çay sahilində ayrı-ayrı təbəqələrdə aşkar edilmişdir. Bu tapıntılar nəticəsində aydın olur ki, 80-100 m-lik çay terrasında aşkar edilən Aşel dövrü əmək alətləri 30-40 m hündürlükdə olan Mustye tipinə də aiddir. Abxaziyanın Aşel dövrü əmək alətləri içərisində kobud, iri çaxmaq daşından hazırlanmış alətlər və diskə bənzər nukleuslara da təsadüf olunmuşdur. Aşkar edilmə şəraitinə görə Abxaziyanın bu dövr maddi mədəniyyət qalıqları Qərbi Azərbaycandan (indiki Ermənistan) tapılan analoji əşyalarla eynilik təşkil edir. O cümlədən, 1933-cü ildə ixtisasca geoloq olan A.P.Demexin Arzni çayının qurumuş hissəsində apardığı tədqiqat zamanı dəvə gözündən hazırlanmış əmək aləti aşkar etmişdir. 1946-cı ildə Qoqutlu dağının cənub-qərbində də bu cür Aşel tipli əmək alətləri aşkar edilmişdir.

## 4. Qafqazın mezolit və neolit dövrü arxeoloji abidələri

Mezolit dövrünün başlanğıcı paleolitlə müqayisədə daha əlverişli iqlim şəraitinə malik olan qolosen-müasir geoloji mərhələsi ilə üst-üstə düşür. Bu zaman daş dövrünün minilliklər boyu ovçuluq və ilkin ənənələrə əsaslanan mədəniyyəti yeni bir mədəniyyətlə əvəz olunur. Mezolit üçün xarakterik cəhət mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsasının qoyulmasıdır. Paleolit insanından fərqli olaraq mezolit dövrü insanı ətraf təbii resurslardan faydalanırdı. Bu dövrdə balıq ovunun təkmilləşməsi müşahidə olunur. İnsan ilk dəfə olaraq ilkin materialın ölçülərindən asılı olmayan yeni və daha böyük həcmli alətlər hazırlamağı öyrənir. Bu dövrdə mikrolitlər meydana gəlir. Bunlar həndəsi formalı (üçbucaq, trapes şəkilli) bıçaqlar idilər. Mezolitdə, həmçinin heyvanların əhliləşdirilməsinə başlanılır və bitkilərin ilkin seleksiyası öyrənilir.

İlk mezolit abidələri 1887-ci ildə fransız alimi E.Pet tərəfindən Maz-d-Azil mağarasından aşkar edilmişdi. Qafqazda isə yerli paleolit mədəniyyəti əsasında mezolit mədəniyyəti formalaşmışdı. Bunu Azərbaycan ərazisindəki Damcılı düşərgəsinin, Qobustan abidəsinin, Dağıstan ərazisindəki çoxtəbəqəli Çox yaşayış məskəninin, Soçidəki Asin mağarasının, Osetiyadakı birtəbəqəli Şau-Leqet düşərgəsinin tədqiqatları zamanı əldə olunmuş dəlillər sübut edir. Mezolit dövrü abidələri bir-birindən əhatə etdiyi inventarın həcmi ilə fərqlənir.

Mezolit dövrünün başlanğıcı qolotsen dövrü ilə eyni vaxtda, yəni iqlim şəraitinin dəyişməsi və böyük buz laylarının əriməyə başlaması zamanına təsadüf edir.

Mezolit dövrü XII-VIII minillikləri əhatə edir. Arxeoloji tədqiqatlar nəticəsində Azərbaycan ərazisində mezolit dövrünə aid Damcılı və Qobustan abidələri aşkar olunmuşdur. Damcılıdan tapılmış əmək alətləri arasında kiçik, həndəsi formalı bıçaqlar, bizlər, kəsici, deşici alətlər xüsusi maraq doğurur. Ən müxtəlif və çoxsaylı tapıntılar Qobustandan, daha dəqiq desək, Kiçikdaş, Böyükdaş və Cıngırdağdan tapılmışdır. Qazıntılar İ.Cəfərzadənin rəhbərliyi ilə 1940-1965-ci illərdə aparılmış, 55 min maddi-mədəniyyət qalığı və 6 min qayaüstü rəsm toplanmışdır. Sonradan qazıntı işləri C.Rüstəmov və F.Muradova tərəfindən davam etdirilmişdir. Həmçinin Qobustanda aparılan qazıntılar zamanı mezolit dövrünə aid qəbir abidəsi də aşkarlanmışdır. Firuz adlandırılan düşərgədən tapılan qəbirdə 12 nəfər insan dəfn olunmuşdur.

Mezolit dövrünə aid olan abidələr Qafqazın digər ərazilərində də araşdırılmışdır. Misal üçün, B.A.Kuftin tərəfindən Trialetidə Barmaqsız dərə ərazisində Mezolit dövrünün mağara düşərgəsi aşkar edilmişdir.

Mikrolit tipli əmək alətləri ilə zəngin olan digər bir abidə Qərbi Gürcüstanda, Zuqdidi şəhərinin şimal-şərqində Odişi kəndi yaxınlığında

A.N.Kalandadze tərəfindən aşkar edilmişdir. Odişidə mikrolitlərlə yanaşı iri daş əmək alətləri, yəni makrolitlər də tapılmışdır. Ehtimal edilir ki, bu əmək alətləri mezolitin sonu, neolitin əvvəllərində erkən əkinçilikdə istifadə olunmuşdur. Bu faktı sübuta yetirən digər tapıntılardan əkinçilikdə istifadə edilən xışın bəzi hissələri, daş döyəcəklər, sürtgəclər və s. misal göstərmək olar.

Ayrı-ayrı mezolit abidələri bir-birindən öz materialları ilə fərqlənirlər. Misal üçün, Abxaziyada mikrolit alətlərlə yanaşı, çay daşlarından düzəldilmiş kobud vurma alətlərinə də təsadüf olunmuşdur.

Bəzi fərqlərə baxmayaraq Qafqazın mezolit dövrü abidələri bir bütöv etno-mədəni birlik təşkil edir. Qafqaz sakinləri dağ keçiləri, ayı, maral, öküz ovu ilə məşğul olmuşdular. Bunu mədəni təbəqələrdən aşkar edilmiş heyvan sümükləri sübut edir.

Gürcüstanın paleolit və mezolit dövrü abidələrinin ilk təsvirlərini 1834-cü ildə fransız səyyahı Dyubua de Monperi vermişdir. Lakin çaxmaq daşından olan əmək alətlərinin əldə olunduğu qazıntılar İsveç geoloqu Ernest Favr və polkovnik V.Statkovski tərəfindən aparılmışdır. Bizim dövrümüzə qədər gəlib çatmış materiallar 1914-cü ildə R.Şmidt və L.Kozlovskinin rəhbərliyi ilə mağaralarda, Barataşvili tərəfindən qayaaltı sığınacağında aparılan qazıntılar zamanı aşkar olunmuşdur. Nəhayət, 1910-cu ildə S.A.Krukovski İmeretiyada bir sıra mağaraları tədqiq etmiş və Qvardilas Klde qazıntılarına başlamışdır. 1924-cü ildə professor-alim S.Zamyatnin Kutaisi və Çitaur ətrafında mağaraların tədqiqinə başlamışdı. Müharibədən sonra qazıntı işləri L.A.Maruaşvili tərəfindən aşkar edilmiş Zurtaket düşərgəsinin tədqiqi ilə yenidən canlanmışdır. XX əsrin 50-ci illərində isə Saqvardjile mağarasını tədqiq etmək məqsədilə N.Kiladzenin rəhbərliyi altında ekspedisiya təşkil olmuşdur. Qara dəniz ətrafında başlanmış işləri 1958-ci ildə N.Berdzeneşvilinin rəhbəri olduğu Abxaziya arxeoloji ekspedisiyası davam etdirmişdir. Şimali Qafqaz arxeoloji abidələrində də əsaslı işlər gedirdi. 1957-ci ildə S.Zamyatnin və P.Akritas Soskuro talvarlarını və Boriskov çökəkliyini tədqiq etmişdilər. Dağıstan ərazisində, Sulak çayı hövzəsində V.Kotoviç 1954-1957-ci illərdə Çox yaşayış məskəni və Saqa-Çuka bölgəsini tədqiq etmişdir.

Son paleolitin Qafqaz ərazisində mərhələləşməsi işini S.İ.Zamyatn aparmışdı. O, buradakı son paleolit dövrünü Qərbi Avropa və Rusiyanın eyni dövrü ilə müqayisə edərək, onu Aralıq dənizi Xəzər hövzəsi mədəni əyalətinə aid etmişdir. A.Formozov sonralar bu mülahizələri təkzib etmiş və Qafqazın cənub abidələrini yalnız Yaxın Şərqlə əlaqələndirmişdir. Qafqazın çoxsaylı neolit və mezolit abidələri Yaxın Şərqlə bir sıra ümumi cəhətlərə malikdirlər. Qafqazın abidələri məlum əlamətləri daşıyaraq Ön Asiya mədəniyyətinin inkişaf prosesi ilə əlaqələndirilir. O Şərqdə Orta Asiya və Şimalda cənubi rus

çölləri mədəniyyətlərindən əsaslı sürətdə fərqlənir. Qafqazda İmeretiya və Qub mədəniyyətləri də müəyyən olunmuşdur. İmeretiya mədəniyyəti üçün iti ox ucluqları, sümük ucluqlar, qarpunlar xarakterikdir. Şimali Qafqazın qərbini səciyyələndirən Qub mədəniyyəti üçün isə özünəməxsus cilalanma yolu ilə hazırlanmış iti, kəsici alətlər xarakterikdir. Mezolit dövrünə xarakterik olan hündür trapesiyaların özünəməxsus formaları, ikitərəfli sümük ucluqlar geniş yayılmışdı.

Çox yaşayış məskəni və Çox mədəniyyəti mezolit dövrünə aid edilir. Şimali Qafqazın Şərq hissəsində daş dövrünə aid tam öyrənilən yeganə abidə Çox yaşayış yeri sayılır. Çox yaşayış məskəni Dağıstanın Quniy bölgəsində eyni adlı kəndin yaxınlığında Köysu çayının sahilində yerləşir. Abidəni ilk dəfə V.Q.Kotoviç aşkar etmiş və ilkin qazıntılar nəticəsində 6 mədəni təbəqə öyrənmişdir. Onlardan 2-si mezolit dövrünə, 4-ü üst paleolitə aid olunur.

Görkəmli rus arxeoloqu A.A.Formozov bu abidənin I-V mədəni təbəqələrini mezolitin ayrı-ayrı dövrlərinə, VI mədəni təbəqəni isə eneolitin son dövrünə aid etmişdir. Aparılan analizlər abidənin əsasən qolosen dövründə fəaliyyət göstərdiyini, son pleystosendə isə artıq yaşayışın olmadığını sübut edir. Bu xronoloji çərçivəni aşkar edilən mikrolit tipli əmək alətləri də bir daha sübut edir və qətiyyətlə Çox yaşayış məskəninin mezolit dövrünə aid olmasını təsdiqləyir.

Şimali Qafqazın mərkəzi hissələrində mezolit dövrünə Sosruko adlı abidə aid edilir. Abidə Kabardin-Bolqarda yerləşir. Dəniz səviyyəsindən 60-64 m hündürlükdə yerləşən mağara tipli yer təbii qayanın aşağı hissəsindədir. Aparılan arxeoloji qazıntılar burada mədəni təbəqənin 14,2 m qədər olmasını sübut etmişdir. Tapıntılar içərisində az miqdarda üst paleolitə aid əmək alətləri də qeydə alınmışdır.

Mezolit dövründən sonrakı dövr neolitdir. Təxminən eramızdan VII-VI min əvvəl yeni daş dövrü-neolit başlayır. Məhz bu dövrdə təsərrüfatda əsaslı yeniliklər baş verir. İnsanlar daha məhsuldar hesab olunan əkinçilik və maldarlıqla məşğul olmağa başlayırlar. Əsası qoyulmuş yeni iqtisadiyyat insanların təkcə maddi istehsal sahəsinə deyil, dini həyatına da təsir göstərirdi. Dəyişikliklər texnikada da özünü göstərir. Daş baltalar və daşdan hazırlanan yeni əmək alətləri geniş vüsət alır. Yeni texnika ilə bərabər daş işlənməsinin köhnə üsulları da təkmilləşir - cilalama, deşmə texnikası və s. Cilalama yolu ilə bıçaqlar, bizlər, ox ucluqları hazırlanır. Həmçinin əsas əmək alətləri və silahların köhnə hazırlanma texnikası təkmilləşdirilir. Burada bıçaqlar, nizə və ox ucluqları, xəncərlər hazırlanırdı. Bu dövrdə hələ keçmişdə formalaşmış cilalama üsulu geniş vüsət almışdı. Bu üsulla çapacaq, balta və digər kəsici alətlər hazırlanırdı. Neolit dövrünün əsas nailiyyətlərindən biri də gil qabların hazırlanmasının öyrənilməsi idi. Bu qablar sadə formalara malik olub oturacaqları daha dar və iti, yuxarıları isə

genişboğazlı idi. Aparılan tədqiqatlar göstərir ki, toxunma səbətlərin üzərinə əl ilə çəkilən palçığı ocaqda bişirməklə, iri həcmli müxtəlif qablar hazırlanırdı. Sonralar gil qablar hazırlayarkən əl çarxlarından istifadə olunmağa başlanıldı. Bu qablar insanlara ərzaq və su ehtiyatı saxlamaq imkanı verirdi. Qablar ornamentlərlə bəzədilirdi. Ornamentlər əsasən çökəklər və qırıq-qırıq xətlər şəklində olurdu. III əsas nailiyyət parçanın əldə olunmasının - toxuculuğun öyrənilməsi oldu. Bunun üçün xammal bitkilərdən və yundan alınırdı. Neolit dövrü abidələrindən toxuculuğun inkişafını sübut edən çoxlu sayda toxuculuq aləti qalıqları-mərkəzində qulpları olan gil və daş şəkilli parçalar aşkar olunmuşdur. Damcılı mağarasından neolit dövrünə aid əmək alətləri tapılmışdır. Neolit dövrü abidələrinə Naxçıvandakı Kültəpə, Fizulidəki Şomutəpə, Töyrətəpə və digər ərazilərdə də rast gəlinir. Bu abidələrin arxeoloji tədqiqinə XX əsrin ortalarından başlanmışdır.

1945-ci ildə Qərbi Azərbaycanda Boqutlu dağı yaxınlığında erkən neolit dövrünə aid bir çox tapıntılar olmuşdur. 1946-cı ilə S.N.Zamyatnin və M.Z.Paniçkina tərəfindən göstərilən ərazidə aparılan kəşfiyyat işləri nəticəsində neolit dövrünə aid uzunsov, prizma şəkilli nukleuslar hazırlanan böyük emalatxana aşkar edilmişdir. Buradan tapılan bütün əmək alətləri son neolit dövründə olan eyni funksiyalı alətlərdən özünün formasına görə çox seçilir. Boqutlu mədəniyyəti ilə Qafqazda əldə olunan ayrı-ayrı tapıntılar, o cümlədən Gəncə ətrafında aşkar olunan cilalanmış daş balta, həmçinin 1903-cü ildə E.Resler tərəfindən Şəmkirdə qazılmış kurqandan aşkar edilən bəzi əşyalar oxşarlıq təşkil edir.

Hazırda tədqiqatçılar neolit dövrünü iki mərhələyə bölürlər: keramikasız neolit və keramikalı neolit. Azərbaycanda neolit dövrünə aid maddi mədəniyyət nümunələri Damcılı mağarasında, Qobustan abidələrində, Naxçıvan Kültəpəsində, Göygöl ərazisində, Qaraköpəktəpə, Yanıqtəpə, Hacı Firuz, Şomutəpə, Töyrətəpə və digər abidələrdə də rastlanmışdır.

Maraqlıdır ki, Qafqaz mədəniyyətləri arasında nəzərəçarpan fərqlər hələ son paleolit dövründən müşahidə olunurdu. Görünür, formalaşdıqdan sonra bu mədəniyyətlər müstəqil şəkildə inkişaf etmişdi. Xüsusi fərqlər Cənubi və Şimali Qafqaz mədəniyyətlərinin arasında müşahidə olunurdu. Onlar bir-birindən Vyurum dövründə buzla örtülmüş Qafqaz yüksəkliyi ilə ayrılırdı. Qafqazın Qara dəniz sahilində və Şimali Qafqazda əhalinin mədəni əlaqələrinin izlərinə rast gəlinir.

**Neolit dövrü qəbir abidəsi.** Çoxtəbəqəli Qobustanın Firuz düşərgəsi neolit mədəniyyəti baxımından daha maraqlıdır. Düşərgənin neolit dövrü təbəqəsindən çaxmaq daşından hazırlanmış kiçik lövhəciklər, müxtəlif formalı qaşovlar, gil qab nümunələri aşkar olunmuşdur. Lakin Firuz düşərgəsinin elm üçün ən maraqlı tapıntısı 2x1 m ölçüdə qəbrin açılması

olmuşdur. Burada pərakəndə halda iki insan kəlləsi və insana aid digər sümüklərə təsadüf edilmişdir. Skeletlərin yanında boyun bəzəyi olan muncuqlar və heyvan dişlərindən asmalar da olmuşdur. Bu qəbir hələlik Azərbaycan və ümumiyyətlə, Qafqaz ərazisində ən qədim qəbirdir. Tədqiqatçılar onu təxminən Son Mezolit və İlk Neolit dövrünə aid edirlər.

Neolit dövrü tayfalarının dünyagörüşü incəsənətdə də öz əksini tapmışdır. Neolit mədəniyyəti saxsı küplər üzərindəki ornamentlər, kiçik heykəlciklər, qayaüstü rəsmlər qismində təcəssüm edir. Qədim tayfalar tərəfindən çay və göllərin qayalıq sahillərində bütöv təsvir qalereyaları - petroqliflər yaradılırdı. Qafqazda ən qiymətli tapıntı Qobustan qayaüstü rəsmləridir. Rəsmlərin çoxu məhz neolit dövründə həkk olunmuşdur. Bu rəsmlər əsasən rəqs və ov edən insanların, öküz və at ilxılarının təsvirlərindən ibarətdir. Dövrünə görə rəsmin qayaya həkk olunmasının iki əsas üsulu var idi - qırmızı oxra və qayanın üzərinə cızma yolu ilə həkk olunma. Oxra ilə çəkilmiş rəsmlər azlıq təşkil edir, cızma üsulu ilə işlənmiş rəsmlər isə əksinə, daha çoxdur. Rəsmlər ibtidai rəssamlar tərəfindən iti uclu daşla cızılaraq relyef formasına salınırdı. Əsasən heyvanlar profildən, insanlar isə anfasdan təsvir olunurdular. İncəsənətin bu növünün çox böyük mənası vardı, belə ki, qayaların üzərində təsadüfi rəsmlər deyil, əfsanələr, o cümlədən dünyanın yaranışını özündə əks etdirən təsvirlər həkk olunurdu. Əksər hallarda rəsmlər süjetli xarakter daşıyırdı. Bunlar ov səhnələri, yaxud heç bir proseslə əlaqəsi olmayan sadə quş, heyvan, bitki rəsmlərindən ibarətdir. Ümumiyyətlə, petroqliflər insanların təkcə məişətini deyil, dini həyatını da canlandırırdı.

Neolit incəsənətinin digər əsas hissəsini ornamentlər təşkil edir. Xəncər tiyələrini bəzəyən sümük (çarpazşəkilli) lövhələrdən ibarət ornamental bəzəklər məlumdur. Ornamentlər əsasən böyük uğurla saxsı qablara həkk olunurdu və bu qabların hansı mədəni dövrə aid olduğunu bildirirdi. Neolit dövrü ornamentləri öz həkkolunma üsulları və süjeti ilə müxtəlif idi. Ornamentasiyanın bütün qanunauyğunluqları gözlənilirdi: həndəsi fiqurların həkk edilməsi zamanı simmetriya, ornamental naxışların sıralanması və s. Beləliklə, ornamentlərin əsasını kvadrat, üçbucaq, rombvari fiqurlar, dalğalı xətlər, kəndir və daraq izləri təşkil edirdi. Bu elementləri istifadə etməklə neolit insanı mürəkkəb və çox nəfis naxışlar əldə edirdi. Bu da onların yüksək bədii zövqündən xəbər verirdi.

# IV FƏSİL

# QAYAÜSTÜ TƏSVİRLƏR

## 1. Qafqazın qayaüstü təsvirləri

Dünyanın ilkin insan və ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan maddi mədəniyyət abidələri ilə zəngin ölkələrdəndir. Xalqın qədim tarixinin öyrənilməsi üçün qayaüstü təsvirlər böyük əhəmiyyət kəsb edir. Qayaüstü təsvirlər qədim insanların həyat tərzini, məşğuliyyətini, məişətini, mənəvi aləmini daha əyani şəkildə, real və obrazlı təsvirlərlə əks etdirir. Məhz bu baxımdan tarixin daş yaddaşı olan qayaüstü təsvirlərin tədqiqi arxeologiya elminin əsas fəaliyyət istiqamətlərindən biridir.

Azərbaycanda qayaüstü təsvirlər petroqliflər ilk dəfə 1939-cu ildə görkəmli Azərbaycan arxeoloqu İsaq Cəfərzadə tərəfindən, Bakıdan 65 km cənub-qərbdə yerləşən Qobustanın cənub-şərq hissəsində (Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları və Yazılı təpə) aşkara çıxarılmışdır. Qayaüstü təsvirlərlə zəngin olan bu dağlar Xəzər dənizinin sahilinə yaxın ərazidə yerləşir.

Böyükdaş və Kiçikdaş dağlarının zirvəsi yayla şəklindədirlər. Həmin yaylaların səthini 10-15 m qalınlığında Abşeron suxurlu əhəngdaşı layı örtmüşdür. Əsrlər keçdikcə təbii qüvvələrin təsiri nəticəsində bu əhəngdaşı layları çatlayıb parça-parça olmuş və üzü aşağı diyirlənərək həmin dağların yamaclarına və ətəklərinə səpələnmişdir. Beləliklə, bu yer irili-xırdalı qayalığa çevrilmişdir. Buranın bəzi hissələrində bir-birinin üstə qalanmış daş-qaya parçalarının altında (xüsusilə Böyükdaş dağı ətrafında) 20-yə yaxın qayaaltı mağara və sığınacaq əmələ gəlmişdir. Belə ki, qədim dövrlərdə insanlar həmin yerləri özlərinə yaşayış məskəni seçmişlər. Bu yaşayış məskənlərində və onun yaxınlığındakı daş, qaya parçalarının əksəriyyətinin üzərində qədim zamanlardan bəri, demək olar ki, XX əsrin əvvəllərinə kimi insan, heyvan rəsmləri və müxtəlif işarələr həkk edilmişdir.

Qobustanın qayaüstü rəsmlərinin öyrənilməsi işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu məşğul olmuşdur. İnstitutun təşkil etdiyi arxeoloji ekspedisiyalar təqribən 20 il ərzində (1947-1966-cı illər) Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları, Yazılı təpə rayonunda müntəzəm surətdə axtarış və tədqiqatlar aparmış, külli miqdarda daş və qaya parçaları gözdən keçirilmiş, təqribən 750 daş üzərində müxtəlif rəsmlər, işarələr və s. təsvirlər aşkara çıxarılmışdır. Bütün bu rəsmlər daşdan və metaldan hazırlanmış alətlərlə həkk edilmişdir. Hazırda 6000-dən artıq rəsm siyahıya alınmışdır.

Qobustan qayaüstü rəsmləri mövzu cəhətdən olduqca rəngarəngdir. Bunlar insan, vəhşi öküz, maral, keçi, şir, ceyran, at, vəhşi uzunqulaq (gur) və s. təsvirlərdən ibarətdir. Rəsmlər bəzən, demək olar ki, təbii ölçüdə verilmişdir. Daşlardan bir çoxunun üzərində kollektiv əmək prosesi, taxıl biçini, qurban gətirmək, ov səhnəsi, öküz döyüşü, keçi gətirmək döyüşü, itlərin canavar və maralı təqib etmə səhnəsi, şirlərin keçilərə hücumu, yürüş səhnələri, dəvə karvanları, qadın təsvirləri əks etdirilmişdir. Ərazidən qırıq xətlərlə çəkilmiş böyük ölçülü balıq rəsmləri də aşkara çıxarılmışdır.

Rəsmlər arasında kamanla silahlanmış və silahsız adamlarla dolu qayıq rəsminə də təsadüf olunur. Həmin qayıqların təknəsinin burun hissəsində Günəş rəsmi çəkilmişdir. Daşlardan birinin üzərində iki təkərli hərbi araba təsviri qeydə alınmışdır. Qayalar üzərində müasir Azərbaycan yallı rəqsini xatırladan fərdi və qrup halında dini-ayin rəqs mərasimini əks etdirən təsvirlərə də rast gəlinir.

Bir neçə daş üzərində diametri 6-10 sm olan 2-3 sm dərinliyində oyuqlara təsadüf edilmişdir. «Qaval daş» adlı ən qədim musiqi aləti olan daş parçalar və Roma imperatoru Domisianın hökmranlığı dövründə (eramızın 81-96-cı illəri) həkk edilmiş latın yazısı aşkara çıxarılmışdır ki, bu da Fulminata adlanan XII Roma legionunun Azərbaycanda, Xəzər dənizi sahilində olmasını göstərən son dərəcə qiymətli kitabədir.

Hazırda ilk rəsmlərin tarixi təxmini olaraq yeni daş dövrünün (son mezolit və neolit) ilk çağlarına, yəni e.ə. VIII-VI minilliklərə, qadınların ibtidai cəmiyyətdə hakim olduğu madərşahlıq dövrünə aid edilir. Qayalar üzərində əsasən eneolit, tunc və orta əsrlər dövrünə aid olan rəsmlərə daha çox təsadüf olunur.

Kiçik Qafqaz dağlarının ən yüksək zirvələrindən biri olan Gəmiqayanın (Naxçıvan) yamaclarında da qayaüstü təsvirlər petroqliflər aşkar olunmuşdur.

Gəmiqaya Ordubad rayonu ərazisində Nəsirvaz kəndindən şərqdə Zəngəzurla (indiki Ermənistan) sərhəddə, kiçik Qafqazın ən hündür dağ silsiləsində yerləşir. Abidədə ilk tədqiqat işləri 1968-ci ildə Tarix İnstitutunun əməkdaşı V.H.Əliyev tərəfindən aparılmışdır. 2001-2003-cü illərdə N.Müseyibli tərəfindən tədqiqat işləri davam etdirilmişdir. Gəmiqaya Kiçik Qafqazın ən hündür zirvəsi olan Qapıcığın (3906 m) daha geniş yayılmış adıdır. Buradakı abidələr kompleksi dəniz səviyyəsindən 2800-3500 m yüksəklikdə yerləşir. Gəmiqayanın zirvəsindən yamaclarına qədər porfir, qranosienit, kvars siepepit-liorit, qabbro-diorit və kvars mansodioçit növlü vulkanik suxurlardan ibarətdir. Qayaüstü təsvirlər məhz bu daşların üzərində həkk edilmişdir.

Qaya parçaları üzərində olan təsvirlər əsasən insan, maral, öküz, at, araba, dəvə, bəbir və quşların realist üslubda işlənmiş rəsmlərindən ibarətdir.

Abidədə çoxsüjetli kompozisiyalara da təsadüf olunur. Təsvirlərin ən qədimləri ərazidən əldə olunan keramika məmulatlarına əsasən ilk tunc dövrünə aid edilir.

1976-cı ildə arxeoloq Qüdrət İsmayılzadə Kəlbəcər rayonunda qayaüstü təsvirləri aşkar etmişdir. Onlar işlənmə üslubuna görə digər Azərbaycan petroqliflərindən fərqlənir. Belə ki, bütün təsvirlər ucu iti daş aləti bazalt daşlarının hamar səthinə vurmaqla işlənmişdir. Odur ki, hər bir rəsm döyülmüş çoxsaylı nöqtələrdən təşkil olunmuşdur. Təsvirlər e.ə. III minilliyin əvvəllərində yaşamış maldar və ovçular tərəfindən yaradılmışdır.

Qaya təsvirləri Zalxagöl və Qaragöl sahillərindəki və Taxta deyilən yerdəki bərk bazalt daşları üzərində təsvir olunmuşdur. Bu yerlər dəniz səthindən 3000 m hündürlükdədir.

Q.İsmayılzadənin apardığı tədqiqatlar göstərir ki, bu rayonda sonralar da (e.ə. II və I minilliklərdə də) qaya təsvirləri mədəniyyəti davam etmiş və daha mürəkkəb kompozisiyalar yaradılmışdır.

Buradakı petroqliflərin məzmunu insan və heyvanların fəaliyyəti, həyatı ilə bağlıdır. Bir qayda olaraq insanlar ön və arxa tərəfdən, heyvanlar isə yan tərəfdən, profildən təsvir edilmişlər. Təsvirlərdə insanların birlikdə ayin rəqsi, ov səhnəsi, iki öküz qoşulmuş ikiçarxlı araba və s. təsvir edilmişdir.

Arxeoloq Q.M.Aslanov 1963-cü ildən başlayaraq Abşeronun bir çox kəndlərində (Şüvəlan, Türkan, Nardaran, Bilgəh, Şağan, Dübəndi) qayalar üzərində bir sıra maraqlı təsvirlər aşkar etmişdir. Onlar öküz, keçi, maral, it, şir və insanla bağlı ayin və ov səhnələri təsvirlərindən ibarətdir. Arxeoloq öküz və keçi rəsmlərini mis-daş dövrünün sonlarına, tunc dövrünün əvvəllərinə aid etmişdir.

Qərbi Azərbaycanın Zəngəzur bölgəsində Sünük adlanan yerdə qaya təsvirləri müşahidə edilmişdir. Çox təəssüf ki, bu təsvirlər mətbuatda öz əksini az tapmışdır.

Qaya təsvirlərində toplanmış, qədim dünyadan bizə yadigar qalan bu zəngin mədəni irs açıq səma altındakı muzeyləri xatırladır.

# IV HİSSƏ. PALEOMETAL DÖVRÜ

## V FƏSİL

## QAFQAZIN ENEOLİT DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ

### 1. Qafqazda paleometal dövrünə aid arxeoloji abidələrin xüsusiyyətləri

Qafqaz istehsal təsərrüfatının (əkinçilik və maldarlıq) ən əhəmiyyətli, qaynar mərkəzlərindən biridir. E.ə. IV minillikdə dünya xalqlarının bir çoxu maddi təsərrüfat sahəsində önəmli dəyişikliklər əldə etdilər - insanlar metaldan əşyalar hazırlamağı öyrəndilər və beləliklə də, mis-daş, yaxud eneolit dövrü başlandı. Mis işləmənin bu dövrdə soyuq və isti döymə üsulundan istifadə olunmuşdu. İlkin silahlar soyuq üsulla hazırlanırdı, demək olar ki, dünyanın bütün eneolit dövrü mədəniyyətləri üçün bu üsul xasdır. Qeyd etmək lazımdır ki eneolit dövrünün bir çox abidələrində ümumi cəhətlər izlənilir:

1. Daş məmulatlarla yanaşı mis məmulatların da hazırlanması.
2. Toxa əkinçiliyi və ev heyvandarlığının hökmranlığı.
3. Boyalı gil qablar.
4. Gil evlərin, gil heykəlciklərin və əkinçiliklə bağlı ayinlərin geniş yayılması.

Cənubi Qafqazın arxeoloji abidələrinin tarixi tədqiqatı iki mərhələyə ayrılır. XIX əsrin I yarısı və XX əsr. XX əsrin 50-ci illərinin sonlarında Qafqazın eneolit dövrünü öyrənən alimlər Şimali Qafqazda iki mədəniyyət - Kür-Araz və Maykop mədəniyyətlərini ayırd etdilər. Eneolit dövrünə aid edilən Kür-Araz mədəniyyəti XX əsrin 40-cı illərinin əvvəllərində B.Kuftin tərəfindən müəyyən olunmuşdur. Cənubi Qafqaz İkiçayarasının e.ə. III minilliyə aid tarixi abidələrini araşdıran B.Kuftin belə bir nəticəyə gəlmişdi ki, Cənubi Qafqazda erkən eneolit dövrünə təsadüf edən, özünəməxsus saxsı qabları ilə fərqlənən kül təpəciklərindən ibarət unikal mədəniyyət mövcuddur. Bu mədəniyyətə aid olan abidələrin, demək olar ki, hamısı Kür-Araz hövzəsində aşkar edildiyindən eyni adla adlandırılmışdır. B.Kuftin Kür-Araz mədəniyyətinin Kiçik Asiya və bütün Şərqi Aralıq dənizi mədəniyyətləri ilə əlaqəsini müəyyənləşdirmiş və dövrün xronologiyasını vermişdir.

Azərbaycan ərazisində Eneolit dövrünün tədqiqatlarının II mərhələsi XX əsrin 60-cı illərindən başlanmış və bu günə qədər də davam etməkdədir. İlk öncə A.İessen və İ.Səlimxanov eneolit dövrü abidələrini araşdırmışlar. Daha real və əhəmiyyətli araşdırmalar isə Kür-Araz eneolitinə aid köçəri-

əkinçi tayfalara məxsus abidələrin aşkar edilməsi və öyrənilməsi hesab olunur. 1951-ci ildə Naxçıvan yaxınlığındakı çoxtəbəqəli I Kültəpə qazıntıları zamanı əhəmiyyətli tapıntılar əldə edildi. O.Həbibullayevin rəhbərliyi altında aparılan qazıntılar zamanı Cənubi Qafqazda "Kür-Araz eneoliti" təbəqəsindən çiy kərpicdən olan arxitektura nümunələri, ilkin əkinçilik alətləri və bəzi ayrı-ayrı metal məmulatları aşkar edilmişdi. I Kültəpədə aparılan tədqiqatlarla yanaşı Azərbaycan Milli Elmlər Akademiyasının arxeoloji ekspedisiyası XX əsrin 50-60-cı illərində Mil-Qarabağ düzündə aparılan uğurlu kəşfiyyat işləri nəticəsində "Kür-Araz" mədəniyyətindən əvvəl mövcud olmuş köçəri-əkinçi mədəniyyətinin izləri olan abidələri aşkar etmişlər. Bunlar Azərbaycanın qərb ərazisindəki Baba-Dərviş, Şomutəpə, İlanlıtəpə, Qarğarlartəpə və s.-dir. Abidələrdə arxeoloq İ.Nərimanov tərəfindən ilk ümumiləşdirilmələr aparılmış və belə nəticəyə gəlinmişdir ki, bu abidələr Qafqazın ilk erkən əkinçilik mədəniyyətini özündə təcəssüm etdirir. O, Qarabağ və Muğan düzündə digər erkən əkinçilik abidələrini də tədqiq etmişdir, xüsusilə, Muğan düzündəki (Cəlilabadda) Əliköməktəpə abidəsini misal göstərmək olar.

Eneolit dövrünün yaşayış məskənləri əsasən hündür təpələr formasında olub, müxtəlif ölçülüdürlər. Bu dövrün yaşayış məskənlərinə düzən və dağətəyi ərazilərdə təsadüf edilir.

Hazırda Cənubi Qafqazda 70-dən artıq eneolit dövrü abidəsi məlumdur ki, onlardan da 50-dən çoxu Azərbaycan ərazisində yerləşir. Azərbaycanın və ümumi Qafqazın ən məşhur eneolit dövrü abidəsi I Kültəpə hesab olunur.

Naxçıvan şəhərindən 8 km aralıda yerləşən I Kültəpə yaşayış yeri 1,5 hektara yaxın bir sahəni əhatə edir. 21 m qalınlığında mədəni təbəqəyə malik təpə bütövlükdə aşağı qatdan yuxarıyadək, kül, xırda daş, təsərrüfat və məişət qalıqları ilə örtülmüşdür. Buradan üzə çıxarılan dörd mədəni təbəqənin aşağıdan birincisi eneolit dövrünə aiddir. Qalınlığı 9 m olan bu təbəqədən tikinti qalıqları, təsərrüfat quyuları, ocaq və kürələr, fauna qalıqları, daş sümük və gildən hazırlanmış əşyalar, buğda qalıqları, qəbirlər və s. aşkar edilmişdir. Tapılan arxeoloji materiallar I Kültəpə sakinlərinin oturaq həyat keçirdiklərini sübut edir.

Abidədən əldə olunan daş və möhrədən tikilmiş dairəvi bina qalıqları diqqəti daha çox cəlb edir. Diametri 7 m-ə çatan, divarların qalınlığı 35-55 sm olan bu evlər arakəsmələrlə ayrı-ayrı hissələrə bölünmüşdür. Kültəpənin eneolit dövrü materialları içərisində daş alətlər çoxluq təşkil edir. Onların çoxu dəvəgözü daşından hazırlanmışdır. Abidədən çaxmaqdaşından hazırlanmış alətlər, ox ucluqları və oraq dişləri əldə edilmişdir. Misdən hazırlanmış əşyalar isə sancaqlardan, muncuqlardan, tiyələrdən, nizə ucluqlarından və s. ibarətdir.

Bu abidənin daş məmulatları geniş ərazini əhatə edən erkən əkinçi məskənləri üçün səciyyəvidir. Əldə olunan metal məmulatlardan ibarət kiçik kolleksiya xüsusi maraq doğurur. Bura bir neçə mis əşya da daxildir - arxa ucluqları olan sırğalar, iki muncuq və nazik rombvari əşya. Saxsı məmulatı kobud işləməli, az bişirilmiş olub qırmızı rəngdədir. Əldə olunan bütün qablar yastı oturacaqlıdırlar və nadir hallarda qulplara və qab qırıqlarına təsadüf olunur; əsasən kasalar, dərin piyalələr, qabarıq gövdəli, hündür dar boğaz kuzələr çoxluq təşkil edirdi. Onların üzərində ornament yoxdur. Abidədə bir bütöv və 20 parça halında boyalı qab qırığı mövcuddur. Antropomorf və zoomorf heykəlciklərə rast gəlinmir, lakin bir neçə gil, funksiyası məlum olmayan məmulat aşkar olunmuşdu.

Bu abidənin ən aşağı qatı Mil-Qarabağ düzündə qeydə alınmışdır. Quruçay və Köndələnçay arasındakı ərazidə də həmçinin bir neçə eneolit təbəqəsinə malik yaşayış məskənləri açılmışdır - Günəştəpə, Zərgərtəpə, Çadırtəpə. Eneolit məskənlərinin ikinci qrupu Muğan düzündə yerləşir - Əliköməktəpə, Üçtəpə, Mişarçay I-IV, Qurudərə I-IV və s. Erkən əkinçi məskənlərinin üçüncü qrupu Azərbaycanın qərb bölgəsində - Kür çayı sahili, Qazax rayonu ərazisində aşkar olunub Töyrətəpə, Şomutəpə, Babadərviş və Qarğalartəpəsi. Eneolit abidələri, həmçinin Tovuzçay və Şəmkirçay hövzələrində də tədqiq olunmuşdur.

Bu mədəniyyətlər özünü yalnız məişət abidələri şəklində təcəssüm etdirmir. Bunlar əsasən çay kənarında təbii təpələrdə salınmış yaşayış məskənləridir. Düzənlik və dağətəyi zonalarda yerləşən məskənlərlə yanaşı bir sıra erkən əkinçi yaşayış məskənləri daha yüksək yerlərdə - təbii çay hövzələrində, çay qovşaqlarında salınmışdı. Bəzi abidələrin nisbi xronologiyası radiokarbonal üsulla təyin olunmuşdur. Məs.:

1. Şomutəpə - e.ə. 5560 ± 70 il
2. Töyrətəpə - e.ə. 4295± 125 il
3. Kültəpə - e.ə. 3807 ±90 il
4. Qarğalartəpəsi - e.ə. 4800 ± 60 il

Beləliklə, yuxarıda sadalanan tarixlərin əksəriyyəti e.ə. V minilliyyə, biri - e.ə. IV minilliyin ortalarına təsadüf edir ki, bu da Cənubi Qafqazda eneolit dövrünün inkişafının e.ə. V minillikdə formalaşması və inkişafın ikinci mərhələsinin e.ə. IV minilliklə əlaqəli olduğunu göstərir.

Azərbaycanın eneolit dövrü abidələri iki qrupa bölünür: I qrup abidələr neolit xüsusiyyətləri daşıyır. Bu tip abidələrə alt təbəqəsi, Şomutəpə, Töyrətəpə, Qarğalartəpə, Baba Dərviş daxil olmaqla, Mil Qarabağ və Muğan düzlərinin bir sıra yaşayış məskənləri aiddir. II qrupa isə inkişaf etmiş eneolitə aid olan Kiçik Qafqaz dağ silsiləsi ilə Kür çayı arasındakı yaşayış məskənləri daxildir.

**Şomutəpə.** Dairəvi formaya malik, diametri 100 m olan kiçik təpədir. Mədəni təbəqənin qalınlığı orta hesabla 1 m-dir. Dairəvi planlı evlər (diametri 3m və daha artıq) və təsərrüfat tikililəri (dərinliyi 2m) əsasən çiy kərpicdən inşa edilmişdir. Otaqlara giriş dördbucaqlı kəsik formasında tikilmişdir. Sobalar aşkar olunmasa da, ayrı-ayrı divarların kənarında ocaq izlərinə rast gəlinir. Dövrünə görə yaşayış evlərinin damlarında işıq düşməsi və tüstünün çıxması məqsədilə dəlik açılırdı. Bəzi evlərin quyuları vardı. Bu quyulardan buğda saxlamaq məqsədilə istifadə olunurdu. Ocaq izlərinə həyətlərdə də təsadüf olunmuşdur. Burada, həmçinin dairəvi planlı yaşayış yerləri yarımqazmalar aşkar olunmuşdur. Şomutəpədən 3 km şərqdə Töyrətəpə yerləşir. **Töyrətəpə** diametri 100 m və hündürlüyü 6 m olan abidədir. Yaşayış evlərinin və təsərrüfat xarakterli tikililərin forması, tikinti materialının növü, tikililərin planlaşdırılması Şomutəpədən fərqlidir. Dövrünə görə çaxmaq daşı və (kremendən) hazırlanan daş məmulatları müxtəlif məqsədlərlə istifadə olunurdu kəsici, deşici alətlər, kombinə silahlar və s. Bu dövrdə çay çınqılı da geniş istifadə olunan təbii materiallardan idi. Daşın işlənməsi və silah hazırlanması yaşayış məskənlərinin ərazisində aparılırdı. Müəyyən olunmuşdur ki, Şomutəpə və Töyrətəpədən tapılan əşyaların hazırlanmasında eyni texnikadan və eyni xammaldan istifadə olunmuşdu. Əldə olunan saxsı qablar formaca sadə olub, kobud işləməyə malikdirlər. Onlar qulpsuz yastı oturacaqlıdırlar. Aşkar olunan ayrı-ayrı saxsı qırıqlarının isə üfüqi çıxıntı şəkildə olan qulpları vardı. Qablar bitki tərkibli (saman) gildən hazırlanıb və əksər hallarda qırmızı-qəhvəyi, nadir hallarda isə sarı-qəhvəyi rəngdə müşahidə olunur. Qabların üzərini bəzəyən ornamentlər bir, yaxud bir neçə sıra ilə qabın üzərinə şaquli istiqamətdə yapışdırılmış girdə göbələkvari çıxıntılar şəklindədirlər. Həmçinin qabların üzərində dişli alətlə yerinə yetirilmiş özünəməxsus kəsmə ornament nümunələrinə də rast gəlmək mümkündür. Qablar arasında cam formalı küplər də vardır. Dulusçuluq məmulatlarının kiçik bir qrupunu antropomorf gil heykəlciklər təşkil edir. Onlara nadir hallarda təsadüf olunur. Məsələn, Çalağantəpədən, Leylatəpədən, Qarğalartəpəsindən aşkar olunmuş qadın heykəlcikləri.

XX əsrin 80-ci illərində Qarabağda e.ə. IV minilliyin I yarısına aid Leylatəpə yaşayış yeri I.Nərimanov tərəfindən aşkar olunmuşdur. Bu mədəniyyətə aid yaşayış yerləri və qəbir abidələri Çinartəpə, Şomutəpə, Abdal Əziztəpə, Böyük Kəsik, Poylu, Soyuq bulaq, Ağılı dərə və s. öyrənilmişdir. Bu abidələrdən bir qrupu 2004-2005-ci illərdə BTC neft kəmərinin tikintisi zamanı aşkar olunmuşdur.

**Qərbi Azərbaycanda - Texut** yaşayış məskəni, Üçmüədzin şəhərindən 3 km cənubda yerləşir. 2,5 hektar sahəyə malik oval formalı bu təpədəki mədəni təbəqənin qalınlığı 1,6 m-dir. Abidədən diametri 2,6-3 m olan girdə formalı kərpic tikililərin qalıqları tapılmışdır. Tikililərin gil

döşəmələri və ocaq yerləri vardır. Evlər meydançaların ətrafında ayrı-ayrı qruplarla yerləşmişdir. Yaşayış məskənində Cənubi Qafqaz eneolit dövrü üçün xarakterik olan müxtəlif materiallar aşkar olunmuşdur. Buradan çoxlu sayda sümük məmulatları tapılmışdır. Nadir tapıntılardan biri də iri buynuzlu heyvanın bud sümüyündən hazırlanmış, 18 sm uzunluğunda olan ot biçmək üçün bıçaq əsasıdır. Abidədən, həmçinin metal əşyalar da aşkar edilmişdir. Spektral analizlərin cavabı göstərmişdir ki, tapılan metal əşyalar mis-mərgümüş qarışığı-nikeldən hazırlanmışdır. Abidədən müxtəlif növ küp qablar, o cümlədən də boyalı qablar aşkar olunmuşdur. Burada çoxsaylı gil manqal qalıqları - hündür kənarları olan dairəvi kasa formalı qablar da tapılmışdır. Bu qabların əksəriyyəti həcmcə nisbətən böyük yapışdırılma qulplara malikdirlər. Texut yaşayış məskəni Cənubi Qafqazın yeganə eneolit dövrü abidəsidir ki, oradan gil manqallar tapılmışdır. Bu abidə e.ə. V minilliyin I yarısına, IV minilliyin əvvəllərinə aid edilir.

Beləliklə, təsərrüfat-məişət komplekslərinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, erkən əkinçi icmasında sosial təbəqələşmə yox idi.

Qafqazın digər ərazilərinin arxeoloji abidələrinin öyrənilməsində Q.N.Çubinişvilinin, V.V.Bjaniyanın və digər alimlərin böyük zəhməti vardır.

Mərkəzi Qafqaz abidələri arasında xüsusi yeri I Arıxlı, Şulaverisqora, İmirisqora yaşayış məskənləri tutur. Bunlar kiçik yüksəkliklər şəklində yaşayış məskənləri olaraq «təpə» də adlandırılır. Onlar əsasən ayrı-ayrı hissələr şəklində bir neçə təpədə salınmışdır. Məsələn, Xrami çayı sahilində yerləşən Kvemo-Şülaver abidələri qrupuna təxminən 500 hektar sahəni əhatə edən Şulaverisqora, Qadaqrılıqora və İmirisqora aiddir. Yaşayış məskənləri arasındakı məsafə 0,5 km.-dən 1,7 km-ə qədərdir. Bu məskənlərdən 1 km qərbdə Arıxlı kəndi yaxınlığında Xrami çayı qovşağında bir-birinə yaxın məsafədə olan 5 təpədə yerləşmiş daha bir abidə qrupu aşkar olunmuşdur - I, II, III Arıxlı. Mərkəzi Qafqaz məskənlərindəki mədəni təbəqənin qalınlığı müxtəlifdir. Belə ki, Şulaverisqorada onun qalınlığı 8m, İmirisqorada 4,4 m, I Aruxlıda - 5 m təşkil edir. Bu abidələr arasında **Şulaverisqora** daha erkən dövrə aid edilir. Bu yaşayış məskəni Xrami çayının sağ sahilindəki düzənlikdə yerləşir. Təpə dağıntılara məruz qalmışdır. Bu məskənin diametri 100 m, hündürlüyü 6 m, sahəsi 1 hektardır. Abidədən yaşayış evləri, təsərrüfat qurğuları, həyət çəpərləri və ərzaq saxlama quyuları şəklində 32 tikilinin qalıqları aşkar olunmuş, 9 tikinti təbəqəsi müəyyən edilmişdir.

Buradakı tikinti təbəqələrindəki planlaşdırılmada, istifadə olunan tikinti materiallarında memarlıqla əlaqəli yeniliyə dəlalət edən əsaslı dəyişikliklər müşahidə olunmamışdır. Tikililər gil məhlulun istifadəsi ilə çiy kərpicdən və möhrədən inşa edilmişdi. Tikililərdə əsas tikinti materialı kimi maili-çıxıntılı kərpic istifadə olunurdu. Divarlar torpaq üstündə düzülmüş kərpiclərin və yaxud əvvəlki tikilinin hamarlanmış qalıqları üzərindən şaquli

istiqamətdə ucaldılırdı. Bütün tikililər dairəvi, yaxud oval formalı olub silindrik biçimlidir. 2.5-5.0 m diametrli iri tikililər yaşayış evləri, qalanları təsərrüfat yönümlüdür.

**II abidə - İmirisqora** diametri 90 m, hündürlüyü orta hesabla 4m, ümumi sahəsi 1 hektar olan, cənub-qərbdən şimal-şərqə doğru yayılmış təpədir. Burada təxminən 70 çiy kərpicdən ibarət olan tikilinin qalıqları aşkar olunmuş, 7 tikinti təbəqəsi müəyyən edilmişdir. Yaşayış arxitekturasının əsas tipi dairəvi planlı-gümbəzli və oval evlərdir. İmirisqoradakı tikililər öz düzgün həndəsi formaları və dəqiq planlaşdırılması ilə seçilir.

Qədim yaşayış məskənlərinin ikinci qrupu **Arıxlı** kəndi yaxınlığında, Xrami çayının sağ sahilində 800 hektarlıq bir ərazidə yerləşir. Özündə 5 yayılmış təpəsini birləşdirir. Sahəsi 150x100 m, hündürlüyü 6 m olan, 4 tikinti təbəqəsindən ibarət Arıxlı daha ətraflı tədqiq olunmuşdur. Evlərin birinin döşəməsinin altından basdırılmış uşaq kəllə sümüyü tapılmışdır. Ümumilikdə, burada dəqiq planlaşdırılma müşahidə olunmamışdır. Məskənin ətrafında arx çəkilmişdir. Alimlər belə hesab edirlər ki, bu arxlardan suvarma və müdafiə məqsədi üçün istifadə olunmuşdur.

**Arxeoloji materialın xarakteristikası: Daş məmulatlar.** Şulaverisqoradan obsidian (dəvəgözü) və çaxmaq daşından hazırlanmış 3000 ədəd, İmirisqoradan isə 7000-dən artıq əşya tapılmışdır ki, bunların da 60-70 %-i daha erkən dövrlər üçün xas olan əmək alətləridir. Alətlərin önəmli hissəsini bıçaqvari lövhəciklər şəklində olan oraq dişləri təşkil edir. Tədqiq olunan mədəniyyətlərdə nizə uclarının olmaması xüsusi maraq doğurur. Digər səciyyəvi cəhət, demək olar ki, bütün yaşayış məskənlərindən sapand üçün olan gil və daş qəlpələrin aşkar edilməsidir.

**Sümük məmulatı.** Bu kateqoriyaya sümük və buynuzdan hazırlanan məmulatlar aid edilir. Onlar arasında əmək alətlərinə, müxtəlif məişət və ayin icrasında istifadə olunan əşyalara bizlər, iynələr, toxalar və s., o cümlədən də nadir hallarda sümük qaşıqlara rast gəlinir. Maraqlı tapıntılara, həmçinin sümük antropomorf heykəlciklər aiddir. Kvemo-şulaver kompleksinə aid tapıntılardan belə nəticəyə gəlmək olar ki, bu dövrdə əkinçiliklə bağlı əmək alətlərinin kəmiyyəti və növləri artmışdır.

**Dulusçuluq məmulatları.** Ümumiyyətlə, bu dövrün gil qabları forma baxımından sadə xarakterli olsa da, yüksək keyfiyyətə malik idi. Onlar azca şirələnmiş, tərkibində saman çöpləri olan gildən hazırlanırdı. I Arıxlıdan bir neçə divarları çəhrayı rəngli pardaxlanmış incə saxsı qablar tapılmışdı. Bu qablar gətirilmə hesab olunur. Saxsı qabların oturacaq hissəsində qamış izləri müşahidə olunmuşdur. Qablar kiçik piyalələr, küplər formasındadır. Bəzən abidələrdə çəllək formalı saxsı qablara da rast gəlinir. Saxsıların bir qismi ornamentlidir. Şulaveris abidəsində boyalı dulusçuluq məmulatlarına da təsadüf olunmuşdur. Kvemo-Şuvaleris məskəninin özünəməxsus saxsı

qablarının əsas səciyyəvi xüsusiyyətləri ornament işləməsində kəsmə üsulunun istifadəsi və küplərin yuxarı küncünə həndəsi formalı dalğalı naxışların həkk olunmasıdır. Beləliklə, Mərkəzi Qafqazın saxsı məmulatı çox orijinaldır. Onlar Mərkəzi və Ön Asiyanın saxsı mədəniyyətlərindən kəskin fərqlənir. Mərkəzi Qafqazın abidələrində ancaq Şimali Mesopotamiyanın (Umm-Dabaqiya, Tiela-Sot) və Azərbaycanın abidələri ilə yaxınlıq hiss olunur.

Qeyd olunan abidələrdən tapılmış gil antropomorf heykəlciklər azlıq təşkil edir. Yalnız Cənubi Qafqazın mərkəzində **Didiqor** məbədində çoxsaylı fiqurlar tapılmışdır. Kolleksiyaya 21 qadın fiquru daxildir. Onlardan 17-si yaşayış məskəninin eneolit dövrü təbəqəsindəki üst tikinti qatındakı dairəvi evdən tapılmışdır. Fiqurlar ölçülərinə görə kiçik olub 2,8-5,6 sm hündürlüyündədirlər. Ayaqların vəziyyətinə görə onlar 2 qrupa bölünür: bükülmüş və uzadılmış ayaqlarla oturmuş vəziyyətdə. Təxmin edilir ki, fiqurların dərin dairəvi gözləri xatəmkarlıq üsulu ilə işlənmişdir.

**Şimali Qafqazda - Dağıstan ərazisində** ümumi sahəsi təxminən 1,5 min $m^2$. olan, 1,2 m qalınlığında mədəni təbəqəyə malik **Qinçi** yaşayış məskəni aşkar edilmişdir. Yaşayış məskəninin uzunluğu 15 m hündürlüyü 1,15 m, qalınlığı 2 m olan istehkam divarı daşlardan təmizlənmişdir. Yaşayış evlərində də bu tip daş divarlar müşahidə olunmuşdur. Evlərlə bərabər yarımqazma formalı yaşayış yerləri və diametri 60 sm və 1,9 m olan dairəvi oval formalı ocaq yerləri üzə çıxarılmışdır. Qinçi yaşayış məskəni Cənubi Qafqazın digər abidələrindən fərqli olaraq dağlıq ərazidə salınmışdır. Onun səciyyəvi xüsusiyyətlərindən biri də daş evlərin Cənubi Qafqazın bəzi abidələrində olduğu kimi dairəvi deyil, düzbucaqlı formada olmasıdır. Qinçi yaşayış məskənindən aşkar edilmiş məmulatlar erkən köçəri-əkinçi məskənləri üçün xarakterikdir. Daş əmək alətləri arasında - iri dən daşları, sümük və buynuzdan hazırlanan alətlər xüsusi maraq doğurur. Saxsı məmulatlar qalın divarlı olub, kobud yapma naxışlara malikdirlər. Saxsı məmulatları tərkibində ağac və qum qarışığı olan gildən hazırlanmışdır. Abidədən əldə olunmuş pardaxlanmış küplər qırmızı və qəhvəyi rəngdədirlər. Qablar əsasən kasa, iri girdə küplər, fincanlar, piyalələr və s. formalara malikdirlər. Həmçinin abidədən xaricdən gətirilmə sadə saxsı və boyalı qablar aşkar olunmuşdur. Onların sayı 12-dir.

**Qafqazın Qaradəniz ətrafı abidələri** arasında xüsusi yeri Rioni çayı sahilində Kutaisi ərazisində yerləşən **Tetramisa** yaşayış məskəni tutur. Abidə bir təbəqəlidir. Tetramisa "Soçi-Adler tipli" abidələrin ən ucqar cənub-şərq nöqtəsində yerləşir.

Tetramisadan arxeoloji araşdırmalar zamanı müxtəlif tipli daşlardan, o cümlədən çaxmaqdaşından, bazaltdan çoxlu sayda əmək alətləri aşkar edilmişdi. Onlardan daha çox seçilənləri, daha doğrusu, ən qədim dövrlərdə

istifadə olunanları çaxmaqdaşından hazırlanan əmək alətləridir. Bu alətlərin oxşar nümunələri Qərbi Gürcüstandan tapılmışdır. Kremendən hazırlanan əmək alətləri sırasında kəsici və deşicilər çoxluq təşkil edir. Aşkar edilən saxsı nümunələri kəmiyyət etibarilə az olub, daha çox qırıq fraqmentlərdən ibarətdir. Saxsı nümunələri arasında stilizə edilmiş realizmdən uzaq olan antropomorf heykəlcikləri xüsusi qeyd etmək lazımdır.

Tetramisadan aşkar edilən tapıntılar genetik olaraq neolit dörvü ilə birbaşa bağlıdır, yəni bu ərazidə mədəniyyət davamlı olaraq inkişaf etmişdir. Bu mədəniyyət mərkəzi və Cənubi Qafqazın eynitipli abidələrindən fərqlənir. Belə ki, Qafqazın bu ərazilərində əkinçi-maldar tayfalarının yaratdıqları mədəniyyətlər özünəməxsus inkişaf pillələrinə məxsusdur. Bu cür fərqli inkişafı keçən abidələr Abxaziyada da qeydə alınmışdır. Bunlardan Qantiadi kəndi yaxınlığındakı Quad İxu adlı dağda yerləşən və Macara adlı kənddə aşkar edilən yaşayış yerini xüsusi qeyd etmək olar. Adı çəkilən abidələrdən aşkar edilən arxeoloji materiallar tərkibinə görə eynilik təşkil edir. Belə ki, bütün bu abidələr açıq tipli yaşayış yerlərindən ibarətdir və heç birində tikinti qalıqları aşkar olunmamışdır. Bunlardan yalnız Macar yaşayış yerində yarımqazma formasında olan evlərin hissələri öyrənilmişdi. Abidələrdən tapılan istehsal vasitələri əsasən dəyirman daşlarından, kobud xışdan və digər əmək alətlərindən ibarətdir. Qeyd etmək lazımdır ki, arxeologiya elmində «Suxumi tipli xışlar» kimi tanınan dairəvi, diskvari xışlar məhz buradan tapılmışdır, digər abidələrdən isə «Soçi-Adler» tipli xışlar qeydə alınmışdı. Sonuncu tipə aid olan xışlar Qafqaz abidələrinin bir çoxu üçün xarakterikdir.

Aparılan araşdırmalar bir daha Qafqazdan Soçiyə qədər olan ərazilərdə əhalinin əkinçiliklə məşğul olduğunu sübut edir.

Qafqazın mis dövrünün sonu haqqında məlumatı Abxaziya dolmenlərinin qazıntıları vermişdir. Qeyd etmək lazımdır ki, M.M. İvanenko, B.A.Kuoqtina və A.L.Lukina kimi alimlər 1930-1937-ci illərdə bu abidələri üzə çıxarmışlar. Dolmenlərin tədqiqi göstərmişdir ki, bu abidələr uzun müddət dəfn məqsədilə istifadə olunmuş və müxtəlif dövrlərə aid qəbirləri özündə cəmləşdirir. Ən aşağı təbəqə tikililərin mis dövrünün sonu ilə əlaqəli olduğunu göstərir. Təbəqədən baltalar, toppuzlar, nizə ucluqları, özünəməxsus formalı qarmaqlar və bıçaqlar aşkar olunmuşdur. Cənubi Qafqaz dolmenləri Qara dəniz sahili abidələri adı ilə tanınan Şimali Qafqaz dolmenləri ilə əlaqəlidirlər.

Cənubi Qafqazda (vislobusnix) baltalar əsasən, təsadüfi qazıntılar zamanı aşkar edilmişdir. Bu cür balta Qərbi Azərbaycanda, Göyçə gölünün cənub-qərb sahilində yerləşən Adıyaman kəndi ərazisindəki nəhəng daş parçalarından inşa edilmiş qəbirlərdən də tapılmışdır.

Qafqazdan cənubda çox sayda xış nümunələri aşkar edilmişdir. Abxaziyanın Oçamir adlı erkən tunc dövrünə aid olan yaşayış yerində də bu tip xış nümunələrinə təsadüf olunur.

Ümumiyyətlə, daşdan hazırlanan belə xışlar forma etibarilə Yaxın Şərq ərazisində öyrənilən bəzi abidələrdən, o cümlədən IV minilliyə aid olan Şimali Mesopotamiyadan (e.ə.VI-IV minillik) da məlumdur (Xassun, Xalaf mədəniyyətləri misal çəkmək olar).

Analoji tapıntılara əsasən bu tipli əmək alətlərinin Qafqaza Şərqi Anadolu və Eorox su hövzəsi yolu ilə Ön Asiyadan daxil olması ehtimal olunur.

Qafqazın qərb hissəsinin mədəni-tarixi inkişafının digər ərazilərdən fərqli olmasını Azərbaycandan şimalda aşkar edilən abidələr də sübut edir. Xüsusilə, Soçi-Adler ərazisindən aşkar edilən Axştır I-V, Smeretiya limanı, Moldova və digər abidələrdən aşkar edilən maddi mədəniyyət qalıqları Abxaziyadan tapılan eneolit dövrünə aid materiallardan fərqlənmir.

Beləliklə, Qafqazın Qara dəniz sahilləri ərazisində öyrənilən dövrdə, neolit dövründə olduğu kimi, özünəməxsus mədəniyyət inkişaf etmişdir.

Bu mədəniyyətlər Cənubi Qafqazın erkən əkinçilik mədəniyyəti abidələrindən fərqli idi. Bu mədəniyyət Odişi, Kistrik və Aşağı Şilovka kimi yerli neolit mədəniyyətləri, erkən tunc dövrünə aid Oçamçiri yaşayış yeri, Voronsov mağarası və digər abidələri arasında müəyyən xronoloji çərçivəyə daxildir (e.ə.IV-III minilliyin əvvəlləri). Bu tarix aparılan radiokarbon analizlərin nəticəsi ilə dəqiqləşir, yəni Macar yaşayış yeri üçün bu çərçivə 3810±90 ili əhatə edir.

Şimali Qafqazın qədim dövrə aid arxeoloji abidələri çox az öyrənilmişdir. Bunlardan Aqubekov yaşayış yerinin, Nalçik nekropolunun (Kobarin-bolqarda yerləşir) adını çəkmək mümkündür. Aqubekov yaşayış yeri eneolit dövrünə aiddir. Abidə Nalçik şəhəri yaxınlığında yerləşir. Abidənin mədəni təbəqəsinin qalınlığı 0,4-0,6 m olaraq, əsasən saxsı nümunələrindən, çaxmaqdaşından hazırlanan əmək alətlərindən, qamışdan toxunma evlərin qalıqlarından ibarətdir.

Ümumilikdə, abidədən aşkar edilən əmək alətləri digər Cənubi Qafqaz abidələrinin tapıntılarından fərqlənmir. Belə ki, eyni funksiyalı əmək alətləri Dağıstandan, daha dəqiq ifadə etsək, Qinçi yaşayış yerindən də aşkar edilmişdir.

Bu oxşarlıq yerli oturaq əhalinin əlaqələrini bir daha sübut edir. Beləliklə, Aqubekov yaşayış yerindən 1000-dən artıq saxsı nümunələri tapılmışdı. Bu qablar keyfiyyətsiz gildən hazırlanmış, rəng çalarları isə sarı və qırmızı olaraq bozarmış vəziyyətdə aşkar edilmişlər. Saxsı nümunələri bir çox əlamətlərinə görə cənub-şərqi Qafqaz və Qara dəniz sahillərindəki abidələrinin materiallarından fərqlənir. Bu isə, öz növbəsində, Mərkəzi

Qafqaz abidələrin lokal xüsusiyyətlərini özündə əks etdirir. Bu fərqi abidədən tapılmış gil antropomorf heykəlcik də sübut edir. Tapıntı Cənubi Qafqazın erkən əkinçiliklə məşğul olan abidələrindən aşkar edilən heykəlciklərdən fərqlidir.

Bu fərqlilik yerli əhalinin dini dünyagörüşündə, dəfn adətində və bütövlükdə qəbir abidələrində də özünü göstərmişdir.

Cənubi Qafqazın eneolit dövrü mədəniyyəti aşkar edilmiş və tədqiq olunmuş abidələr və arxeoloji materialla həmin dövrün insan cəmiyyətinin inkişaf tarixində necə vacib bir rol oynadığını göstərir. Bu abidələrlə Ön Asiyanın eyni dövrə aid abidələri arasında çox böyük oxşarlıqlar olmasına baxmayaraq bir çox özünəməxsus özəlliklər də müşahidə edilir ki, bu da Cənubi Qafqaz eneolit mədəniyyətinin müstəqil inkişafını sübut edir.

Sonda qeyd etmək yerinə düşərdi ki, bəhs edilən dövrdə Qara dəniz ətrafında olduğu kimi Şimali Qafqaz bölgəsi arxeoloji mədəniyyətlər baxımından Cənubi Qafqazdan geridə qalırdı. Bu ona dəlalət edir ki, dəmir dövrünün astanasında Qafqazın ayrı-ayrı bölgələri müxtəlif mədəni inkişaf mərhələsində olmuşdur. Sözsüz ki, Qafqaz və Dağıstanın eneolit dövrünün çiçəklənməsində sosial-iqtisadi faktorlar aparıcı rol oynamışdır. Məhz əkinçilik və maldarlığın inkişafı bu ərazidə məskunlaşmış tayfaların öz aralarında və Ön Asiya qonşuları ilə sıx əlaqələrin yaranmasına gətirib çıxarmışdı. Bu səbəblə də, Qafqazda erkən əkinçilik mədəniyyətlərinin güclü inkişafına təkan verilmişdi.

Cənubi Osetiyanın Böyük Liaxvi çayının aşağı axarının yaxınlığında aşkar edilən yaşayış yeri və qəbir yerləri, mütəxəssislərin fikrincə, Kür-Araz mədəniyyətinə anaoloji abidə olaraq, eneolit dövrünə aiddir. Buradan aşkar edilən əsas maddi mədəniyyət qalıqları arasında saxsı nümunələri üstünlük təşkil edir. Bu cür saxsı qab fraqmentləri eyni bir texnika ilə hazırlanmışlar. Saxsıların üzəri qara rənglə, üç tərəfi qırmızımtıl rənglə örtülərək, zəif temperaturda bişirilmişdir.

Qafqazın Kulbakebi və Nasarqora adlı təpələrindən aşkar edilmiş və bərpa edilmiş saxsılardan istifadə olunmuşdur. Nasarqoradan tapılan bəzi qab nümunələrinin üzərində relyefli bəzəklər vardır. Bu cür tapıntıların əsasən Gürcüstandan və Cənubi Qafqazın digər yerlərindən aşkar edilən saxsı nümunələrinin yaxın oxşarlığı olsa da, bəzi fərqli elementləri də vardır. O cümlədən, Şida-Kartlien (Kulba-kebi, Zqudriskverda, Nasarqora, Urbnisi, Kvasxeledi və s.) tapılan saxsıların üzəri hamar və bəzəksizdir, baxmayaraq ki, Trialetidən, Kiketidən, o cümlədən Qərbi Azərbaycandan (İndiki Ermənistandan) eyni dövrə aid olan saxsıdan çox rəngarəng və zəngin bir şəkildə bəzədilmişdir.

Qafqazın bu ərazisində ilk dəfə eneolit dövrü arxeoloji abidəsi S.İ.Nadimaşvili tərəfindən aşkar edilmişdi. O, 1949-cu ildə Böyük Liaxvi

çayının sol sahilində Zqudrisiverda deyilən qəbiristanlıq yaxınlığında, Nasarqora təpəsində, Sxinvali şəhərinin cənub-qərbində aparılan arxeoloji qazıntılar zamanı bu abidəni öyrənməyə başlamışdı. Burada S.İ.Nadimaşvili tərəfindən öyrənilən digər bir maraqlı eneolit dövrü abidəsi Osprisi kəndinin yaxınlığında Kulbakebi adlı təpə aşkar edilmişdi. Abidə 1949-cu ildə B.A.Kuftinin rəhbərliyi ilə işləyən arxeoloji ekspedisiya tərəfindən də öyrənilmişdi. Bu ekspedisiyanın kəşfiyyat xarakterli işləri nəticəsində təpənin üst təbəqəsindən xeyli miqdarda eneolit dövrü üçün xarakterik olan saxsı məmulatları, əmək alətləri, gildən qoyun heykəlciyi, çaxmaqdaşı nümunələri tapılmışdı. 1950-ci ildə V.P.Lyubin tərəfindən Sxinvali şəhərinin ətrafında arxeoloji kəşfiyyat işləri həyata keçirilmişdi. Bu zaman misdən hazırlanan eneolit dövrü üçün xarakterik olan kiçik balta tapılmışdı. Həmin ildə araşdırılan ərazidə qəbirlər də müəyyən qədər öyrənilmişdi.

**Eneolit dövrünün dəfn adətləri.** Bəşər tarixi üçün eneolit dövrünə aid ən mühüm məsələlərdən biri də dəfn adətinin formalaşmasıdır.

Təkcə Azərbaycan ərazisində - I Kültəpənin eneolit dövrü təbəqəsində 85 qəbir açılmışdır. Buradan çıxan skeletlər ölülərin bükülü vəziyyətdə və ya böyrü, yaxud da arxası üstə, müxtəlif istiqamətlərdə dəfn edildiyini göstərir. Bəzi skeletlərin üzərinə qırmızı oxra səpilmişdir. Qəbirlərin bəzilərindən it skeleti, bir qism qəbirlərindən gil qablar, cürbəcür muncuqlar və dəvəgözü daşından əşyalar tapılmışdır. Belə qəbirlər Babadərviş və digər abidələrdə də üzə çıxarılmışdır. Azərbaycan ərazisində öyrənilmiş eneolit dövrü abidələrinin çoxunda qəbirlər bilavasitə yaşayış məskənlərində qazılmışdır. Bu adət Yaxın və Orta Şərqin bir çox ölkələrində uzun müddət qalmışdır. Belə qəbirlər, bir qayda olaraq, yaşayış yerlərinin mədəni təbəqəsində və yaxud xam torpaqda qazılırdı.

# V HİSSƏ. TUNC VƏ DƏMİR DÖVRÜ

## VI FƏSİL

## QAFQAZIN TUNC DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ

### 1. Qafqazdakı tunc dövrü arxeoloji abidələrinin xüsusiyyətləri

Qafqazın tunc dövrü abidələri əsasən XX əsrdə və XXI əsrin əvvəllərində E.Resler, İ.Meşşaninov, T.Passek, B.Latının, D.Şərifov, O.Həbibullayev, Ə.Ələkbərov, Q.Melikişvili, P.Tavadze, R.Munçayev, İ.Nərimanov, H.Kəsəmənli, Y.Krupnov, B.Texov, C.Xalilov, Q.İsmayılzadə, M.Hüseynova Q.M.Aslanov, V.Əliyev, H.Cəfərov, M.Rəhimova, F.Muradova, T.Axundov, S.Aşurov, N.Müseyibli, İ.Avşarova və digər alimlər tərəfindən öyrənilmişdi.

E.ə. IV minilliyin ortalarında Qafqazda əsaslı dəyişikliklər müşahidə olunmaqda idi. Mis dövrü mədəniyyəti əsasında erkən tunc dövrü formalaşırdı. Bunu yalnız Qafqaz daxili ictimai münasibətlərdəki böyükhəcmli dəyişikliklər və mədəni inkişaf deyil, həmçinin Qədim Şərq - Ön Asiya mədəniyyəti ilə sıx əlaqələr bir daha sübut edir.

İlk tunc dövründə erkən maldarlığın inkişafı ilə əlaqədar tayfalar arasında mülki bərabərsizlik yaranırdı. Mülki bərabərsizliyin genişlənməsi nəticəsində bəzi maldar tayfalar sərvət toplayırdılar. Bu da mübadilə prosesinin formalaşması və Ön Asiya ölkələri ilə iqtisadi münasibətlərin möhkəmlənməsinə gətirib çıxarırdı. Daha varlı tayfalar xüsusi mövqe qazanaraq tayfa ittifaqına başçılıq etməyə başlayırdılar. Tədricən mülki bərabərsizlik tayfa daxilində də müşahidə olunurdu. Belə ki, var-dövlət tayfa başçısı və onun nəslinin nümayəndələrinin əlində cəmləşirdi. Bunu daha çox arxeoloqlar tərəfindən aşkar olunmuş qəbir abidələri sübut edir. Tədqiq olunan bəzi qəbirlərin tutumuna görə daha zəngin və dəbdəbəli, bəzilərinin isə sadə olması bunu bir daha təsdiq edir.

Mal-qara və sərvət uğrunda mübarizələr tayfalar arasında düşmən münasibətlərin yaranmasına səbəb olurdu. Bununla əlaqədar həmin dövrdə yaşayış məskənlərinin ətrafı iri sal daşlardan hörülmüş (hündürlüyü 2 m-ə çatan) şəhər formasını alır. Belə abidələrdən biri İrəvan şəhəri yaxınlığında Təzəkənd ətrafında Qızıl qala ilə üzbəüz yerləşən Zənçiqala şəhəridir. Bu şəhərdə həyat e.ə. IV minillikdən başlayaraq orta əsrlərə qədər davam etmişdir. 1896-cı ildə P.V.Çarkovskinin rəhbərliyi ilə həmin şəhərin iri kurqan abidəsi tədqiq olunmuşdur. Tədqiqat işləri sonradan E.Resler tərəfindən davam etdirilmişdir. Kurqan qəbirləri daşlarla örtülmüşdür. Burada tədqiq olunan qəbirlər e.ə. III-II minilliklər üçün xarakterik olan daş

qutular deyil, düzbucaqlı formaya malik quyular şəklində idi. Kurqanlardan çox az miqdarda material əldə olunmuşdur. Bunlar əsasən boyalı saxsı qablar, bir ədəd cızma ornamentli gil qab və baş üçün olan daş sancaqdan ibarətdir. Əldə olunan saxsı qablar boğazlı küplər, üzərinə qırmızı fonda qara ornament həkk olunmuş fincanlar qismindədirlər.

Qızıl-qala abidəsindən aşkar olunmuş bu tip qəbir abidələrinin yaşının müəyyən olunması üçün (İrəvan şəhərində, vağzal yaxınlığında yerləşən) Müxənnət-təpədə 1935-ci ildə aparılmış arxeoloji tədqiqat işləri nəticəsində aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının böyük rolu vardır.

1895-ci ildə sərhəd qoşunlarının zabiti N.V.Fyodorov tərəfindən məlum arxeoloji komissiyaya daxil olan Araz sahilindəki Qızılvəng abidəsindən aşkar edilən boyalı qablar haqqında geniş elmi məlumatlar arxeoloji elmi-ədəbiyyatda öz əksini tapmışdır. Bu qabların sırasında həm boyalı, həm də sadə dulus məmulatları diqqəti cəlb edir. Ornamentlər arasında əsasən tünd-qırmızı və qara rənglə çəkilmiş həndəsi naxışlar çoxluq təşkil edir. N.V.Fyodorovun Qızılvəngdən topladığı metal əşyalar 4 ədəd tunc qılınc, üç ədəd tunc dördkünc formalı biz və tunc sancaqdan ibarətdir. 1926-cı ildən başlayaraq Qızıl-vəngdə iki arxeoloji ekspedisiya fəaliyyət göstərmişdi. İ.İ.Meşşaninov və A.A.Millerin rəhbərliyi ilə həyata keçirilən arxeoloji qazıntılarda aşkar edilən daş qutu tipli qəbirlərin içərisindəki skeletler əsasən sağ böyrü üstündə ayaqları və əlləri qatlanmış vəziyyətdə təsadüf olunmuşdu. Qəbir abidələrindən mis və tuncdan hazırlanmış müxtəlif əşyalar, qara cilalı və digər boyalı qablar aşkar edilmişdir. Bu qablar N.Fyodorovun kolleksiyasında olan rəngarəng qab nümunələrindən fərqlənirdilər. Aşkar edilən boyalı qablar artıq əvvəlki kimi deyil, keyfiyyətsiz şəkildə hazırlanmışdı. Bu dövrdə Cənubi Qafqaz saxsı qabları içərisində, çaydan formalı, qulplu su qabları hazırlanmağa başlanır. İran ərazisindən aşkar edilən eyni funksiyalı qablar mütəxəssislər tərəfindən e.ə. IV-III minilliklərə aid edilir. O cümlədən Luristandan, III Təpə-Hissar, Təpə-Sialk qəbir abidəsindən, Türkmənistanda III Anaudan, Naxçıvanda Kültəpədən, Türkiyədə Anadoludan aşkar edilən bu tip qablar qədim tarixə malikdirlər.

Cənubi Qafqazın boyalı qablarının öyrənilməsində B.A.Kuftinin, Ə.Ələkbərovun, O.Həbibullayevin, V.H.Əliyevin xidmətləri az olmamışdır.

Boyalı qablar haqqında geniş elmi tədqiqatlar 1951-1964-cü illərdə aparılmışdır. Bu cəhətdən Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən Kültəpədə aparılan tədqiqat işlərinin mühüm əhəmiyyəti vardır. Belə ki, tədqiqatçı alim O.Həbibullayev Kültəpənin üst mədəni təbəqəsini diqqətlə öyrənərək ilk dəfə Naxçıvan boyalı qablarının tiplərini müəyyənləşdirmiş və onların dəqiq tarixini vermişdir.

**Ağdam yaxınlığında yerləşən Üzərliktəpə** qədim yaşayış məskənində Örənqala ekspedisiyası tərəfindən aparılan arxeoloji tədqiqatlar (1954-1956) nəticəsində orta tunc dövrünə aid çoxsayda monoxrom naxışlı qab qırıqları əldə edilmişdir. Bu ekspedisiya tərəfindən Mil düzündə aparılan kəşfiyyat işləri nəticəsində Göytəpə, Rəsultəpə, Nərgiztəpə və Babalartəpə adlı qədim yaşayış məskənlərindən orta tunc dövrünə aid boyalı qab qırıqları aşkar edilmişdir.

1970-1990-cı illərdə Naxçıvanda aparılan qazıntı işləri zamanı arxeoloq V.Əliyev tərəfindən Nəhəcir, Bulalıtəpə, Qarabağlar və digər qədim yaşayış yerləri qeydə alınmış və bu abidələrdən maraqlı materiallar toplanmışdır. Bundan başqa, Q.İsmayılzadə tərəfindən Fizuli rayonunda Günəştəpə, Qaraköpəktəpə, Kültəpə, Xantəpə, Uzuntəpə və s. yaşayış məskənlərində də tədqiqat işləri aparılmış və bu dövrə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir.

**Baba Dərviş -** Cənubi Qafqaz ərazisində, konkret olaraq Azərbaycanda Kür-Araz mədəniyyətindən əvvəl mövcud olmuş yaşayış məskənlərinin xüsusiyyətlərini özündə cəmləşdirən və Naxçıvandakı Kültəpə abidəsindən sonra tunc dövrünə aid zəngin material verən arxeoloji abidə Qazax rayonunda yerləşən Baba Dərviş abidəsidir. Burada ilk arxeoloji tədqiqatlar 1958-1962-ci illərdə AMEA-nın Tarix İnstitutu tərəfindən təşkil edilmiş və Qazax arxeoloji ekspedisiyası tərəfindən həyata keçirilmişdir. Abidə Ağstafa çayının sol sahilində yerləşir. Aşkar edilmiş əsas mədəni təbəqə Kür-Araz mədəniyyətinə aid olan maddi mədəniyyət qalıqları ilə çox zəngindir. Bu mədəni təbəqənin alt qatında dörd qazma aşkar olunmuşdur. Bu qazmaların diametri 3-4 m, dərinliyi 1m-dir. Qazmalarda aparılan qazıntılar zamanı maraqlı əmək alətləri və saxsı məmulatlar aşkar edilmişdir. Bunlar əsasən dəvəgözü, çaxmaqdaşı və sümükdən olan əmək alətləri və arxaik, qədim saxsı qırıqlardan ibarətdir. Bu saxsı qablar qırmızı rəngdə olub sadə formalıdırlar. Qeyd etmək lazımdır ki, analoji saxsı qablar Qazaxın qədim yaşayış məskənlərindən, o cümlədən Şomutəpə və Töyrətəpənin alt təbəqələrindən də aşkar edilmişdir. Baba Dərviş yaşayış məskəni xarici görünüşünə görə Qafqazın Şenqavit, Kosi-Koter, Kvaçxelebi, Qayakənd, Vəlikənd kimi abidələri ilə oxşarlıq təşkil edir.

Kiçik Qafqazın cənub-şərq ətəklərindəki erkən tunc dövrü arxeoloji abidələri əsasən, Kür-Araz mədəniyyətinə aid edilən və əkinçiliklə məşğul olan tayfaların yaşayış məskənlərindən ibarətdir. Qeyd etmək lazımdır ki, bu mədəniyyətin yaşayış məskənlərinin ilkin izləri Azərbaycanın müxtəlif bölgələrində qeydə alınmış və e.ə.VI-V minilliklərə aid edilmişdir. Odur ki, Qarabağ ərazisində Qafqazdan cənubda çox sayda xış nümunələri tapılmışdır. Abxaziyanın Oçamir adlı erkən tunc dövrünə aid olan yaşayış yerində də bu tip xış nümunələrinə təsadüf olunur.

Ümumiyyətlə, daşdan hazırlanan belə xışlar forma etibarilə Yaxın Şərqin ərazisində öyrənilən bəzi abidələrdən, o cümlədən IV minilliyə aid olan Şimali Mesopotamiyadan da məlumdur (e.ə.VI-IV minilliyə aid olan Xassun, Xalaf mədəniyyətlərini misal çəkmək olar).

Analoji tapıntılara əsasən bu tipli əmək alətlərinin Qafqaza Şərqi Anadolu və Eorox su hövzəsi yolu ilə Ön Asiyadan daxil olması ehtimal olunur.

Qafqazın qərb hissəsinin mədəni-tarixi inkişafının digər ərazilərdən fərqli olmasını Azərbaycandan şimalda aşkar edilən abidələr də sübut edir. Xüsusilə, Soçi-Adler ərazisindən aşkar edilən Axştır I-V, İmeretiya limanı, Moldova və digər abidələrdən aşkar edilən maddi mədəniyyət qalıqları Abxaziyadan tapılan eneolit dövrünə aid materiallardan fərqlənmir.

Beləliklə, Qafqazın Qara dəniz sahilləri ərazisində öyrənilən dövrdə, Neolit dövründə olduğu kimi özünəməxsus mədəniyyət inkişaf etməkdə olmuşdur.

Bu mədəniyyətlər Cənubi Qafqazın erkən əkinçilik mədəniyyəti abidələrindən fərqliydi. Bu mədəniyyət Odisi, Kistrik və Aşağı Şilovka kimi yerli neolit mədəniyyətləri, erkən tunc dövrünə aid Oçamçiri yaşayış yeri, Voronsov mağarası və digər abidələri arasında müəyyən xronoloji çərçivəyə daxildir (e.ə. IV-III minilliyin əvvəlləri). Bu tarix aparılan radiokarbon analizlərin nəticəsi ilə dəqiqləşir, yəni Macar yaşayış yeri üçün bu çərçivə 3810+90 ili əhatə edir.

Şimali Qafqazın qədim dövrə aid arxeoloji abidələri çox az öyrənilmişdir. Bunlardan Aqubekov yaşayış yerinin, Nalçik nekropolunun (Kobarda-Bolqarda yerləşir) adını çəkmək mümkündür. Aqubekov yaşayış yeri eneolit dövrünə aiddir, Nalçik şəhəri yaxınlığında yerləşir. Abidənin mədəni təbəqəsinin qalınlığı 0,4-0,6 m olaraq, əsasən saxsı nümunələrindən, çaxmaqdaşından hazırlanan əmək alətlərindən, qamışdan toxunma evlərin qalıqlarından ibarətdir.

Ümumilikdə, abidədən aşkar edilən əmək alətləri digər Cənubi Qafqaz abidələrinin tapıntılarından fərqlənmir. Belə ki, eyni funksiyalı əmək alətləri Dağıstandan, daha dəqiq ifadə etsək, Qinçi yaşayış yerindən də aşkar edilmişdir.

**Qaraköpəktəpə yaşayış yeri.** Erkən tunc dövrü Kür-Araz mədəniyyəti abidələri içərisində özünəməxsus yeri olan abidələrdən biri Qaraköpəktəpə yaşayış yeridir. Köndələnçayın sağ sahilində, diametri 200 m olan hündür təpədə yerləşən abidənin ümumi sahəsi 4 hektara yaxındır. Azərbaycanın çoxtəbəqəli abidələri qrupuna daxil olan Qaraköpəktəpənin erkən tunc dövrü mədəni təbəqəsinin qalınlığı 7 m-dir. Aparılan arxeoloji qazıntılar zamanı yaşayış yerindən orta tunc dövrünə aid maddi mədəniyyət nümunələri aşkar olunmuş və onların Üzərliktəpə mədəniyyəti tapıntıları ilə

oxşarlığı müəyyənləşdirilmişdir. Maraqlıdır ki, Qaraköpəktəpədə lal təbəqəyə təsadüf olunmamışdır. Erkən tunc dövrü təbəqəsindən 2 tikinti qalığı və məişət tullantıları aşkar edilmişdir. Bu və digər tapıntılar yaşayış yerində insanların fasiləsiz olaraq yaşadıqlarını təsdiq edir.

**Günəştəpə yaşayış məskəni.** Günəştəpə abidəsi Qaraköpəktəpə yaşayış yerinin yaxınlığında yerləşir. Nisbətən kiçik ölçülərə malik olan bu ovalvari yaşayış yeri də Köndələnçayın sağ sahilində qeydə alınmışdır. Günəştəpənin hündürlüyü 8 m, əhatə etdiyi ərazinin ümumi sahəsi 2,5 hektardır. Arxeoloji tədqiqat zamanı erkən tunc dövrünə aid 2 m hündürlüyü olan tikinti qalıqları, kül qatı, osteoloji qalıqlar, müxtəlif materialdan hazırlanmış əmək alətləri və silahlar və s. üzə çıxarılmışdır. Erkən tunc dövrü yaşayış evi dairəvi planda olub, daşdan tikilmişdir. Evin yaxınlığında təsərrüfat quyusu da aşkar olunmuşdur. Qazıntı işləri zamanı abidənin erkən tunc dövrünə aid mədəni təbəqəsindən orta tunc dövrü üçün xarakterik olan qəbirlər açılmışdır. Bu, yaşayış yerinin sonralar qəbristanlıq kimi istifadə olunmasından xəbər verir.

**Meynətəpə yaşayış yeri.** Köndələnçayın sağ sahilində, Qaraköpəktəpədən 6 km şərqdə yerləşən Meynətəpə yaşayış yeri üç təpədən ibarətdir.

Kənarda yerləşən təpələrin ikisi 1 hektar, mərkəzdə yerləşən üçüncü təpə isə 2 hektar sahəni əhatə etmişdir. Uzunsov, düzbucaqlı formada, küncləri qatlanmış şəkildə olan bu təpənin hündürlüyü 80 m-dən çox deyildi. Meynətəpənin maddi mədəniyyət nümunələri Qaraköpəktəpənin tapıntıları ilə eyniyyət təşkil edir. Bu abidədə də erkən və orta tunc dövrü təbəqələrinin arası kəsilməzdir, bu da öz növbəsində, Meynətəpədə həyatın hər iki dövrdə ardıcıl davam etməsini göstərir.

**Uzuntəpə yaşayış yeri.** Köndələnçayın yaxınlığında, Qaraköpəktəpədən 8 km şimal-şərqdə yerləşən abidə hamar səthli, uzunsov-oval formalı təpədə yerləşir. Uzuntəpə yaşayış yerinin ümumi sahəsi 1,5 hektar, mədəni təbəqənin qalınlığı 1 m-ə qədərdir. Qeyd edək ki, Uzuntəpə yaşayış yerinin yaxınlığında Şomutəpə adlanan ərazidə bir-birinə oxşar olan erkən tunc dövrünə aid abidələr qrupuna da təsadüf olunmuşdur. Təpənin hər birinin ümumi sahəsi 1 hektar, hündürlüyü isə 12 m-ə qədərdir. Bu abidələrdən nisbətən aşağıda iki Xantəpə abidəsi qeydə alınmışdır. Hər iki təpədə mədəni təpənin qalınlığı 2-3 m arasında öyrənilmişdir. Bu abidələr də erkən tunc dövrü - Kür-Araz mədəniyyətinə aid edilir.

**Kültəpə yaşayış yeri.** Ərazisinin sahəsinə görə öyrənilən ərazidə Qaraköpəktəpədən sonra II yerdə Kültəpə yaşayış abidəsi durur. Bu abidə Quruçay və Köndələnçay hövzəsində, ən ucqar bir yerdə aşkar edilmişdir. Yaşayış yerinin ümumi sahəsi 6 hektara yaxındır. Hündürlüyü 15 m olan bu təpə ayrı-ayrı dövrlərə aid mədəni təbəqələrdən ibarətdir.

Arxeoloji qazıntılar nəticəsində Kültəpə yaşayış yerindən eneolit, erkən və orta tunc dövrünə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir.

Beləliklə, Kiçik Qafqazın cənub-şərq ətəklərində yerləşən erkən tunc dövrü yaşayış məskənlərindən aşkar edilən maddi mədəniyyət qalıqları əsasən Kür-Araz mədəniyyətinə aiddir. Bütün abidələr Quruçay və Köndələnçay hövzələrində əkinçilik və maldarlığın inkişafı üçün çox əlverişli bir yerlərdə yerləşmişlər. Abidələrdə intensiv yaşayışın olması Kür-Araz mədəniyyəti üçün xarakterikdir. Ehtimal etmək olar ki, bu tip yaşayış yerlərində əsasən qohumluq əlaqəsi olan tayfalar yaşamışlar. Digər bir xüsusi əlamət yaşayış yerlərində müdafiə divarları mövcud olmasından ibarətdir. Məsələn, Qaraköpəktəpənin üst qatlarında uzunluğu 20 m olan divar qalıqları aşkar edilmişdir. Güman ki, oxşar formalı bu cür müdafiə xarakterli divarlar Meynətəpə, Şomutəpə, Kültəpədə də tikilmişdi. Belə tip yaşayış yerlərinə Qobustanda -Dairə deyilən yerdə də təsadüf olunmuşdur. Dairəvi formalı yaşayış yeri Böyükdaş dağının aşağı terrasında yerləşir, ümumi sahəsi 2000 $m^2$, abidə qalınlığı 1 m olan daş divarla hasara alınmışdı. Divar yerli (yonulmamış) qaya daşlardan hörülmüşdür. Mədəni təbəqədən erkən tunc dövrünə aid daşdan tikilmiş təsərrüfat tikililərinin qalıqları, həmçinin ocaq yerləri və əmək alətləri aşkar edilmişdir.

1888-1890-cı illərdə V.Belhk, 1896-cı ildə A.İvanovski tərəfindən Şəmkir rayonunda aparılan qazıntılar zamanı aşkar edilən iri daş qutularda toplu qəbirlər aşkar edilmişdir. Oxşar tipli qəbir abidələri Qərbi Azərbaycanda Göyçə gölü ətrafında da tapılmışdır. Bu abidələrdən tapılan metal əşyalar Gəncə və Ağstafa ərazisindən aşkar edilən maddi mədəniyyət qalıqları ilə oxşardırlar. Lakin əmək alətlərinin yerli istehsalın məhsulu olması şübhəsizdir. Vaxtilə Y.İ.Krupnov adı çəkilən qazıntılardan aşkar edilən bir çox maddi-mədəniyyət qalıqlarının, o cümlədən saxsı qabların əksəriyyətinin Dağıstanda Qroznı ərazisində yerləşən Xoraçayev, Gürcüstandakı Laqodexi və Azərbaycanın Quba rayonu ərazisindəki bəzi tapıntılarla çox maraqlı oxşarlıqlarını qeyd etmişdir. Belə analogiyalar yalnız saxsı qab nümunələrinə aid deyildir. Həmçinin mərgümüşdən hazırlanan bəzi bəzək əşyaları Qafqazın dağlıq ərazisindən tutmuş, bütün Cənubi Qafqazda demək olar ki, eynidirlər.

Keçən yüzillikdə Azərbaycan ərazisində bu dövrə aid aparılan tədqiqatlar Cənubi Qafqaz mədəniyyətinin Ön Asiya mədəniyyəti ilə əlaqələrini bir daha sübuta yetirdi. Bu baxımdan 1946-cı ildə Mingəçevir ərazisində davamlı olaraq aparılan arxeoloji qazıntılar çox mühüm əhəmiyyətə malikdir.

Azərbaycanın Son tunc dövrü üçün Xocalı-Gədəbəy, Naxçıvan və Talış, Muğan arxeoloji mədəniyyətləri səciyyəvidir. Bu mədəniyyətləri ayrı-ayrılıqda izah etməzdən əvvəl, e.ə. II minilliyin sonu I minilliyin

əvvəllərində, yəni son tunc və ilk dəmir dövründə ümumi Azərbaycan yaşayış yerləri üçün xarakterik olan bəzi problemlər üzərində dayanmağı lazım bilirik.

**Xocalı-Gədəbəy mədəniyyəti.** Azərbaycanın qərb bölgəsində e.ə. II minillikdə yaşamış güclü tayfa ittifaqları əkinçilik, maldarlıq təsərrüfatlarını intensiv inkişaf etdirməklə yanaşı metallurgiya və metalişləmə sənəti sahəsində də mühüm nailiyyətlər əldə etmişlər. Bu tayfaların mədəni irsi arxeoloji ədəbiyyatda məşhur Xocalı-Gədəbəy mədəniyyəti adı ilə tanınır.

XIX-XX əsrlərdə Kür çayının sol sahillərindən başlayıb Araz çayına kimi böyük bir ərazidə aparılmış arxeoloji tədqiqatlar göstərdi ki, Xocalı-Gədəbəy mədəniyyətinin izlərinə Azərbaycanın bütün ərazilərində - Mingəçevir, Gədəbəy, Göygöl (Xanlar), Xaçbulaq, Xocalı, Çovdar, Daşkəsən, Qazax və digər ərazilərdə, o cümlədən İran Azərbaycanında da rast gəlinir. Bu mədəniyyəti daşıyan tayfalar əsasən Azərbaycanın qərbində - dağətəyi ərazilərdə sıx məskunlaşmış, əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olmuşlar.

Xocalı-Gədəbəy mədəniyyəti arxeoloji ədəbiyyatda bəzən Gəncə Qarabağ və Mərkəzi Zaqafqaziya mədəniyyəti kimi də tanınır. Bu mədəniyyətin yayıldığı ərazilər e.ə. II-I minilliklərə aid hasarsız, ətrafı müdafiə divarları ilə möhkəmləndirilmiş yaşayış yerləri (Xocalı, Qaramurad, Cənnət qalası, Göydərə və s.) siklop tikintiləri, istehkam ocaqları, kurqanlar, daş qutu və torpaq qəbirlərindən ibarət abidələrlə çox zəngindir. Qəbirlərdə aparılan arxeoloji tədqiqatlar göstərmişdir ki, ölülər bükülü vəziyyətdə müxtəlif istiqamətlərdə dəfn olunmuşlar. Bu növ dəfn adətinə Orta Asiyada, İranda, Türkiyədə və s. ölkələrdə də rast gəlinmişdir. Bu abidələr üçün səciyyəvi olan boz, qara cilalı, ağ inkrustasiyalı gil məmulatları, müxtəlif tipli zəngin tunc əşyalar dövrün mədəniyyətini və incəsənətini özündə əks etdirir. Qablar əsasən qabarıq gövdəli küplərdən, darboğaz təkqulplardan, nehrələrdən, cam formalı qablardan ibarətdirlər.

Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin əsas yaşayış məskənləri istehkamlı və istehkamsız olmaqla iki qrupa bölünür. İstehkamın yaşayış yerləri siklop tikililərdə təmsil olunur. Bu abidələr haqda ilk məlumatı 1871-76-cı illərdə F.Bayern vermişdir. 1935-ci ilə qədər İ.Cəfərzadə 59 siklopik abidə qeydə almışdır. Hazırda Azərbaycan ərazisində 150-dən artıq siklopik tikiliyə təsadüf olunmuşdur. Onlardan yalnız 20-si arxeoloji cəhətdən öyrənilmişdir. Siklopik abidələrin əsas xarakterik cəhəti onların yonulmamış iri sal daşların üst-üstə qoyularaq heç bir yapışdırıcı məhluldan istifadə olunmadan bərkidilməsidir. Abidələrdəki mədəni təbəqə qalınlığına görə üç qrupa bölünür:

I mədəni təbəqə 1, 2 - 2 m arasında (uzunmüddətli yaşayış yerləri kimi)

II mədəni təbəqə - 0,5-0,8 m (istehkam kimi)

III mədəni təbəqə - ya zəif, ya da heç nəzərə çarpmayan (mal-qara saxlanılan yerlər).

Talış-Muğan ərazisindən tapılan maddi mədəniyyət nümunələri bu ərazidə yaşayan tayfaların mədəniyyəti üçün uzun, nazik quruluşa malik, yəhər şəkilli dəstəyi olan xərcər və qılıncların ornamentsiz boz rəngli qabların səciyyəvi olduğunu göstərir.

Qeyd etmək istərdik ki, Azərbaycanın Son tunc və İlk Dəmir dövrü arxeoloji abidələri kompleksinin böyük bir qrupu boyalı qablar arxeoloji mədəniyyətinə aiddir. Bu mədəniyyət elmi ədəbiyyatda Naxçıvan arxeoloji mədəniyyəti adlandırılır.

Bu dövrdə Azərbaycanda müdafiə qalaları və hasarsız daimi yaşayış məskənləri (Govurqala, Sarıtəpə, Qaratəpə, Göygöl (Xanlar), Mingəçevir, Baba Dərviş) ilə yanaşı, mövsümlük yurd yerləri də mövcud olmuşdur. Yaşayış evləri əsasən yarımqazma formalıdırlar. Qədim yarımqazmalar dördkünc plana malik olub, əsasən, yonulmamış daşlardan, nadir hallarda isə gillə suvanmış qamışdan inşa edilmişdir. Çox vaxt divar boyu dirək yerlərinin izlərinə təsadüf olunur. Otaqların tavanında isə işığın düşməsi və tüstünün çıxması üçün xüsusi bacalar düzəldilmişdir.

Otaqların əksəriyyətinin ortasında divarları gillə suvanmış dairəvi ocaq yerlərinə təsadüf olunmuşdur. Otaqların gillə suvanmış döşəmələrində iri küplər basdırılmış, yaxud da təsərrüfat quyuları qazılmışdır. Qazax rayonu ərazisində tədqiq edilmiş Sarıtəpə və Baba Dərviş yaşayış yerlərindən mürəkkəb quruluşlu yerüstü binalar üzə çıxarılmışdır. Düzbucaqlı plana malik olan bu binalar arakəsmə divarlarla iki hissəyə bölünmüşdür. Nisbətən böyük hissə yaşayış, kiçik hissə isə mətbəx və ya anbar üçün nəzərdə tutulmuşdur.

Son tunc dövrü istehkam abidələri siklop tikililəri adı ilə məşhurdur. Bu abidələrə təkcə Azərbaycanın qədim ərazilərində deyil, Gürcüstan və Şimali Qafqazın bəzi yerlərində, İranda və Türkiyədə də təsadüf olunmuşdur.

Azərbaycan ərazisində siklop tikililəri əsasən Kiçik Qafqaz rayonunda aşkar edilmişdir. Sal qaya daşlarından bərkidici məhlulsuz hörülən bu tikililərə müxtəlif ölçülərdə təsadüf olunur. Onların divarlarının hündürlüyü əksər hallarda 3m-ə çatır. Yerli əhali arasında "qalaça", "hörük daşı", "hasar", "səngər", "duzlaq" və s. adlanan bu abidələrin nə məqsədlə tikilməsi haqqında müxtəlif fikirlər irəli sürülür.

Alimlərin bir qrupu onları yarımköçəri maldarların müvəqqəti yurd yeri, başqaları müdafiə istehkamı, bəziləri dini ibadətgah, bir qrupu isə sadəcə yaşayış məskəni hesab edirlər. Həmin abidələrin bilavasitə dağlıq yerlərdə, əksəriyyətinin isə köç yollarının kənarında yerləşməsi, onların yarımköçəri maldarlar üçün yurd yeri olması barədə mülahizələrə haqq

qazandırır. Siklop tikililərində mədəni təbəqənin olması faktı da bu fikrə əsas verir.

Qafqazın Avropa və Asiyanın kəsişməsində yerləşməsi, qədim sivilizasiya mərkəzlərinə yaxın mövqeyi, təbii və mineral sərvətlərlə zənginliyi ərazidə məskunlaşmış yerli tayfalara tunc dövrü mədəniyyətinin formalaşması və inkişafı prosesində əhəmiyyətli rol oynamaq imkanını təmin etmişdir. Tunc dövrünə aid Şimali və Mərkəzi Qafqazda, o cümlədən Cənubi Qafqazda bir neçə mədəniyyət mövcud idi. Xronoloji nöqteyi-nəzərdən onları iki böyük mərhələyə ayırmaq olar: erkən və son tunc dövrü. Qafqaz mədəniyyətlərinin bəzi ümumi cəhətləri maddi mədəniyyət nümunələrində və iqtisadi sahələrdə daha çox izlənilir: heyvandarlıq və əkinçiliyin inkişafı, boyalı dulusçuluq məmulatlarının geniş yayılması, nəhəng qaya parçalarından siklopik tikililərin inşası və s. mədəniyyətlər arasında ümumi cəhətlərin mövcudluğu Qafqaz əhalisinin Ön Asiya sakinləri ilə əlaqələrinin qurulmasına təkan vermişdir. Bu səbəbdən də qədim Şərqin texnika və silah sahəsindəki nailiyyətləri eyni uğurla Qafqazda da geniş tətbiq olunurdu: məsələn, qədim Aşşur qılınc forması, Ön Asiya baltaları və Qədim Şərqin sekir - əyri uclu xəncərləri.

**Maykop** adı ilə tanınan, e.ə. III minilliyin ortaları və II minilliyin yarısına aid edilən Şimali Qafqaz mədəniyyəti ümumi Qafqaz mədəniyyətlərinin daha erkəni hesab olunur. Bu mədəniyyətin məşhur abidəsi XIX əsrin sonlarında Beloy çayı sahilində aşkar olunmuş Maykop kurqanıdır. 10 m hündürlüyündə torpaqla örtülmüş kurqanın böyük qəbir kamerası arakəsmələrlə üç hissəyə bölünmüşdür. Əsas qəbir cənub hissədə yerləşmişdir. Buradan kişi skeleti və çoxlu əşyalar tapılmışdır: skeletin baş hissəsini qızıl diadema və digər qiymətli bəzək əşyaları bəzəyir. Mərhumun üzərində gümüş asılqanlara bərkidilmiş, üstündə gümüş və qızıldan tökmə öküz fiqurları olan parça da bu dövrdə üst geyiminin olmasına sübutdur. Üst geyimə, həmçinin şir formasında olan qizil (piləklər) tikilmişdi. Kamerada qızıl və gümüş qablar, mis xəncərlər, maili formalı baltalar da aşkar olunmuşdur. Qəbir kamerasının digər bölmələrində yanında təsərrüfat ləvazimatları ilə birgə qadınlar da dəfn olunmuşdur. Görünür ki, Maykop kurqanında icmanın nəsil başçısı dəfn olunmuşdur.

Əşyalar içərisində gümüş dolçalar arasında nəfis təsvirlərlə bəzədilmiş iki qab xüsusi maraq doğurur. Onların üzərində Qafqaz meşələri və dağ zirvəsində dayanmış ayıları xatırladan bir-birinin ardınca iki heyvan təsvir olunmuşdur. Bu erkən mədəniyyətin nümunələrinə Dağlıq Qarabağdan tapılmış kurqanlarda da rast gəlinir. Maykop mədəniyyətinə gümüş qablardan, gümüş öküz və şir fiqurlarından, qızıl şir başından, qızıl üzüklərdən və digər əşyalardan ibarət qədim Mışak dəfinəsinin parçaları aiddir. Qafqazın qərb hissəsi üçün daş qəbir növü olan - dolmenlər

səciyyəvidir. Nalçik kurqanlarındakı daş lövhələrdən ibarət qəbirlər də unikaldır. Maykop mədəniyyətinin yayılma arealı Şimal-Qərbi Qafqaz, Kabardino-Pyatiqorye, Çeçenistan və İnquşetiyanı əhatə edir. Bu mədəniyyətin mərkəzi isə Şimali Qafqazın mərkəzi və qərb rayonları hesab olunur. Müasir dövrümüzdə Maykop mədəniyyətinə aid onlarla yaşayış məskəni məlumdur - onların sırasında Meşoko, Kislovodskda Xacox, Nalçikdə aşkar olunmuş abidələri misal göstərmək olar. Yaşayış məskənlərinin əksəriyyəti adətən yüksək, əlçatmaz yerlərdə yerləşir. Bir çox məskənlər istehkamlarla möhkəmləndirilmişdir. Tikililər yaşayış məskəni ərazisində dairəvi formada, üzəri gillə suvanmış (karkas) şəklində inşa edilmişdir. Abidələrdən, həmçinin azuqə saxlamaq məqsədilə istifadə olunan çuxurlar və quyular da aşkar olunmuşdur. Əmək alətləri daş dənüyütmə aləti, daş baltalar, toppuzlar, sümükdən hazırlanmış qarmaqlar, gildən hazırlanmış toxuculuq aləti və s. qismində təsadüf edilir. Silahlardan - ox ucluqları, bəzək əşyalarından isə - daş qolbağlar və boyunbağılar aşkar olunmuşdur. Bu yaşayış məskənlərində metal məmulatlara az təsadüf olunur. Bunlar tunc qolbağlar, asılqanlar və s.-dən ibarətdir.

Erkən tunc dövründə, demək olar ki, bütün Cənubi Qafqazı, o cümlədən İranın şimal-şərq hissəsini və Şərqi Anadolunu Kür-Araz mədəniyyəti abidələri əhatə edirdi. Şimal və şimal-şərqdə bu mədəniyyətin sərhədləri Dağıstan, Çeçenistan, İnquşetiya və Şimali Osetiyanın bəzi ərazilərinə qədər uzanırdı. Bu ərazilər Kür-Araz mədəniyyəti yaşayış məskənləri əsasında öyrənilmişdi. Daha sıx məskunlaşma Qərbi Azərbaycanda Ağrı dağətəyi düzənliyi, Gürcüstanda Kartli düzənliyi, Azərbaycanda Kür hövzəsi, Dağıstanda Xəzəryanı ərazilərdə müşahidə olunurdu. Bu mədəniyyətin məşhur abidələri Naxçıvandakı I Kültəpənin II təbəqəsi və Mingəçevir kompleksi sayılır. Kür-Araz mədəniyyətinə aid yaşayış məskənləri çayların ətrafında, təbii yolla möhkəmləndirilmiş təpələrdə, əkinçilik və maldarlıq üçün əlverişli olan ərazilərdə salınırdı. Eneolit dövründə olduğu kimi, bu dövrdə də daş özüllü dairəvi evlər də geniş yayılmışdı. Bununla yanaşı, düzbucaqlı daş evlər (Karaz, İmiranis-qora), 60 kvadrat metr sahəyə malik gil və çiy kərpicdən olan oval və düzbucaq formalı evlər də məlumdur. Evlərin mərkəzində diametri 1m-ə bərabər olan gil ocaq yerləri qurulmuşdu. Bu tip ocaq yerləri Kür-Araz mədəniyyətinin əsas atributu sayılır və onlara başqa heç bir yerdə rast gəlinmir.

Bəzi yerlərdə böyük təsərrüfat quyuları aşkar olunmuşdur. Maldarlıq və əkinçilik eneolitlə müqayisədə daha yüksək inkişaf mərhələsində idi. Çoxlu miqdarda dənli bitki qalıqları və buğda üyütmək məqsədilə istifadə olunan dən daşları tapılmışdır.

E.ə. III minillikdən etibarən mal-qara sürüləri mövsümlə əlaqəli düzənlikdən dağa çıxarılırdı ki, bu da dağlıq ərazilərin yaxşı mənimsənilməsinə gətirib çıxarırdı.

Qafqazda tuncişləmə də geniş vüsət almışdı. Məhz bu dövrdə Qafqaz, xüsusilə də Cənubi Qafqaz, metal istehsalının nəhəng mərkəzlərindən birinə çevrilmişdi. Yerli tayfalar dulusçuluğun təkmilləşməsində də nailiyyətlər əldə etmişdilər. Dulus məmulatları daha keyfiyyətli olub müxtəlif formalarda hazırlanırdı. Məs., dar boğazlı alçaq küplər, qulplu saxsı qablar, piyalələr, kasalar və s. Saxsı məmulatı qara rəngdə olub nəfis ornamentli tərtibata malik idi. Spiralşəkilli, relyefli, konsentrik, dairəvi, rombvari təsvirlər, sxematik həkk olunmuş quş və heyvan rəsmləri dövrün geniş yayılmış ornament motivlərindən hesab oluna bilər.

Cənubi Qafqazın bütün rayonlarında Kür-Araz mədəniyyətinə aid qəbir abidə kompleksləri açılmışdır. Qəbir abidələri və dəfnetmə üsulları müxtəlifdir: kurqanlar, dairəvi-oval formalı yeraltı qəbirlər, daş qutular, bükülmüş və böyrü üstə uzadılmış yaxud dizüstə oturdulmuş vəziyyətdə dəfn etmə, ölü yandırma (kremasiya) və s.

Kür-Araz mədəniyyəti e.ə. IV-III minillikdən eramızın III əsrinə qədər mövcud olmuşdur. E.ə. II minillikdə Qafqazın bəzi bölgələrində özünəməxsus xüsusiyyətlərə malik bir neçə arxeoloji mədəniyyətlər yaranmışdır. Şimali Qafqazın Kubandan Qroznıya qədər olan ərazisini Şimali Qafqaz mədəniyyəti əhatə edirdi. Ondan qərbə, Qara Dəniz sahilləri boyu Kuban ərazisində **Kuban ətrafı mədəniyyət** yayılmışdı. Qafqazın Dərbəndə qədər olan şərq hissəsində **Qayakənd-Xoraçay mədəniyyətinin** nümayəndələri olan tayfalar məskən salmışdılar. Mərkəzi Qafqaz isə daha mürəkkəb təsvirə malik idi. Mərkəzi Qafqazda - Kuban mədəniyyəti, Kür ətrafında Samtavr-Kartli daxili mədəniyyəti, ondan şərqə Alazan və İori ərazisində Şərqi Qafqaz, cənubda **Trialeti mədəniyyəti**, Gürcüstanın qərb bölgəsi və Qara dəniz sahillərində Qaqradan Batuma qədər olan ərazidə tunc dövrü **Kolxida mədəniyyəti** mövcud olmuşdu. Şimali Qafqaz mədəniyyətinə aid qəbirlərdə ölülər bükülü, daha sonrakı dövrlərdə isə çuxurlarda düzünə uzadılmış şəkildə dəfn olunmuş, üzəriləri daş lövhələrlə örtülmüşdür. Arxeoloji materiallara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, bu mədəniyyət əkinçi və maldar tayfaların mədəniyyəti olmuşdur. Təsərrüfatda əsasən metalişləmə və metallurgiya başlıca rol oynayırdı. Şimali Qafqaz mədəniyyəti ondan daha əvvəl mövcud olmuş Maykop mədəniyyətinin əsasında meydana gəlmiş və öz inkişafında üç mərhələ keçmişdir: e.ə. II minilliyin əvvəlləri - XVII əsr - mədəniyyətin formalaşma dövrü; e.ə. XVII-XV əsrlər çiçəklənmə mərhələsi; XV-X əsrin sonlarına qədər - tənəzzül. Bu dövr şimal tayfalarının intensiv hücumları ilə də səciyyələnir.

Mərkəzi Qafqaz mədəniyyətinə e.ə. XVI-XIII əsrə və daha sonrakı e.ə. XII əsrə aid abidələr daxil edilir. Mədəniyyətin xarakterik abidələri qəbirlər və çox sayda yaşayış məskənləri hesab olunur.

Əgər erkən tunc dövründə metal əmək alətləri və silahlar azlıq təşkil edirdisə, son tunc dövrünə aid Mərkəzi Qafqaz mədəniyyətində, əksinə, onların sayı çoxdur. E.ə. XVI-XIII əsrlərdə özünəməxsus baltalar, xəncərlər, daş düymələr, tunc boyunbağılar, öküz və qoyun başı formalı alın bəzəkləri, diademalar, spiralşəkilli saç sancaqları və s. geniş yayılmışdır.

Şimali Qafqaz mədəniyyətinin sonrakı mərhələsi Koban mədəniyyəti kimi tanınır. Koban mədəniyyəti tunc dövrünün sonu, erkən dəmir dövrünün əvvəlinə aid edilir. Bu mədəniyyət öz adını Yuxarı Koban kəndində tədqiq olunmuş qəbir abidəsindən almışdır. E.ə. XII-X əsrlərə aid olan bu mədəniyyətin qəbir abidələrindən çoxlu sayda tunc və saxsı qablar əldə olunmuşdur. Əşyalar arasında qulplu küplər, həndəsi ornamentlə bəzədilmiş zoomorf qulplu tunc piyalələr və kasalara təsadüf olunur. Yaşayış məskənindən tapılmış at əsləhəsi, boyunduruq və s. kimi atçılığa aid əşyalar tapılmışdır. Bu da son tunc dövründə atdan minik vasitəsi kimi geniş istifadə olunmasını sübut edir. Əldə olunan bəzəklər də çoxsaylı və müxtəlifdir: tunc fibula - insan fiqurları, ceyran, maral, at və qaban fiqurları ilə bəzədilmiş boyunbağılar, sancaqlar və s.

Tuncun işlənməsi yüksək səviyyəyə çatmışdı. Koban tuncu öz yüksək texniki keyfiyyətləri və tərkibindəki mərgümüşün yüksək səviyyəsi ilə fərqlənirdi. Qədim ustalar bərk və mum tökmə modellərin hazırlanma üsulunu bilir, tökmə, döymə, inkrustirasiya üsullarını tətbiq edirdilər. Koban mədəniyyətini bizə miras qoymuş əhali oturaq maldarlıqla və çay vadisində əkinçiliklə məşğul olurdu.

E.ə. II minillikdə tunc dövrünün özünəməxsus parlaq mədəniyyəti Mərkəzi və Cənubi Qafqazda meydana gəlmişdi. Onun ən önəmli abidələri Gürcüstan ərazisindəki Trialeti vadisində yerləşir. Əhəmiyyətli abidələrin yerinə uyğun olaraq o, **Trialeti mədəniyyəti** adlandırılır. Qəbir abidəsinin əksəriyyətini sadə inventarlı toplu qəbirlər təşkil edir. Buradakı ölülər gil meydançaların üzərində dəfn edib, üzərində ağır daşlardan kurqanlar ucaldılmışdır. Kurqanların bəzilərində 8 m dərinliyi və sahəsi 8x14 m olan qəbir kameraları vardır. Kameranın döşəməsi qamışla döşənib, divarlarına daş piltələr quraşdırılmışdı. Kameraya aparan yolda xüsusi dəhlizlər inşa edilirdi ki, bu dəhlizlə meyidi daşıyan araba və onunla birlikdə dəfndə istifadə olunacaq əşyalar aparılırdı. Dəfn mərasimləri təntənəli surətdə qeyd olunurdu. Kurqanların birindən tamamilə ağacdan hazırlanmış dörd təkərli araba aşkar olunmuşdu. Dövrünə görə kameraya ölü ilə bərabər öldürülmüş heyvanlar (öküz, donuz), metal əşyalar, tunc silah, mis qazan, gümüş və qızıl bəzək əşyaları da qoyurdular. Həmçinin abidədən əldə olunan qiymətli

daşlarla bəzədilmiş fiqurlu kubok tipli qablar da maraqlıdır. Kuboklar bütöv gümüş parçasından yonulmuş və üzərində iki haşiyə ilə bəzədilmiş müxtəlif təsvirlər həkk olunmuşdur. Birinci üst haşiyə zolağında əllərində fincan tutmuş, uzun əba geyinmiş (xiton) və iki canavar quyruqlu məxluqun bir-birinin ardınca getməsi ayini təsvir olunmuşdur. Ayin icraçıları ağaca doğru yönəlmişlər. Ağacın altında qurbangah qarşısında qurulmuş taxtda eyni görünüşlü antrozoomorf məxluq əyləşmişlər. Təsvirin aşağı haşiyə zolağında bir-birini təkrarlayan iki ceyran təsviri də vardır. Bu mədəniyyətə aid gümüş düymələrin qızılı başlıqları, iri qızıl muncuqlar, boyunbağılar, heyvanların qızıldan tökmə fiqurları nəfis tərtibata malikdirlər. Kurqanda ehtimal ki, varlı şəxs dəfn olunmuşdur. Ümumilikdə, bu mədəniyyət tuncdan hazırlanmış əyri uclu xəncərlər, üçkünc başlıqlı nizələrlə səciyyələnir. Dövrə aid silahların hazırlanması zərgər dəqiqliyi ilə yerinə yetirilmişdir. Gil qablar arasında qara rəngli boya ilə işlənmiş parlaq ornamentə malik boyalı küplər qırmızımtıl rəngi ilə seçilir.

Onların üzərini bəzəyən qara naxışlar, aşağıya yönəlmiş üçbucaqlarla ziq-zaq formasında həkk olunmuşdur. Küplərin üzərində, həmçinin quş təsvirləri, spiralvari xətlər və naxış ünsürlərinə də təsadüf olunur.

## 2. Eneolitin sonu - tunc dövründə Qafqazdakı etnomədəni proseslər

Coğrafiyaşünasların mülahizələrinə görə, Qafqaz Asiyada yerləşir. Ancaq mədəni və siyasi əlaqələrinə əsaslanaraq Qafqazın bir hissəsi, hətta bütün Qafqaz ərazisi Avropaya aid edilir. Bu cür hal təsadüfi deyil. Belə ki, burada iki dünya Yaxın Şərq və Şərqi Avropa mədəniyyətləri toqquşur. Qafqazın coğrafi mövqeyi Yaxın Şərq və Şərqi Avropanın kəsişməsində çoxsaylı etno-mədəni əlaqələrin yaranmasına təkan vermiş, qeyri-bərabər xronoloji ərazi mənimsənilməsinə və ərazisində mürəkkəb etno-mədəni proseslərin getməsinə gətirib çıxarmışdır.

Beləliklə, Cənubi Qafqazın arxeoloji materiallarına əsasən, o cümlədən yeni abidələrin də tədqiqini əlavə etməklə, eneolit və tunc dövrü etno-mədəni dəyişikliklərini izləmək mümkündür.

E.ə. VI minilliyin I yarısından - e.ə. IV minilliyin I yarısına qədər Cənubi Qafqazın mərkəzində Şomutəpə və Kültəpə etnomədəniyyətləri meydana gəlmişdir. Qərbi və Şimal-Şərqi Qafqazda bu mərhələ təsərrüfat əsaslı Neolit mədəniyyəti şəklində təzahür edir. Burada Şomutəpə mədəniyyəti daha böyük maraq doğurur.10 m qalınlığındakı mədəni təbəqə oturaq əhalinin mədəniyyət qalıqları ilə xarakterizə olunur. E.ə. V minilliyin sonu IV minilliyin əvvəlləri Cənubi Qafqazın erkən eneolit oturaq əkinçilik mədəniyyəti - Şomutəpə böhran keçirir. Güman ki, buna səbəb iqlim dəyişməsi nəticəsində şomutəpəlilərin adət etdikləri təsərrüfat ənənələrinə və

yaşayış mühitinə vurulan zərər olmuşdur. Onların ənənəvi təsərrüfat idarəetmə metodları yeni geoiqlim şəraitinə texniki potensialın yoxluğundan uyğunlaşa bilmirdi. Bununla yanaşı, cənub və qərb qonşuları tərəfindən olan təzyiqləri də inkar etmək olmaz. Mədəniyyətin sonrakı abidələrində də bu tayfaların izlərinə rast gəlmək mümkündür. E.ə. IV minilliyin əvvəlləri Qafqazın cənubunda yaranmış yeni etno-mədəni cərəyanın elementləri yaranır. Bu, daha çox Qarabağ yaylasında yerləşən Leylatəpə mədəniyyət abidələrində izlənilir. Mədəniyyəti səciyyələndirən əsas amillər tərkibində heç bir qarışığı olmayan çiy kərpicdən tikilmiş düzbucaqlı formalı evlər, oturaq əkinçilik, yüksək texnologiyalı sənətkarlıq, keyfiyyətli açıq rəngli, saf və bitki tərkibli gildən bişirilmiş saxsı qablar, dulus çarxı, metallurgiyanın inkişafı, yaşayış məskənində ölülərin saxsı küplərdə basdırılması hesab olunur. Bu mədəniyyətə aid adətlər qısa müddət mövcud olmuşdur. Buna baxmayaraq belə adətlər Cənubi Qafqaz və Dağıstanın yüksəkliklərinə qədər yayılmışdı və ona bu ərazilərdə tunc dövrü son eneolit mədəniyyəti elementləri ilə qarışıq şəkildə rast gəlinir. E.ə. IV minilliyin III rübündə demək olar ki, bütün son eneolit mədəniyyəti ənənələri Cənubi Qafqazın tarix arenasından silinir. Leylatəpə mədəniyyətinin elementləri, Şimali Qafqaza yönəlmiş, yeni və daha mürəkkəb etnomədəniyyətin - Maykop mədəniyyətinin meydana gəlməsinə təkan vermişdir. Bununla da eneolit dövrü başa çatmışdır. Cənubi Qafqazda ilk etno-mədəni dövrləşmə e.ə. XI minilliyin ortalarından - e.ə. IV minilliyin ortalarına qədər davam etmişdir.

Tunc dövrü tarixi inkişafın 2,5 min ilini əhatə edir: e.ə. IV mınilliyin II yarısı - I minilliyin əvvəllərinə qədər. Bu zaman Cənubi Qafqazda yeni etno-mədəni cərəyan, Kür-Araz fenomeni meydana gəlir. E.ə. II minilliyin II yarısı Kür-Araz mədəniyyəti böhran keçirir, tarix səhnəsindən silinir və onun yayıldığı ərazilərdə köçəri maldarların bir sıra kiçik bölgə xarakterli mədəniyyətləri formalaşır və orta tunc dövrünün başlanğıcının əsasını qoyur. Bu zaman yerli əhali etno-mədəni təzyiqlərə məruz qalır. Avrasiya məkanında yaşayan və köçəri-əkinçi mədəniyyətin daşıyıcıları olan maldar tayfalar Qafqaz keçidi ilə bu ərazilərə daxil olmuşlar. Onlar Göyçə gölünün qərbində, Kür-Araz ovalığında e.ə. III-II minillikdən e.ə. XVIII əsrə qədər mövcud olmuş Təzəkənd mədəniyyətinin yaradıcıları hesab olunurdular. Bu mədəniyyət əsas etibarilə enli ornamental fiqurlarla bəzədilmiş boyalı küplər və siklopik tikililərlə səciyyələnir. Lakin əsas xarakterik göstəricisi üzərinə qırmızı anqob çəkilmiş qara rəngli enli ornamental tərtibata malik qab-qacaqdır. Cənubi Qafqazın cənubla sıx əlaqələrinin olmasını e.ə II minilliyin əvvəllərində mövcud olmuş Koban (Şimali Osetiya) mədəniyyət abidələri sübut edir. Bu mədəniyyətin yayılma arealı Naxçıvan və Şimal-Qərbi İran ərazisi hesab olunur. Bu abidələrə yaşayış məskənləri və qəbirlər aiddir. Dəfn daş qutularda və torpaq qəbirlərdə icra olunur. Bu mədəniyyətin əsas

göstəricisi - saxsı qablar və bədii tərtibatlı tunc əşyalardır. Onların üzəri qırmızı anqobla örtülərək üzəri qırmızı və qara rəngli həndəsi fiqurlar, müxtəlif süjetə malik səhnələr, çarpaz və üçbucaq naxışlarla bəzədilmişdir.

Növbəti mərhələdə Kiçik və Ön Asiyanın genetik təsirini qabarıq şəkildə özündə biruzə verən Üzərliktəpə (Üzərliktəpə, e.ə. XVIII-XVII əsrlər) mədəniyyəti geniş vüsət alır və Təzəkənd mədəniyyətini əvəz edir. Bu mədəniyyətin səciyyəvi tapıntıları dağlıq və dağətəyi ərazilərdə salınmış, istehkam divarları ilə əhatə olunmuş yaşayış məskənləri, daşdan və çiy kərpicdən inşa edilmiş evlər, ellips formalı, yüksək divarlı gil sobalar, kurqanlar, torpaq qəbirlər, qırmızı anqob çəkilmiş saxsı küplər, metallurgiya məmulatlardır.

Beləliklə, tunc dövrünün sonunda Qafqazda yerli əhalinin etno-mədəni məskunlaşma prosesi başa çatır.

**İlk tunc dövrü qəbirləri.** İlk Tunc dövrünə aid qəbir abidələri Azərbaycanda - Mingəçevir, Qəbələ rayonlarında, Vardanlıda, Xaçbulaqda, Xankəndində, Gəncə və Xanlar zonalarında, Gürcüstan və Qərbi Azərbaycan (indiki Ermənistanda) öyrənilmişdir.

Mingəçevirdə üzə çıxarılan sadə torpaq qəbirlərdə skeletlər bükülü vəziyyətdə, müxtəlif istiqamətlərdə müşahidə olunur. Hər qəbirdə mərhumun baş tərəfinə bir gil qab qoyulmuşdur. Xaçbulaqda isə daş örtüklü kurqanlara təsadüf olunmuşdur. Kurqanların altında dördkünc, planlı, küncləri yarımoval vəziyyətdə düzəldilmiş qəbirlər yerləşir. Bu qəbirlərdə olan skeletlər arxası üstə, oynaqlardan bükülü formada, başı qərbə doğrudur. Belə qəbirlərdə, adətən, qara rəngli üçqulp qablara daha çox təsadüf olunur. Qəbirlərdən həmçinin qızıl, gümüş və tuncdan hazırlanmış bəzək əşyaları da tapılmışdır. Maraqlıdır ki, bu dövrdə, Azərbaycanın bir çox yerlərində ölü yandırma adəti də mövcud olmuşdur.

Nəhayət, bu abidələrdə tək qəbirlərlə yanaşı, kurqanlarda kollektiv dəfn adətinə də təsadüf olunmuşdur.

**Orta tunc dövrü qəbir abidələri.** Orta tunc dövrünə aid qəbir abidələri əsasən Xaçbulaqda, Muğanda, Quruçay və Köndələnçay vadisində, Qobustanda, Naxçıvanda, Gəncə-Qazax zonasında və digər ərazilərdə qeydə alınmış və qismən tədqiq edilmişdir. Orta tunc dövrü üçün torpaq, daş qutu qəbir abidələri və kurqanlar səciyyəvidir.

Kurqanlar torpaq və daşdan tökülmüşdür. Kurqanaltı qəbirlər əsasən dördkünc planda olmuş, dəfnetmə isə bükülü vəziyyətdə yerinə yetirilmişdir.

**Son tunc - ilk dəmir dövrü qəbir abidələri.** Son tunc və ilk dəmir dövrünün qəbir abidələri Cənubi Qafqazda nisbətən geniş tədqiq edilmişdir. Zəngin avadanlığa, müxtəlif tikinti formalarına malik qəbir abidələri dövrün ictimai təbəqələşmə prosesini, onun mənəvi aləmini və iqtisadiyyatını öyrənmək üçün çox mühüm mənbələrdir. Bu dövrün dəfn abidələri müxtəlif

ölçülü və formalı kurqanlar, daş qutular və həmçinin kromlexli daş qutular, sadə torpaq qəbirlərdir.

Qafqazda, o cümlədən Azərbaycan ərazisində torpaqdan, daşdan, həmçinin bunların qarışığından tökülmüş kurqanlara təsadüf olunmuşdur. Kurqan altında qəbirlər ya torpaqda qazılmış, ya iri daşlardan və yaxud da ağac tirlərdən düzəldilmişdir.

Kurqanlarda kollektiv və tək dəfn adətinə təsadüf olunmuşdur. Azərbaycanın dağlıq və dağətəyi rayonlarında geniş yayılmış daş qutu qəbirlər əksər hallarda kurqanlarla eyni dövrə aid edilir. Adətən, torpaqda qazılan bu qəbirlərin yan tərəfləri və üstü sal daşlarla örtülür və qəbirin döşəmə hissəsinə xırda daşlar düzülürdü.

Son Tunc və İlk Dəmir dövründə Azərbaycanın düzən rayonlarında sadə torpaq qəbirləri daha geniş yayılmışdır. Yalnız tikinti materialları ilə fərqlənən bu qəbirlərdə dəfn adəti dəyişilməmişdir.

Son Tunc dövrünə aid qəbir abidələrinin bir qisminin ətrafı kromlexlərlə əhatələnmişdir. Belə qəbir abidələri Naxçıvanda, Qarabağda, Abşeronda, Qobustanda və Talış zonasında izlənilir. Şahtaxtı yaxınlığında tədqiq olunmuş daş qutulardan birinin kromlexinin diametri 7,7 m-dir, kamerasının uzunluğu isə 4,3 m-dir. Qəbirdən 30 gil qab, at skeleti və bəzək əşyası tapılmışdır.

Qəbir tiplərinin dördündə də bir sıra ümumi cəhətlər müəyyənləşdirilmişdir. Skeletlərin hamısı bükülü vəziyyətdə sağ və ya sol böyrü və yaxud arxası üstə müşahidə olunmuşdur. Bəzi qəbirlərdə mərhumu oturmuş, yaxud bədən hissələri parçalanmış halda (müxtəlif istiqamətlərdə) dəfn etmişlər. Qəbirlərdə ölüləri yandırıb dəfn etmək adətinə də təsadüf olunmuşdur.

Beləliklə, tunc dövründə Qafqazda çox mühüm dəyişikliklər baş vermişdir. Yuxarıda göstərilən və analiz edilən maddi mədəniyyət qalıqları bu fikirləri bir daha sübut edir.

# VII FƏSİL

# QAFQAZIN DƏMİR DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ

## 1. Qafqazda dəmir dövrünə aid arxeoloji abidələrin xüsusiyyətləri

1. İstehsal təsərrüfatına güclü təkan vermiş, insanın əldə etdiyi ən böyük nailiyyətlərdən biri dəmirin əldə olunması və ondan əmək alətlərinin, silahların hazırlanma üsulunun öyrənilməsidir. Bəzi alimlər belə hesab edirlər ki, ilk metal məmulatları tərkibində yüksək miqdarda nikel olan dəmir meteorit mənşəlidir. Ancaq demək olar ki, eyni vaxtda yerdən çıxarılmış dəmirdən də məmulatlar hazırlanmağa başlanmışdır. Hazırda belə bir fikir var ki, mədənlərdən dəmirin çıxarılması üsulu ilk dəfə Kiçik Asiyada tətbiq olunmuşdur. E.ə. XXI əsrə aid edilən Alaca-Huyuk abidəsindən tapılmış dəmir xəncərin son metodlarla analizi göstərmişdir ki, o (sırodut) dəmirdən hazırlanmışdır. Arxeoloji tapıntılara əsaslanaraq dəmirdən istifadə ilə dəmir dövrünün, yəni dəmirdən kütləvi halda geniş istifadə olunmağa başlanması arasında kiçik bir zaman fərqi olduğunu söyləmək olar.

Qafqazda dəmir e.ə. X əsrdə istifadə olunmağa başlanmışdır. Dəmir istehsalına keçidin əsas səbəbi mis mədənlərinin artıq tükənməsi, metal məmulatlara olan tələbatın daha da artması, həmçinin təbiətdə dəmir yataqlarına daha çox təsadüf olunmasıdır. Nəzərə alınmalıdır ki, tunc dövründən dəmir dövrünə keçid birdən-birə olmamışdır. Hələ tunc dövrünün sonlarında artıq xüsusi süni üfürmə yerləri yaradılır və metalın yeni işlənmə üsulundan istifadə olunurdu. Dəmirdən əmək alətlərinin hazırlanması maddi təsərrüfat sahəsində texniki inqilaba təkan verdi. Dəmir insanın istehsalat imkanlarını xeyli artırmış oldu. Onun geniş yayılması sənətkarlığın inkişafına şərait yaratdı. Dəmir əmək alətlərini əritmə üsulu ilə alındığından dəmirçilik ön plana çəkilirdi. Cəmiyyəti silah və əmək alətləri ilə təmin edən dəmirçiliyin bu cür geniş yayılması nəticəsində ağac, sümük, dəri və rəngli metalların işlənməsində yeni nailiyyətlər əldə olundu. Dəmirin istifadəsi döyüşçülərin əlinə daha möhkəm və mükəmməl silah - dəmir xəncərlər, müxtəlif ox ucluqları və uzun kəsici qılınclar verdi. Yeni metalın mənimsənilməsi cəmiyyətin sosial strukturunda da dəyişikliklərə gətirib çıxardı. Əmək prosesində dəmirçilər və sənətkarlar bir-birindən ayrıldı. Bu mübadilənin inkişafına və dolayısıyla da mülki bərabərsizliyin yaranmasına, ilkin icmadaxili münasibətlərin meydana gəlməsinə təkan verdi.

Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən biri də Gədəbəy rayonunda **Qalakənd** abidəsidir. 1888-1891-ci illərdə Virxovun tapşırığı ilə «Siemens» firmasının misəritmə zavodunda kimyaçı və elektrotexnik kimi

çalışan Valdemar Belk Gədəbəydə (Cənubi Qafqazın Yelizavetpol quberniyası), əsasən zavodun ətrafında və onun Qalakənddəki filialı ərazisində (Qalakənd, Cənnət qalası, Göydəyə abidələrində) külli miqdarda (274) qəbir abidəsi açmışdır. Qəbir abidələrinin hamısı son tunc, ilk dəmir dövrünə aid edilmişdir.

Belk özünün arxeoloji tədqiqatları ilə bağlı olan fəaliyyətinin qısa nəticələri haqqında məruzələr etmişdir. Məruzələrinin birində o, qeyd edirdi: «Mənim Gədəbəydə aşkar etdiyim qəbirlərin forması demək olar ki, hamısı eyni «daş qutu qəbir» tipinə aid olub, müxtəlif ölçülərdədir. Onların uzunluğu 1 m 40 sm-dən 5 m 50 sm-dək, eni 0,60 m-dən 2,80 m-ə, dərinliyi 0,40 m-dən 3,1 m-dək, qəbrin içərisindəki daşların həcmi isə 0,4 $m^3$-dən 45 $m^3$-dəkdir. Yan divarlar, həmçinin qəbir örtükləri bir və ya bir neçə yonulmuş sal daşdan ibarət olub, çəkiləri 8-10 min kq, bəzən isə daha çoxdur. Xüsusi qeyd etmək lazımdır ki, qəbirlər səmtlərə görə müxtəlif istiqamətlidirlər.

«Mənim cənab Virxova göndərdiyim arxeoloji tapıntılar içərisində olan tunc əşyalar - çox tez-tez təsadüf olunan kəmər başlıqları və s. xüsusi maraq doğurur. Kəmər başlıqları bu ərazi üçün xarakterik olan orijinal quruluşa malikdirlər».

Tamamilə aydındır ki, burada yüksək inkişaf etmiş istehsal mövcud olmuşdur ki, bu da zəngin əşyalar hazırlamağa imkan vermişdir.

Buradan toplanan kolleksiya (kəmərlər, bəzək əşyaları, muncuqlar, tunc xəncərlər və qılınclar, ox və nizə ucluqları, toppuzlar, əsa başlıqları, qara və boz rəngli cilalanmış qablar və s.) digər orijinal və nadir tapıntılarla da kifayət qədər zəngindir, metal əşyalar tuncdan, misdən, gümüşdən və hətta xalis sinkdən hazırlanmışdır.

2. E.ə. I minilliyin ortalarında erkən dəmir dövründə Ukraynanın çöllərindən Baykal gölü ətrafındakı ərazisinə qədər **Skif-sarmat** adı altında tanınan **mədəniyyət** yayılmışdı. Bu mədəniyyətin yaradıcısı olan bir neçə xalqın adı dəqiq məlumdur. Bunlar skiflər, savromatlar, saklardır. Digər tayfaların adları isə yalnız dini və maddi mədəniyyət abidələri əsasında müəyyənləşdirilir. Bu mədəniyyətləri birləşdirən əşyalar üç qrupa bölünür - silahlar, atçılıqla bağlı əşyalar və sənətkarlıq məmulatları. Müəyyən olunmuşdur ki, çöllərin geniş ərazilərində skif silahları formasına yaxın olan silahlar yayılmışdı - tuncdan akinakilər, çoxsaylı üçkünc yarpaqşəkilli nizə ucluqları və s. Əlavə etmək lazımdır ki, tunc, yaxud qızıldan hazırlanmış eyni formalı budaq şəkilli buynuzları olan azca bükülmüş ayaqlı maral heykəlcikləri skif qazanı adı ilə tanınan tuncdan tökmə üfüqi qulplu qazanlar da bu dövrdə geniş yayılmışdı.

Dövrə aid maddi və dini mədəniyyətləri birləşdirən digər ümumi cəhətləri də sadalamaq olar - geniş həcmli qəbir kameraları, bəzək əşyaları, müqəddəs odun yandırılması üçün qurbangahlar və s.

Arxeoloji materiallar yalnız Avrasiya çöllərində, qədim sivilizasiyaların Qədim Yunanıstan, Əhəməni-Fars imperiyasının, daha sonra isə ellin mədəniyyətinin şərq sərhədlərində yayılmış tarixi hadisələri özündə əks etdirir. Yeni mədəniyyət digərlərindən öz təsərrüfat, mədəni-tarixi, hətta ideoloji istiqamətləri ilə kəskin fərqlənən bir dünya idi. Mədəni-tarixi birlik bir sıra faktorların bazasında yaranmışdır. Bu işdə Avrasiya çöllərində maldarlıq təsərrüfatı sahəsində daha əvvəl əldə olunmuş nailiyyətlər, həmçinin eneolit dövründən formalaşmış iqtisadi və mədəni əlaqələr əhəmiyyətli rol oynamışdır. İqtisadi inkişaf və çöllər, çay vadilərinin əkinçilik və maldarlıq sahəsində rasional istifadəsi Qafqazın sıx məskunlaşmasına səbəb olmuşdur. Vacib amillərdən biri də erkən dəmir dövründə skif-sarmat mədəniyyətində ümumi ayinlər və xarakterik cəhətlərin müşahidə olunmasıdır. Müqəddəs heyvan ayini, günəş ayini, müqəddəs od ətrafında günəş Allahı ayini, təbiət ayini və s. Bu ayinləri incəsənət məmulatları - uçan maral fiqurları, göy cisimlərinin təsviri olan sancaqlar, müqəddəs odun yandırıldığı məbədgahlar özündə əks etdirir.

Nəzərə alınmalıdır ki, erkən dəmir dövründə bütün Avrasiya çöllərində yalnız istehsalat və mədəniyyət baxımından yaxın olan deyil, həmçinin eyni avropoid irqinə mənsub qədim hind-ari tayfaları məskunlaşmışdılar. Avrasiya çöllərində yaşayan qədim tayfa və xalqların yüksək mədəniyyətləri qarşılıqlı etno-mədəni və siyasi əlaqələrin fonunda inkişaf etdirilirdi. Bu proseslərdə qədim dünyanın inkişaf etmiş ölkələri - Yunanıstan, daha sonra Qərbdə Roma və Şərqdə Əhəməni imperiyası aktiv iştirak edirdi.

Skiflərə aid olan mədəniyyət 800 il mövcud olmuş və tarixin bütöv bir mərhələsini təşkil etmişdir. Bu aləm daxilində yüksək maddi və mədəni dəyərlər yaradılmışdır.

Skiflərin adlarına hələ e.ə.VII əsrin I yarısına aid aşşur yazılarında da rast gəlinir. Onların Cənubi Qafqazdakı Qara dəniz yolu ilə Ön Asiyaya köç etmələri qeyd olunur. Məlumdur ki, onlar 28 il müddətində Midiyada hökmranlıq etmiş, Nineviyaya basqında, Urartu dövlətinin süquta uğradılmasında iştirak etmişdilər. E.ə. VII əsrin sonlarında skiflər Qara dəniz ətrafına geri dönmüş və yerli tayfaları özlərinə tabe etdirmişdilər.

Skif arxeoloji abidələrinə maraq çoxdan olsa da, 1918-ci ilə qədər arxeoloqlar əsasən skif mədəniyyətinə aid kurqanları araşdırırdı. İlk kurqan 1763-cü ildə A.İ.Melqunov tərəfindən Kirovoqrad ətrafında tapılmışdır. Skif şəhərlərinin qazıntıları XX əsrdə başlamışdır.

Azərbaycan ərazisində e.ə. I minilliyin I yarısında bir neçə tayfa ittifaqı mövcud olmuşdur. Aşkar olunmuş abidələr iki tipə ayrılır: istehkamlarla möhkəmləndirilmiş və möhkəmləndirilməmiş. Möhkəmləndirilmiş yaşayış məskənləri - siklopik tikililər Kiçik Qafqaz və

Naxçıvan ərazisində geniş yayılmışdır. Siklopik tikililər yaşayış məskənlərinin istehkam divarlarıdır. Məsələn, Mağara-dağ, Xanlar yaşayış məskəni və s. İstehkamlarla möhkəmləndirilməmiş yaşayış məskənləri Mingəçevirdə, Qazax rayonu ərazisindəki Sarıtəpə, Qazaxbəyli, Töyrətəpə və Şomutəpənin üst təbəqələrində, həmçinin Xanlar, Naxçıvan, Fizuli, Abşeron bölgələrində aşkar olunmuşdur. Arxeoloji araşdırmalar zamanı müxtəlif formalı evlər, təsərrüfat tikililəri, həyətlər və s. tədqiq olunmuşdur. Dövrünə görə evlər həm yarımqazmalar, həm də yerüstü tikililər şəklində inşa edilirdi. Onlar əsasən düzbucaqlı formaya malikdirlər. Qaratəpə yaşayış yerinin aşağı qatlarından çoxotaqlı ev aşkar olunmuşdur. Ehtimal ki, bu ev icmanın başçısına aid olmuşdur. Mingəçevirdən tapılmış tunc baltalar, toppuzlar hazırlamaq üçün daş qəliblər isə həmin dövrdə sənətkarlığın inkişaf dərəcəsi barədə məlumat verən önəmli tapıntılardır. Bu dövrdə dulusçuluq sənətinin də yüksək inkişaf mərhələsində olduğu şübhə doğurmur. Mingəçevir ərazisində e.ə. I minilliyə aid edilən dulus sobaları buna misal ola bilər. Məhsuldarlığın keyfiyyətini abidədən əldə olunan toxuculuq alətlərinin qalıqları, gil iynələr və s. göstərir. Mingəçevir ərazisində toxuculuğun məhsulu olan yun və pambıq parça qalıqları da tapılmışdır. Arxeoloji materiallar digər ölkələrlə sıx iqtisadi əlaqələrin olduğunu bildirir. Bu materiallara əsasən söyləmək olar ki, həmin dövrdə Ön Asiya ilə olan əlaqələr daha önəmli rol oynamışdır. Əldə olunan bəzi əşyalar bu dövrdə əsasən uzaq ölkələrdən - Misirdən, Fələstindən, Hindistandan, Assuriyadan gətirilirdi.

Dəmir dövründə əmək alətlərinin hazırlanmasında dəmir, tunc, daş və sümükdən istifadə olunurdu. Dəmirdən oraq, bıçaq, qayçı, ağacişləmədə istifadə olunan mişar-baltalar hazırlanırdı. Silahlardan qılınc və xəncərlər əsasən tuncdan hazırlanırdı. Qılınclar çox uzun (72-75 sm) olub, üzərində keçi, ilan təsvirləri həkk olunur, nadir hallarda inkrustasiya yolu ilə daşlarla bəzədilirdi. Azərbaycan tayfalarının silahlanmasında əsas yeri tuncdan hazırlanmış tunc və dəmir ucluqları olan ağac nizələr və dəmirdən hazırlanmış xəncərlər tuturdu. Abidələrdən çoxlu sayda ox ucluqları da aşkar olunmuşdur. Onlar əsasən iki növdə tapılıb - Cənubi Qafqaz və skif tipli ox ucluqları. Cənubi Qafqaz tipli ox ucluqları - üçbucaq formalı, kəskin batıq uclu, skif tipli isə üçkünc, kəskin ucluqludurlar. Onlardan e.ə. II minilliyin sonlarından I minilliyin ortalarına qədər istifadə olunmuşdur. Gil qablar əsasən dulus çarxlarında, nadir hallarda isə əldə hazırlanırdı. Qablar qara və tünd qəhvəyi rənglidirlər. Onlar ornamentlərin həkk olunması üsuluna görə iki qrupa bölünürlər - üzərində ağ naxışlar (anqob) olan və üzərində cızma ornament olan tünd rəngli gil qablar. Bu dövrdə qab-qacaq təkcə gildən hazırlanmırdı, bəzən qabların hazırlanmasında daşdan da istifadə olunurdu. Abidələrdə daş qabların aşağıdakı formalarına təsadüf olunmuşdu: kiçik kasa

formalı qapaqlı qablar, spiral ornamentli, ayaqlı vazlar, zoomorf formalı qulpları olan dayaz boşqablar və s. Bəzək əşyaları əsasən tuncdan, sürmədən və yarıqiymətli daşlardan hazırlanırdı. Geniş yayılmış bəzək əşyalar nahamar səthli bütöv tuncdan tökmə qolbağlar idi. Asma və üzüklər tuncdan hazırlanırdı. Onlar metal boyunbağılarla birlikdə istifadə olunurdu. Başlıca qəbirlər - kurqanlar, daş qutular və yeraltı qəbirlər hesab olunur. Kurqanlar Mingəçevirdə, Gədəbəydə, Xocalıda və s. yerlərdə tədqiq edilmişdir. Bu dövrdə tətbiqi incəsənət də yüksək inkişaf mərhələsində idi. Sənətin ən parlaq nümunələri tunc kəmərlər hesab oluna bilər. Tətbiqi incəsənətin unikal nümunələrindən heyvan və bitki təsvirli zoomorf və antropomorf saxsı qabları da göstərmək olar.

Azərbaycan ərazisində dəmir dövrünün yaşayış yerləri, qəbir abidələri yaxşı öyrənilmişdir. Bu dövrün ən möhtəşəm yaşayış yerləri Qazax rayonu ərazisindəki Sarıtəpə, Baba Dərviş, Mil düzündəki Qaratəpə, Cəlilabaddakı Uzuntəpə və başqalarıdır.

Bu baxımdan, XX əsrin 50-ci illərində tədqiqinə başlanmış Beyləqan rayonu ərazisindəki Qaratəpə yaşayış yeri olduqca maraqlıdır. Hündürlüyü 14 m olan bu abidə 2 hektara yaxın sahəni əhatə edir. Abidənin altdan I təbəqəsi e.ə. VII-VI əsrləri, II təbəqəsi isə e.ə. V-I əsrləri əhatə edir. II təbəqədən çiy kərpicdən hörülmüş dördkünc bina qalıqları üzə çıxarılmışdır. Üst hissəsi uçub tökülmüş, alt hissəsi isə 36x36x14 sm biçimli kərpicdən hörülmüş binanın şimal-qərb divarının dibində ocaq yeri aşkar olunmuşdur.

Ocağın ətrafında gildən hazırlanmış qalın manqal qalıqlarına təsadüf olunmuşdur. II təbəqədən xeyli dən daşları (əsasən qayıqvari formada), gil qablar, iri və xırda küplər, camlar, kasalar və s. tapılmışdır. Bu qabların əksəriyyəti qara və boz rəngdədir. Bir hissəsi cilalanmış və üzəri naxışlanmış, bəzisi isə qırmızı və açıq çəhrayıdırlar.

II təbəqədən əldə olunan, üzərində yanma qoyun başı əks edilən bəzəkli qablar, heyvan sümükləri, qoyun kəlləsi və nehrələr Mil düzündə antik dövrdə maldarlığın yüksək inkişafını göstərir.

Qaratəpənin ən qədim təbəqəsindən çiy kərpicdən tikilmiş bina qalığı, ocaq yerləri, toxuculuq alətləri, dən daşı və s. aşkar olunmuşdur. Qaratəpə e.ə. I minilliyə aid olan çox qiymətli abidədir.

Mil düzündə Qaratəpə abidəsi ilə həmdövr olan, eyni zamanda Qaratəpədən fərqlənməyən xeyli abidə də qeydə alınmış, lakin hələlik onlarda əsaslı tədqiqat işləri aparılmamışdır.

Azərbaycanın qərb zonasındakı dəmir dövrünə aid ən möhtəşəm abidələrdən biri də **Sarıtəpədir.** Abidə 100 m diametrində və 10 m hündürlüyündə olan bir təpədən ibarətdir. Sarıtəpə yaşayış yeri Tunc dövrünün sonu, Dəmir dövrünün əvvəllərində meydana gəlmiş və e.ə. I minilliyin sonunadək davam etmişdir.

Sarıtəpədə aşkar olunan ev saray tipli tikili hesab olunur. Yaşayış məskəninin qalıqlarına əsasən binanın ilkin planını bərpa etmək mümkün olmuşdur. Daxili hissədə ümumi sahəsi 300 $km^2$ olan böyük zal, zalda «Persopol» (İran) üslubunda dirəklər vardı. Kompleks e.ə. I minilliyə aid hesab olunur və ona ən yaxın olan analoji arxeoloji abidələr İran-Əhəməni imperiyası abidələridir. E.ə. I minilliyin I yarısı Azərbaycan ərazisində sənətkarlıq, xüsusilə də metallurgiya və metalişləmə inkişaf etmişdir. Təəssüflər olsun ki, sənətkarlıq texnikası və inkişaf səviyyəsi haqqında yalnız dövrə aid tapılmış əşyalara əsaslanaraq məlumat vermək mümkündür. Çünki sənətkarlıq emalatxanaları hələ arxeoloqlar tərəfindən aşkar edilib, tədqiq olunmamışdır.

Tədqiqatçılar müəyyən etmişlər ki, e.ə. VII əsrdə Sarıtəpədə güclü yanğın baş vermişdir. Yanğından əmələ gəlmiş kül qatından ibarət təbəqənin qalınlığı 0,7 m-ə çatır. Həmin təbəqədən aşkar olunmuş yerüstü binaların inşasında çay daşlarından, saman qarışıqlı palçıqdan, həmçinin ağacdan geniş istifadə olunmuşdur. Binanın divarları və döşəmələri saman qarışıqlı gillə suvanmışdır. Arxeoloji qazıntılar zamanı Sarıtəpədən xeyli təsərrüfat və dini xarakterli binaların qalıqları aşkar olunmuşdur. Öyrənilmişdir ki, bu abidələr öz xarakterləri baxımından bir ailə və ya kiçik bir kollektivə aid deyil, böyük icmaya məxsus olmuşdur. Elə buna əsaslanaraq tədqiqatçılar Sarıtəpəni böyük tayfa ittifaqlarından birinin mərkəzi hesab edirlər.

Sarıtəpə bina qalıqlarının birinin şimal divarları yaxınlığında 14 ədəd təsərrüfat küpü aşkara çıxarılmışdır. Küplərdə taxıl və çaxır, həmçinin un saxlanılmışdır. Sarıtəpənin gil qabları narın gildən yanma üsulu ilə, yaxud dulus çarxında hazırlanmış, çox sayda qara rəngli küp, bardaq, cam, nehrə və s.-dən ibarətdir. Qablar çox səliqəli cilalanmış, üzəri cızma və ya yapma üsulu ilə naxışlanmışdır. Qabların qulpları əsasən zoomorf formalıdır.

Sarıtəpədən çox sayda dörkünc və dairəvi formalı möhürlər tapılmışdır. Möhürlərin işlək üzündə çərxi-fələk (günəş simvolu) nişanları təsvir olunmuşdur.

Qazıntılar zamanı məişətdə işlədilən daş və sümük alətlərə də təsadüf edilmişdir. Abidədə dən daşları və sümükdən düzəldilmiş iy başlıqları, metal əşyalar üstünlük təşkil edir. Metal məmulatı tuncdan hazırlanmış Cənubi Qafqaz tipli ox ucluqları, at fiquru formalı asma və s.-dən ibarətdir.

Dəmir dövrü abidələrinin bir qismi arxeoloji ədəbiyyatda **Muğan mədəniyyəti** adı ilə məşhurdur. Bu mədəniyyətin izləri ilk dəfə İ.M.Cəfərzadə tərəfindən Cəlilabad rayonundakı Uzuntəpə adlı yerdə aşkar edilmişdir. Muğan mədəniyyətinin əsas səciyyəvi xüsusiyyətləri silah nümunələrində - tunc və dəmirdən düzəldilmiş müxtəlif ölçülü qılınc və xəncərlərdə əks olunmuşdur. Qılıncların özünəməxsus dəstəkləri vardır. Yuxarı hissədə onlar yanlara əyilmiş dairəvi formaya malik olub, tiyələri

uzun və itidir. Xəncərlər eyni zamanda yastı tiyəli olub, kəsmə həndəsi naxışlarla bəzədilmişdir. Bu xəncərlər Qızılvəng, Talış, Xocalı-Gədəbəy, Mingəçevir və başqa yerlərdən tapılan xəncərlərlə oxşardırlar. Muğan mədəniyyətinin bəzək nümunələri tunc bilərzik və üzüklərdən, eləcə də müxtəlif minerallardan düzəldilmiş muncuqlardan ibarətdir. Saxsı məmulatına qara və qırmızı rəngli qablar daxildir. Bu qablar bəzi əlamətlərinə görə Naxçıvan və Xocalı-Gədəbəy mədəniyyətinin gil qabları ilə oxşardırlar.

İ.M.Cəfərzadə Muğan mədəniyyətini e.ə. VIII-VII əsrlərə aid edir.

# VI HİSSƏ. ANTİK DÖVR

## VIII FƏSİL

## QAFQAZIN ANTİK DÖVR ARXEOLOJİ ABİDƏLƏRİ

### 1. Qafqazda antik dövr arxeoloji abidələrinin xüsusiyyətləri

Qafqazda erkən dövlət qurumlarının formalaşması e.ə. X-IX və e.ə.V-IV əsrləri əhatə edir. Bir çox alimlər e.ə. IV əsri cəmiyyətdə ən vacib ciddi sosial dəyişikliklərin baş verdiyi bir dövr kimi dəyərləndirirlər.

**Urartu** dövləti haqqında yazılı tarixi mənbələr arasında Aşşur əlyazmaları, məktublar, həmçinin Urartu mətnləri - heroqlifləri və cızma yazılar əsas yerlərdən birini tutur. Bir çox hallarda bu yazılar qələbələr haqqında məlumat verən qısa xəbərlər şəklindədir. Bəzən isə döyüşdən əldə olunmuş qənimət geniş təsvir olunur. Lakin başlıca mənbə sözsüz ki, arxeoloji materiallardır. Arxeoloji tədqiqatlar Qərbi Azərbaycan və Türkiyə ərazisində Van gölü ətrafında aparılmışdır - (Topraqqala, Altıntəpə, Karmir-blur, Arinberd, Armavir qazıntıları). Urartu dövlətinin mövcud olduğu dövr Cənubi Qafqaz regionunda şəhərsalma prosesinin başlanğıc mərhələsi ilə üst-üstə düşür. Sinfi cəmiyyətin formalaşması və dövlətçilik ənənələrinin təbii nəticəsi kimi şəhərlərin salınması xüsusi sosial orqanizm sayılır və yeni tip yaşayış məskəni kimi qəbul olunur.

B.e.ə. I minillikdə Azərbaycanın qədim ərazilərindən biri olan İrəvan mahalı yaxınlığında, Göyçə gölü ərazisində, Qədim Şərq tipli ilk quldarlıq dövləti olan, etnik tərkibi etibarilə müxtəlif tayfaları birləşdirən Urartu yaranır. Urartu abidələri hələ keçən əsrdən alimlərin diqqətini cəlb etmişdir. XIX əsrin ortalarında Göyçə gölü sahilində yüksək qayalıqda b.e. əvvəl VIII əsrdə yaşamış I Rusanun əmri ilə yazılmış ilk epiqrafik abidə aşkar edilmişdir. Sonralar Karmir-Blur (qırmızı daşlar) təpəsindən gil plitə tapılmış və həmin plitə üzərində son Urartu padşahlarından birinin adı yazılmışdır. Bu sahədə aparılan axtarışlar nəticəsində əsası II Rusa tərəfindən qoyulmuş (təxminən e.ə. 675-650-ci illərdə) Teyşebaini şəhərinin xarabalığı aşkar olundu.

1936-cı ildən Tarixi Abidələrin Mühafizə Komitəsi (Ermənistan SSR) tərəfindən abidədə sistemli şəkildə (22 mövsümdə) arxeoloji qazıntı işləri aparılmışdır (1942-1944-cü illərdə abidədə qazıntı işləri dayandırılmışdır).

Bu şəhərin mərkəzi hissəsi 4 hektara yaxın olub, ətrafına daş və möhrədən qala divarları çəkilmişdir. Narınqalanın divarları ətrafında eyni növ daşlardan tikilmiş (evlərdən ibarət) məhəllələr yerləşirdi. Narınqalada canişinin saray kompleksinin qalıqları aşkar edilmişdir.

Çiy kərpicdən tikilmiş bu saray bir qədər yüksəklikdə salınmaqla yüzdən çox otağı əhatə edir. Sarayın zirzəmisi daha yaxşı qalmışdır. Bu hissədən Urartu incəsənətinin ən yaxşı nümunələri əldə olunmuşdur. Buradan dekorativ bəzək rolunu oynamış öküz və şir təsvirləri, hökmdar Arqişiti və Sardurinin padşahlarının tunc qalxanları, metal dəbilqə, üzərində atlı barelyefi təsvir edilmiş zirehli geyim və s. aşkar edilmişdir. Dəbilqənin birinin üzərində yazılmışdır: "Xalq allahına, hökmdara, Arqişitinin oğlu Sardura həyat naminə bəxş etmişdir". Bu dəbilqə üzərində müqəddəs həyat ağacları, ağacların ətrafında isə buynuzlu dəbilqə geyimli allahlar, onların ardınca isə atlı hərbçi və döyüş arabaları təsvir edilmişdir. Qalanın zirzəmisindən üzərində yazısı olan çoxlu sayda tunc piyalələr tapılmışdır. Başqa əşyalarla yanaşı, zirzəminin içərisində üzərində mixi yazıları olan xeyli gil lövhəciklərə də rast gəlinmişdir.

Bu şəhər hərbi, inzibati mərkəz olmaqla yanaşı, həm də təsərrüfat mərkəzi idi. Buradakı evlərin döşəmələrinin altında yerləşdirilmiş iri küplərdə buğda, arpa, meyvə, şərab və s. ehtiyat məhsulları saxlanılırdı. Zirzəmidə oraq, çəkic, dən daşları, kirkirələr və digər kənd təsərrüfatı əşyaları aşkar edilmişdir.

Qalanın ətrafında əhalinin həyat tərzini özündə əks etdirən icma evləri də tapılmışdır. Yaşayış mənzilləri iki və üç otaqdan ibarət olmuşdur. Qoyunbaşı formalı toqqa bəndlərinə, yarımşar şəkilli muncuqlara, skif tipli ox ucluqlarına, Teyşebani şəhərində skiflərə aid əşyalara - at bəzəklərinə də təsadüf olunmuşdur. Göyçə gölü ətrafında Urartu dövlətinə məxsus daha iki yaşayış məskəni öyrənilmişdir. Onlardan biri gölün cənub sahilində, digəri isə Yeni Bayazid şəhəri yaxınlığında yerləşir.

Evlərdə içəri tərəfdən qoyulmuş ağac sütunlar tavanı saxlayırdı.

Evlərin digər hissələri bağlı həyəti xatırladırdı. Ev əşyaları əsasən gil qablardan, sümükdən və ağacdan hazırlanmış qaşıq, çömçə və qutulardan ibarət olmuşdur. Şəhərin Narınqala hissəsindən kənarda aşkar edilmiş yaşayış mənzillərində sənətkarların, hərbçilərin və quşların yaşadıqları ehtimal edilir.

E. ə. 783-cü ildə Argiştinin dövründə Erebuni şəhəri salınmışdır. İrəvan şəhərinin yaxınlığında yerləşən Erebuni xarabalığından həmin şəhərin Menuanın oğlu Argiştin tərəfindən salındığını xəbər verən yazı tapılmışdır. Erebunidə aparılan qazıntı işləri zamanı b.e.ə. I minillikdə Urartu dövlətində əhalinin iqtisadi, ictimai və mədəni səviyyəsini öyrənmək üçün zəngin maddi mədəniyyət qalıqları aşkar edilmişdir.

E.ə. IX əsrdə Urartunun paytaxtı - Tuşpa (Van şəhəri) salınmışdır. E.ə. VII-VI əsrlərdə Urartu dövlətinin süqutu ilə adı çəkilən şəhərlər tamamilə məhv olmuşdular. Arxeoloji materiallar əsasında bu dövrə aid bir neçə yaşayış məskəni növü müəyyən olunmuşdur.

Şəhərsalmanın 3 tipi aparıcı xarakterli idi:

1) inzibati-təsərrüfat mərkəzi;
2) dini mərkəz (Müsasir);
3) dövlət qalaları və yalnız yazılı mənbələrə əsasən kənd tipli yaşayış məskənləri.

Zərnakitəpə yaxınlığında yerləşən Urartu şəhərinin planı detallı şəkildə tədqiq olunmuşdur. Tədqiqatlar göstərir ki, küçələrin düzbucaq altında kəsişməsi nəticəsində şəhərin ərazisi kvadratlara bölünürdü ki, bu kvadratlarda da yaşayış evləri yerləşirdi. Kəsişmə nöqtələri böyük bazalt daşlarla fiksə edilirdi. 30 hektardan 200 hektara qədər ərazisi olan şəhərlər yüksək təpələrin yamaclarında salınırdı. Təpənin zirvəsində isə qalalar inşa olunurdu. Bəzən bir şəhərin iki qalası olurdu. Qala daxilində saraylar, məbədlər, təsərrüfat xarakterli tikililər olurdu. Qalaların inşası bütöv memarlıq kompleksi şəklində aparılırdı. Urartu qalalarından Van gölü ətrafında yerləşən Çavuştəpə və Ələkbərd daha məşhurdur. Şəhər istehkamları təbii sədlər olan yerlərdə salınırdı. Müdafiə səddləri 1, 2, bəzən isə 3 sıra istehkam divarlarından ibarət olurdu.

Urartu sarayları müxtəlif memarlıq planlarına malik idilər. Tikinti qaya səthinin hamarlaşdırılmasından başlayırdı. Qaya səthi çox vaxt çıxıntılı şəkildə işlənirdi. Otaqların döşəmələri buna görə eyni səviyyədə deyildi. Otaqlar pilləkənlərlə əlaqələndirilirdi. Divarlar qaya səthində inşa edilirdi. Divarların qalınlığı adətən 2 m-dən 5 m-ə qədər idi. Evlərin divarları 1 m, saray divarları 3,5 m qalınlığında olurdu. Divarların ümumi hündürlüyü 4 m idi. Müxtəlif ölçülü çiy kərpiclərdən istifadə olunurdu (düzbucaqlı və kvadrat formalı). İnşaatda tikinti zamanı ağac materialından da istifadə olunurdu. Ağacdan əsasən dam örtüyü hazırlanırdı. Bəzən evlərin arxa divarları metal qalxanlarla, saray və məbədlərin daxili isə (interyeri) rəsmlərlə bəzədilirdi.

Urartu iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Urartu hökmdarlarının siyasəti dövlət ərazisinin təsərrüfat baxımından tam mənimsənilməsinə yönəlmişdi. Bu işdə əsas rolu irriqasiya sisteminin inkişafı oynayırdı. Kanal, süni arx və süni su anbarlarının qalıqlarına bir sıra Urartu abidələrində rast gəlinir. Onlardan biri Tuşpa yaxınlığındakı Şamirap şahzadənin inşa etdiyi kanal hələ də fəaliyyət göstərir. Kənd təsərrüfatında müxtəlif növ dənli bitkilərin becərilməsi başlıca rol oynayırdı. Arxeoloqların hesablamalarına görə, Teyşebani sarayının anbarlarında 750 ton buğda saxlanılırdı. Sənətkarlığın müxtəlif sahələri inkişaf etdirilirdi. Əsas əmək alətləri dəmirdən idi. Urartuluların silahları arxeoloji tapıntılar və Aşşur relyefləri əsasında öyrənilib.

Urartu tarixinin öyrənilməsində e.ə. IX əsrə aid III Salmanasarın Balavat darvazaları relyefindəki Urartu döyüşçülərinin təsvirləri əsas rol oynayır. Urartuluların silahları nizə, döyüş baltalarından, qılınc, xəncər və oxlardan ibarət idi. Saxsı əsasən dulus çarxlarında hazırlanırdı. Monumental

relyeflərdə Urartu allahlarının təsvirləri verilmişdir. Burada Teyşeba Allahı müqəddəs ağaclar arasında öküz üzərində oturmuş vəziyyətdə təsvir olunmuşdur. Bu dövrdə xatəmkarlıq geniş yayılmışdı. Divar rəsmləri də geniş vüsət almışdı. Bu rəsmlər qədim Ön Asiya monumental rəsmləri dairəsinə aid edilir. Onlar Aşşur təsvirlərinə daha yaxındırlar. Bu rəsmlər üçün şərtilik və ənənəvilik xarakterikdir. Belə ki, canlıların və bitkilərin təsvir olunmasında konkret ənənəvi üsul və alətlərdən istifadə olunurdu. Daha çox allahların, hökmdarların, dini ayinlərin təsvirləri geniş yayılmışdı. Təsvirlər simvolik xarakterli idi. Tətbiqi incəsənət də inkişaf etdirilirdi. Bu sənət nümunələrindən taxt başlıqlarını bəzəyən tunc, qızılı (əfsanəvi məxluq) fiqurları misal göstərmək olar. Fantastik məxluqlar özlərində quş, öküz, şir və insan hissələrini birləşdirirdi. Ümumilikdə, Urartu mədəniyyətini qədim Ön Asiya mədəniyyətinin bir hissəsi kimi səciyyələndirmək olar. Çünki ona aid olan bütün səciyyəvi əlamətlər Urartu mədəniyyətində də müşahidə olunur.

2. **İberiya.** E.ə. III əsrdə müasir Gürcüstan ərazisində qədim Yunan-Roma tarixçilərinin İberiya adlandırdıqları dövlət formalaşmışdı. Əhalisi kartlardan ibarət idi. E.ə. I minilliyin I yarısı burada özünəməxsus erkən dəmir dövrü mədəniyyəti meydana gəlməyə başlamışdır. Bu dövrə aid yazılı mənbələr, demək olar ki, yoxdur. Arxeoloji mənbələr isə əksinə, əhəmiyyətli məlumatlar verir. Onlar yaşayış məskənlərinin, həmçinin də nekropolların tədqiqatı zamanı aşkar edilmişdi. Dövrün yaşayış məskənləri təpələrdə salınırdı. Onlar əvvəlki yaşayış məskənlərinin yerində, lakin daha böyük ölçülərdə inşa olunurdu. E.ə. II minillikdən e.ə VI əsrə qədər mövcud olmuş protoşəhər tipli yaşayış məskəninin qazıntıları Tiflis şəhəri yaxınlığında aparılmışdır. Belə yaşayış məskənləri Misxetidə də öyrənilib. E.ə. VI əsrdə belə iri məskənlər süquta uğrayır və tədricən yoxa çıxır. Onların çoxunda vəhşicəsinə dağıntıların və güclü yanğınların izləri qeydə alınıb. Belə hadisələrin səbəblərini izah etmək çətindir. E.ə. I minillikdə yaşayış məskənləri müdafiə məqsədi ilə yüksəkliklər şəklində inşa olunurdu. Bu tikililərdə əsasən icma məbədləri və icma aristokratları məskunlaşmışdılar. Müdafiə sistemi enli arxlar və daşdan, ağacdan, çiy kərpicdən tikilmiş divarlardan ibarət idi. Möhkəmləndirilmiş divarlarla yanaşı möhkəmləndirilməmiş divar hissələri də var idi ki, burada icmanın sadə əhalisi yaşayırdı. Həmçinin əsas yaşayış məskənindən bir qədər kənarda sənətkar məhəllələri yerləşirdi. Bu məhəllələrin sakinləri bir, yaxud bir neçə sənət növü ilə məşğul olurdular. Evlər nazik dam örtüklü, bir otaqlı qazmalar şəklində idilər. Divarlar gil məhlulla örtülürdü. Hər bir evdə soba və onunla yanaşı müxtəlif formalı alçaq qurbangahlar vardı. Qədim iberlərdə dulusçuluq, metallurgiya, metalişləmə, zərgərlik sənəti inkişaf etmişdi. Əmək alətləri və silahlar əsasən nekropolların qazıntıları zamanı tapılmışdı. Bu

dövrə aid qəbir abidələri toplu şəkildə, bəzən isə nazik daş lövhələrdən ibarət olan daş qutular şəklindədirlər.

Beləliklə, e.ə. I minilliyin I yarısı Şərqi Gürcüstan ərazisində ilkin icmadaxili münasibətlərin meydana gəldiyi, qalalarla əhatə olunmuş yeni yaşayış məskənlərinin yayıldığı, cəmiyyətdə sosial və iqtisadi sinifləşmənin formalaşdığı bir dövr kimi səciyyələnir və nekropolların tədqiqatları nəticəsində araşdırılır.

E.ə. V əsrin sonları və IV əsrin I yarısı bu ərazilərdə yerli zadəganların başçılıq etdiyi yeni ərazi-bölgü forması yayılmağa başlayır. Sinifli cəmiyyətin və dövlətin formalaşması Əhəməni imperiyası ilə olan sıx əlaqələr nəticəsində sürətlənmişdi. Görünür, İberiya tayfaları sözü gedən imperiyadan asılı vəziyyətdə olmuşdular.

Kolxida tarixi haqqında məlumat verən və e.ə.IV-I əsrlərə aid olan yazılı mənbələr çox da ətraflı deyil. Daha çox məlumatı Strabon, daha sonralar Klavdi Ptolomeyin əsərlərindən almaq olar. Dövrün xarakteristikasını verən arxeoloji materiallar Van və Eşer şəhərləri, həmçinin nekropolların qazıntıları zamanı əldə olunmuşdur.

**Eşer şəhəri** sahəsi 4 hektar olan bu şəhər dənizdən 1 km məsafədə yerləşən təpədə salınmışdır. Qazıntılar zamanı şəhər divarlarının və bir neçə ictimai binanın qalıqları aşkar olunmuşdur. Əsas tikililər olan məbədlər təpənin görünüşünə uyğun üçkünc formada, ətrafında divarlar ucaldılmış şəkildə inşa olunmuşdu. Şimal hissədə e.ə. III əsrdə tikilmiş şəhər darvazaları yerləşirdi. Belə güman etmək olar ki, bu şəhər məbəd mərkəzi idi. Məbəd mərkəzinin qulluqçuları təpənin ətəyində, Rioni və Sulori çaylarının qovşağında yaşayırdılar. Bu şəhərin istehkam divarları e.ə. II-I əsrlərdə ucaldılmışdır. Müdafiə divarları düzbucaqlı formalı qüllələrlə işlənmişdi. E.ə. III-I əsrlərdə təpənin zirvəsində daş platforma quruluşlu monumental məbədgah ucaldılmışdır. Ellin dövrünə aid olan Kolxida şəhərinin inşasında daş, çiy kərpic, ağac və çınqıldan istifadə olunmuşdur.

Şəhərin inşasında yunan arxitekturasının təsiri dekorativ sistemdə müşahidə olunur. Ümumi quruluş isə ənənəvi olaraq saxlanılmışdı. Qülləşəkilli məbədgahların tikintisi isə qədim Şərq ənənələri ilə bağlıdır. Dövrün iqtisadiyyatın əsasını yenə də kənd təsərrüfatı təşkil edirdi. Xüsusi yeri üzümçülük, şərabçılıq və bağçılıq tuturdu.

İqtisadi həyatın canlanmasında ellin aləmi ilə olan əlaqələr başlıca rol oynayırdı. Bu əlaqələri Kolxida ərazisindən aşkarlanmış çoxsaylı Qieronun staterləri, II Filip, II Aleksandr və III Filip Makedoniyalının tetradraxmları, Lisimaxın qızıl və gümüş sikkələri təsdiqləyir. E.ə. II-I əsrdə Kolxidada Lisimax staterlərinin oxşarı olan 1 sikkələri Kolxidkalar zərb edib və dövriyyədə istifadə olunmuşdu.

E.ə. IV əsrdə Kolxida ellin aləminin ətraf dövlətlərinin əhatə dairəsinə daxil olur. Siyasi, sosial sahələrdə öz müstəqilliyini qoruyub saxlamasına baxmayaraq, o, ellin dövlətlərinin mədəni təsiri altına düşmüşdü. Ellin aləmi ilə iqtisadi, siyasi və mədəni əlaqələr cəmiyyətin inkişafının sürətlənməsinə təkan vermişdir.

E.ə. VI-I və e.ə. II-I əsrlədə Kolxidanın çox hissəsi Ponti çarlığının tərkibinə qatıldı və e.ə. 63-cü ildə Romadan asılı vəziyyətə düşdü. Bizim eranın ilk əsrlərində erkən yerli siyasi qurumlar formalaşmağa başlayır. Onlar arasında əsas yeri, demək olar ki, bütün Qərbi Gürcüstanı Kolxidanı əhatə edən Laz çarlığı tuturdu. Kolxidada romalılar tərəfindən inşa edilmiş istehkam qalalarından biri - cənubda yerləşən Acarda sahəsi 5 hektar olan 18 qülləli və düzbucaq formalı monumental qala aşkar olunmuşdur. Kolxidadakı Roma qalalarından ən geniş tədqiq olunanı hazırkı Piçunun yerində yerləşən qədim Putiuntdur. Qazıntılar zamanı buradan çoxlu sayda müdafiə sədləri, ictimai, dini binalar, yaşayış tikililəri aşkar olunmuşdur. Burada aşkar olunan Roma qalalarının inşası e.ə. II əsrə aid edilir. Bu dövrdə Kolxida iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Roma dənizsahili mərkəzlərinin iqtisadi təsiri yalnız sahilboyu bölgələrdə hiss olunurdu. Kolxidanın mərkəzində isə iber təsiri daha güclü idi. Geniş istifadə olunan əmək alətləri - dəmir baltalar, əyri, orağabənzər bıçaqlar və dəmir xış bu qəbildəndir. Silah kimi qılınc, xəncər, nizə ucluqları, döyüş baltalarından istifadə olunurdu. Amforalar abidədə xüsusi rəngarəngliyi ilə (e.ə. II-III və eramızın I əsrinə aid olan) seçilir.

Bəzək əşyaları kifayət qədər müxtəlif olub, əsasən qızıldan, tuncdan, gümüşdən hazırlanırdı (e.ə. II-III əsrlər üçün daha səciyyəvidir). Qızıl bəzək əşyaları əsasən üzüm salxımları formasında olan sırğalar, əyri ucluqlu qolbağlar şəklindədirlər.

Abidədən əldə olunan geyim bəzəkləri və baş geyimləri xüsusi marağa səbəb olur. Onlar arasında mürəkkəb quruluşlu, qızıl sancaqlar vardır ki, onlar da rəngli daşlarla bəzədilir və üzərinə müxtəlif heyvan, quş təsvirləri lehimlənirdi. Bu dövrün ən vacib hadisəsi Kolxidada tədricən xristianlığın yayılması idi. Bununla bərabər, yerli dini inanclar və Roma qarnizonlarında sırf yunan-Roma təsiri mövcud olmaqda davam edirdi. Xristianlığın ən iri mərkəzi Pitiunt idi.

Beləliklə, e.ə. IV-III əsrlərdə meydana gəlmiş və eramızın ilk əsrlərində çiçəklənmə dövrünü yaşayan İberiya şəhərləri ətraf təsərrüfat bölgələrinin mərkəzləri kimi səciyyələnir və sözsüz ki, sənətkarlıq və ticarətin də mərkəzi bu şəhərlər sayılırdı. Şəhərsalmada bir qayda olaraq ikili sistem tətbiq olunmaqda idi. Belə ki, təbii təpədə narınqala və aşağı şəhər (şəhristan), yuxarı hissədə isə əsas ictimai və dövlət binaları yerləşirdi.

## 2. Atropatena və Albaniya

Məlumdur ki, e.ə. IV əsrdə yunan-makedon istilaları zamanı Şərqin siyasi xəritəsində əsaslı dəyişikliklər baş vermişdir. Bu zaman yaranmış yeni dövlətlərdən biri də Atropatena idi. Atropatena indiki Cənubi Azərbaycandan başqa, Mil-Muğan, Kaspiana və indiki Naxçıvan ərazisini əhatə edən Basorped vilayətlərindən ibarət idi. Bizim eranın ərəfəsində Kaspiana Albaniyanın tərkibinə qatılır. Arxeoloji kəşfiyyatlar nəticəsində Atropatena dövlətinə aid bir neçə abidə aşkar olunmuşdur: Qaratəpə, Təzəkənd, Qarakəbər-Mil düzündə, bir neçə abidə Muğan düzündə, Oğlanqala və digərləri Naxçıvanda, Cənubi Azərbaycanda Kale-Zoxak, Kale-Çaxmaqlı, Revaz qalası, Həsənqala və s.

Bu dövrün düzən əraziləri üçün möhkəmləndirilməmiş, o cümlədən yüksəkliklərdə, müdafiə divarları ilə yaxşı müdafiə olunan yaşayış məskənləri xarakterikdir. Yaşayış məskənləri dağ keçidlərində təbii sədləri olan yerlərdə salınırdı, əlçatan yerlərdə qülləli divarlar tikilirdi. Qüllələr, yapışdırıcı məhlul istifadə olunmadan, iri daş lövhələrdən inşa olunurdu. Mil düzündəki Təzəkənd şəhəri iki arxla əhatə olunmuş təpədə yerləşirdi. Arxeoloji kəşfiyyat zamanı daş sütunların özülü, Roma imperatoru Avqustun adından kəsilmiş sikkə nominalı denarig tapılmışdır. 35 m qalınlığında olan mədəni təbəqədən əsasən saxsı materiallar aşkar olunmuşdur. E.ə. IV - I əsrlərdə bu şəhər yeri Paytakaran adlandırılır. Mil düzündəki digər şəhərdə - Qalatəpədə eyni mənzərə müşahidə olunur. Tədqiqatçıların əlində olan saxsı materiallara əsasən Atropatenada dulusçuluq sənətinin inkişaf mərhələlərini izləmək mümkün olmuşdur. Mil düzündə, Talış, Muğan, Naxçıvan ərazisindəki küp qəbirlərdən aşkar olunmuş mükəmməl dulusçuluq məmulatları Atropatena dulusçularının yüksək ustalıq qabiliyyətindən xəbər verir. Əsaslı şəkildə aparılmayan qazıntılar və maddi materialın azlığı atropatenalıların məişəti, geyimi və bəzək əşyaları barədə konkret məlumat almağa imkan vermir. Belə ki, az miqdarda, bir neçə üzük və qolbağdan başqa elmə çox az materiallar məlumdur. Dəfnetmə mərasimi üsulları haqqında Atropatenanın şimal ərazilərində tədqiq olunmuş küp qəbirlərə əsaslanaraq məlumat vermək mümkündür. Atropatenada Parfiya hökmdarlarının adından zərb olunan sikkələr Qotarzanın, II Vologezanın sikkələri, həmçinin imperator II Avqustun denariləri dövriyyədə idi.

**Albaniya.** İlk dəfə albanların adı e.ə. IV əsrin son hadisələri ilə əlaqədar yazılı mənbələrdə çəkilir. Makedoniyalı İsgəndərin yürüşləri zamanı Albaniya sərhədləri hələ dəqiq deyildi. Yazılı mənbələr və arxeoloji materiallara əsasən təxminən e.ə. I minillikdə Albaniyanın ərazisi Kür-Araz ovalığını, Kür çayının aşağı və yuxarı axınlarını əhatə edirdi. Bizim eranın əvvəllərində tərkibinə Dağıstan ərazisini də qataraq sərhədlərini Sulak çayına

qədər genişləndirmişdir. Dövrü səciyyələndirən arxeoloji materiallar yetərincədir - onlar əsas etibarilə şəhər və nekropol qazıntılarının nəticələrini özündə cəmləşdirir. Qazıntı işləri Qəbələ, Xınıslı, Şamaxı və bir sıra digər yerlərdə aparılmışdı. Qafqaz Albaniyası tarixinin araşdırılmasında şəhərdaxili nekropolların, Mingəçevirdəki qəbiristanlığın, Yaloylu-təpə qazıntılarının xüsusi əhəmiyyəti vardır.

**Yaşayış məskənləri.** Albaniya ərazisindən bir sıra yaşayış məskənləri aşkar olunmuş və tədqiq edilmişdir. Müəyyən olunmuşdur ki, məskənlər adətən iqtisadi və strateji baxımdan əlverişli yerlərdə, əsasən çay, yaxud digər su hövzələrinə yaxın təpələrdə salınırdı. Belə yaşayış məskənlərindəki evlər ilk öncə bir mərtəbəli inşa edilirdi, burada çoxlu ictimai xarakterli binalar da var idi. Bu yaşayış məskənlərindən Mil düzündəki Qaratəpə, Fizuli rayonundakı Qaraköpəktəpə, Qazax şəhərindəki Sarıtəpə və s. misal göstərmək olar. Sonralar bu yaşayış məskənlərinin çoxu müdafiə qurğuları ilə əhatə olunmuşdur. E.ə. II minillikdə Albaniyada erkən şəhər formalı yaşayış məskənləri yaranmağa başlayır. Belə ki, Ptolomey 29 şəhər haqqında məlumat verərək, onlardan dördünü xüsusi qeyd edirdi. Bu şəhərlər - Teleba, Helda, Albana və Hetera idi. Plini bizim eranın əvvəllərində Albaniyanın əsas şəhərinin Kabala olduğunu yazır. Sahəsi 50 hektar olan Kabalanın mədəni təbəqəsi e.ə. IV əsr - eramızın II əsrinə qədərki şəhər həyatını özündə əks etdirir. Təxminən eramızın II əsrində şəhər bizə məlum olmayan səbəblərdən dağıdılmışdır. Albaniyanın ikinci böyük şəhəri Şamaxı idi. Ptolomey Şamaxını öz əsərlərində Kemaxeya, Mamaxeya adlandırırdı. Onun xarabalıqları müasir Şamaxı şəhərindən qərbdə, 50 hektarlıq ərazini əhatə edir. Mədəni təbəqə 5 m qalınlığındadır. Arxeoloji araşdırmalar sübut edir ki, e.ə. IV əsrin sonlarında burada erkən tunc dövrü yaşayış məskəninin yerində yeni məskən formalaşmışdı. Bu yaşayış məskəni III əsrdə ərazisini genişlədirərək şəhər əlamətlərini əldə etdi.

Müəyyən olunmuşdur ki, minillik bir dövrdə, burada bir çox dağıdıcı hadisələr baş vermişdir. Beləliklə, bu hadisələrin nəticəsində dağıdılmış şəhər divarlarının qalıqları qəbir əsası kim istifadə olunurdu. Zaman-zaman unudulmuş qəbiristanlıqların yerində yenidən şəhər məhəllələri salınırdı.

Çoxsaylı arxeoloji abidələr, xüsusilə də yaşayış məskənləri və qəbiristanlıq, o cümlədən də Mingəçevirin yerləşdiyi mövqe, heç sözsüz ki, burada ölkənin iqtisadi və mədəni həyatında əhəmiyyətli rol oynayan şəhərin olduğunu sübut edir. Tədqiqatçılar belə güman edirlər ki, bu ərazidə Osixa və Samunis şəhərləri yerləşirdi. Bu şəhərlər yazılı mənbələrdə də xatırlanır.

Qafqaz Albaniyasının Xristian abidələri: Qəbələnin Böyük Əmili kəndində - Kilsədağ məbədi, Qaxın Ləkit məbədi bu günə qədər qalmaqdadır. Ağdamın Boyəhmədi kəndi - Govurqala məbədi; Laçın rayonunda Ağoğlan monastır kompleksi, Kəlbəcərdə - Xotavəng monastr kompleksi, Ağdərə

rayonunda – Müqəddəs Yelisey məbədi, Qandrasar monastr kompleksi öz memarlıq kompozisiyalarına görə Azərbaycan alban abidələrinə daxildir.

Qəbələnin Kilsədağ məbədi memarlıq üslubuna görə Türkiyənin Ani şəhərində Qaqikaşen (XI əsr), Gürcüstanda Bana (IX-X), Qərbi Azərbaycanda Zvartnos (VII əsr), Suriyada Bəsrə (VI əsr), Azərbaycan (Qax) - Ləkit (VII-VIII əsrlər) məbədləri ilə oxşardır.

**Tikinti texnikası və memarlıq.** Şəhərlərdə evlər daha irihəcmli olub, bir çox xüsusiyyətlərinə görə ictimai xarakterli binalara bənzəyirlər. Bunlara misal olaraq Qəbələdəki böyük ictimai binanın qalıqlarını göstərmək olar. Bu bina 580 $km^2$ sahəni əhatə edən böyük kompleks idi və daxilində iri zallar, dəhlizlər otaqları bir-biri ilə birləşdirirdi. Divarların qalınlığı 2 m idi. Binanın daxilində xüsusi sobalar düzəldilir və qızdırılırdı. Zalların mərkəzində, döşəmədə iki daş sütun aşkar olunmuşdur. Sütunun alt hissəsi 2 pilləli, üst hissəsi isə dairəvi formalı idi. Sütunun orta hissəsində ağac sütunların yerləşdirilməsi üçün dəliklər açılırdı. Ağac sütunlarda kirəmit dam örtüyü qurulurdu. Bu cür ictimai binalar Albaniyanın digər şəhərlərində də inşa olunmuşdur. Məişət tikililəri çay daşı səthində çiy kərpicdən tikilirdi. Şəhər və yaşayış məskənlərinin qazıntıları zamanı təsərrüfat xarakterli tikililərin qalıqları da aşkar olunmuşdur. Bu tapıntılar arasında xüsusi yeri Mingəçevirdən aşkar olunmuş dulus sobaları tutur. Bu sobalar yaşayış məskənindən kənarda qurulurdu. Mingəçevir ərazisindəki bu sənətkar məhəlləsi orta əsrlərə qədər mövcud olmuşdur. Şamaxıda şərabçılıqla əlaqəli tikililərin qalıqları aşkar olunmuşdur. Yerə basdırılmış təsərrüfat küpləri olan böyük tikililər şərabın saxlanması üçün nəzərdə tutulmuşdur. Onlardan bir az kənarda böyük tas formalı üzüməzmə qurğusunun qalıqlarına rast gəlinmişdir. Albaniya şəhərlərində kirəmit və bişmiş kərpic hazırlamaq məqsədilə inşa olunan emalatxanalar var idi. Bunu Qəbələ şəhərindən aşkar olunan çoxsaylı kirəmit qalıqları sübut edir.

**Təsərrüfat** - Qafqaz Albaniyasında kənd təsərrüfatı iqtisadiyyatın əsasını təşkil edirdi. Öz təbii-iqlim şəraiti şərtlərinə görə Albaniyanın əkinçilik rayonları 2 zonaya bölünürdü - dağətəyi və düzən. Xəzərətrafı düzənliklərdə suvarma əkinçiliyinin olmasını bu ərazilərdən tapılmış çoxsaylı böyük və kiçik kanal qalıqları sübut edir. Kanalların əsas su mənbəyi dağ çayları idi. Albaniyada əkinçiliyin inkişafını arxeoloji qazıntılar zamanı abidədən əldə olunan müxtəlif növ əmək alətləri, buğda, arpa qalıqları və s. sübut edir.

Albaniya iqtisadiyyatında sənətkarlıq -metallurgiya, metalişləmə, zərgərlik, dulusçuluq, şüşə işləmə, toxuculuq əsas rol oynayırdı. Dulusçular yüksək ustalıq nümayiş etdirirdilər. Alban dulusçularının hazırladıqları saxsı qablar incə və zəngin ornamentli işləməsi, möhkəm və bərabərsəthli bişirilməsi, mürəkkəb formaları ilə seçilirdi. Ornamental tərtibatın əsasını

düz, dalğalı, əyri xətlər şəklində cızma, yapma və digər üslubda həkk olunmuş həndəsi naxışlar təşkil edirdi. III əsrdən etibarən Albaniyada şüşə qablar istehsal olunurdu.

**Ticarət.** Albaniyada ticarətin inkişafına ilk təkanlar hələ dəmir dövrünün əvvəllərində hiss olunmaqda idi. E.ə. I minillikdə Albaniya beynəlxalq ticarətə qoşuldu. Aşkar olunmuş xaricdən gətirilmə əşyalar, həmçinin xarici və yerli zərbxanalarda zərb edilmiş sikkələrin qalıqları Albaniyanda daxili və xarici ticarətin inkişaf etdiyini göstərir. Qara dəniz ətrafında ticarət xüsusilə intensiv inkişaf edirdi.

Arxeoloji qazıntılar və torpaq işləri zamanı təsadüf olunan ellin dövlətlərində, Romada, həmçinin, Albaniyanın öz yerli zərbxanalarında zərb olunmuş sikkə dəfinələri aşkar olunmuşdur. E.ə IV əsrdə Albaniyaya xaricdən gətirilmə sikkələr - Makedoniyalı İsgəndərin tetradaxma və draxmaları daxil olur. Şamaxıdan tapılmış sikkə dəfinəsinin tərkibində e.ə. IV-I əsrlərdə müxtəlif ölkələrdə, o cümlədən də yerli zərbxanalarda zərb olunmuş sikkələr vardı. Yerli sikkələr selevki və makedoniya draxmalarının bənzəri idi (cəmi 70 əd.).

İkinci qarışıq dəfinə Qəbələ şəhəri yaxınlığında aşkar olunmuşdur. Bu dəfinədə Makedoniyalı İsgəndərin draxmaları, Lisimaxanın tetradraxmaları, I Diodotanın və Yevkraditin yunan-baktriya tetradraxmaları, Parfiyalı Arşakilərin (e.ə. II əsr) draxmaları və yerli zərbxanalarda Makedoniyalı İsgəndərin draxma, tetradraxmalarının bənzəri şəklində zərb olunmuş sikkələr vardı.

**Qliptika.** Pintader-möhürün bu xüsusi növü Albaniyada hələ e.ə. I minilliyin əvvəllərində məlum idi. E.ə. I minilliyin ortaları və ikinci yarısı mülki bərabərsizliyin dərinləşməsi, şəxsi mülkiyyətin inkişafı və iqtisadi-mədəni əlaqələrin genişlənməsi ilə əlaqədar olaraq əsl möhürlərə olan ehtiyac artdı. E.ə. I minilliyin ikinci yarısından Albaniyada antik dövr və İran-Əhəməni imperiyasının möhürlərinə bənzər metaldan hazırlanan tökmə üzük-möhürlər geniş yayılır. Möhürlərdə insanın yırtıcılarla mübarizəsi, müxtəlif məişət və dini ayin səhnələri, fantastik məxluqlar, real heyvanlar təsvir olunurdu.

E.ə. IV-III əsrlərdə Albaniyada qliptikanın digər növləri (xaricdən gətirilmə, böcək formalı və çoxbucaqlı şüşə möhürlər) istifadə olunurdu. Onların üzərində müxtəlif süjetlər həkk olunurdu. Çoxbucaqlı şüşə möhürlərdə atlının kentavrla döyüşü, insan ovu, qrifon təsvir edilirdi. Albaniya abidələrindən tapılmış bir çox möhürlər sənədlərin, anbarların və digər tikililərin qapılarının möhürlənməsi məqsədi ilə istifadə olunurdu.

**Epiqrafik abidələr.** Dövrün epiqrafik abidələri üç yazı nümunəsində özünü əks etdirir. Onlardan biri qədim yunan dilində olub Şəkidə, digəri latın dilində Qobustandan aşkar olunub. Mingəçevir yaşayış yerinin II mədəni

təbəqəsindən cızma xətlə həkk olunmuş yazılı daş və gil əşyalar tapılmışdır. Üzərində 62 hərfdən ibarət alban kitabəsi olan daşla yanaşı, 2 saylı yaşayış yerindən də alban yazısı qeydə alınmışdır. Yazılardan biri beş ədəd kəsik piramidaşəkilli gil şamdan parçaları üzərində, o biri isə iri təsərrüfat küpünün boğazındadır. Üzərində 48-dən çox hərf olan şamdan daha qiymətli hesab edilir. Qobustandakı yazı nümunəsi 6 sətirdən ibarətdir və imperator Domisiananın XII legionunun bu ərazidə olduğunun sənədli sübutudur.

**Qəbir abidələri və dəfn mərasimi.** Tədqiq olunan dövrdə Albaniyada bir çox qəbir növləri məlum idi. Qazıntılar nəticəsində 8 tip qəbir abidəsi müəyyən olunmuşdur - torpaq, quyu, təknə, küp, katakomba, daş qutularda, ağac və çiy kərpic, qəbirlər. Bu abidələrin müxtəlif lokal formalarına da rast gəlinir. Qəbir abidələrinin müxtəlifliyini Albaniya ərazisindəki əhalinin etnik tərkibi ilə izah etmək olar. Lakin, qəbir abidələri forma baxımından bir-birindən kəskin şəkildə fərqlənsə də, onları birləşdirən cəhətlər kifayət qədərdir. Dəfn mərasiminin ümumi elementləri, dəfn zamanı istifadə olunan əşyaları və s. buna misal ola bilər. Demək olar ki, bütün qəbirlərdə ölülər sağ və yaxud sol böyrü üstə bükülmüş vəziyyətdə dəfn olunurdu.

Qəbir tiplərinin içərisində ən çox yayılan sadə torpaq qəbirlərdir. Bu qəbirlər Azərbaycan ərazisində Mingəçevirdə, Yaloylutəpədə, Qəbələdə, Xınıslıda, Torpaqqalada (Qax rayonu), Qarabulaqkənddə və başqa yerlərdə tədqiq edilmişdir. Qəbirlər xam torpaqda dördkünc formada qazılmış və əsasən döşəmələr və yan divarlar gil məhlul ilə suvanmışdır. Qəbirlərin dərinliyi 1,2 m-dən 3,1 m-ə qədər olur. Torpaq qəbirlərdə ölülər tək-tək böyrü üstə, bükülü və ya uzadılmış vəziyyətdə müxtəlif səmtlərdə dəfn edilmişlər. Qəbirlərə əsasən dəfn zamanı müxtəlif tip gil qablar (əsasən təkqulplar, camlar, boşqablar və iri küplər) qoyulurdu. Qablar qara və boz rəngli olub, üzərinə qırmızı rənglə xətlər çəkilmiş və cızma naxışlar tətbiq olunmuşdur.

Qəbirlərin dövrünü onlardan tapılan numizmatik materiallar dəqiqləşdirir. Mövcud materiallar qəbirləri e.ə. IV-I əsrlərə aid etməyə imkan verir.

Albaniyada torpaq qəbirləri ilə yaşıd abidələrdən bir qrupunu quyu qəbirləri təşkil edir. Həmin qəbirlər Azərbaycan ərazisində əsasən Şamaxıda qeydə alınmışdır. Qəbirlərin dərinliyi 0,7-5 m arasında, diametri isə 0,8-2,2 m-dir. Qəbirlərin ən xarakterik cəhəti ölünün baş tərəfində təsərrüfat küpünün və ya iri gil qabın qoyulmasıdır. Quyu qəbirlərdən müxtəlif gil qablar, silahlar, bəzək əşyaları və şüşə məmulatı tapılmışdır. Quyu qəbirlər e.ə. I minilliyin sonlarına aid edilir.

Azərbaycanda bu dövrə aid tədqiq olunmuş qəbir abidələrinin bir qrupu gil-təknə qəbirlərdir. Bu qəbirlər Mingəçevirdə, Qəbələdə və əsasən İsmayıllı rayonu ərazisində öyrənilmişdir. Tədqiqatçıların fikrincə, gil-təknə

qəbirlər əsasən Göyçay, Tüğyançay, Girdimançay hövzələri üçün səciyyəvidir. Təknələr dördkünc və yaxud oval formalı olub, gildən hazırlanmış, açıq boz rənglə bişirilmişdir. Ölü böyrü üstə, bükülü vəziyyətdə, müxtəlif səmtlərdə dəfn edilmişdir. Qəbirlərin avadanlığı həm təknənin içərisində, həm də onun ətrafında qoyulmuşdur. Təknə qəbirlər üçün iki qrup gil qab daha səciyyəvidir: ağzının novçası süzgəcli qablar və təkayaq vazlar.

İlk Antik dövr Albaniyasının qəbir tiplərindən biri də taxta qutulardır. Belə qəbirlər Mingəçevirdə, Kür çayının sol sahilində qeydə alınmışdır. Çox az öyrənilmiş bu qəbirlərə Azərbaycanın digər yerlərində təsadüf edilmişdir. Arçan ağacından düzəldilmiş həmin qəbirlərin əksəriyyətindən qarşı-qarşıya uzadılmış qoşa skeletlər çıxır. Bu da ölülərin üz-üzə dəfn edildiyini göstərir.

Tək skeletli qəbirlərdə ölü geyimdə, bükülü vəziyyətdə, sağ, yaxud sol böyrü üstə və başı cənub-şərqə doğru basdırılmışdır. Qəbirlərdən müxtəlif formalı gil qablar, mis camlar, dəmir xəncərlər, qılınclar, bıçaqlar, ox ucluqları, qızıldan, gümüşdən, tuncdan və şüşədən hazırlanmış bəzək əşyaları, möhür üzüklər və s. tapılmışdır. Taxta qutu qəbirlər e.ə. IV-I əsrlərə aiddir.

Mingəçevirdə, Muğan düzünün Cəfərxan qəbiristanlığında, Xanlar rayonu ərazisində bir qrup torpaq qəbirlərinin üstü çiy kərpiclə örtülmüşdür. Bu qəbirlərdə ölülər müxtəlif səmtlərdə basdırılmışdır. Qəbirlərin birində cüt skeletə də rast gəlinmişdir. Qəbirlərdən əldə hazırlanmış və yaxşı bişirilmiş gil qablar, siahlar, bəzək əşyaları və s. tapılmışdır.

Çiy kərpic qəbirlərin dövrü yeni eranın ərəfəsinə və əvvəllərinə aid edilir. Qafqaz Albaniyası ərazisində daş qutu qəbirlər də aşkar edilmişdir. Bu tip qəbirlər Albaniyanın müasir Dağıstan ərazisindəki yaşayış yerləri üçün xarakterikdir. Skeletlər qəbirlərdə uzadılmış vəziyyətdə olub, çoxluq təşkil edir. Dağıstan daş qutularını Qayakənd-Xoraçay mədəniyyəti ilə bağlayırlar. Bu qəbirlər avadanlıq etibarilə çox da zəngin olmayıb həmin dövrdə kiçik bir ərazi üçün xarakterikdir.

Qafqaz Albaniyasında dövlət formalaşdıqdan sonra ən geniş yayılmış qəbir abidəsi katakombalardır. Bu tip qəbirlər Mingəçevirdə, Qəbələdə, Torpaqqalada (Qax rayonunda), Qazax rayonu ərazisində, Dağıstanda Palace-Sırtıda və digər ərazilərdə aşkar edilmişdir. Mingəçevirdə 200-dən artıq katakomba qəbri öyrənilmişdir. Xronoloji cəhətdən bu tip qəbirlər iki dövrü əhatə edir: antik dövrü və ilk orta əsrləri. Qəbirlər quruluşca eynidir. Onlar giriş hissəsinin uzunluğu 2-4 m, eni 0,6-1 m olan xəndəkdən ibarətdir. Bir tərəfdə getdikcə dərinləşən pillələr vardır. Xəndəyin bir qurtaracağında günbəzvari və ya ellips planda yeraltı dəfn kamerası qazılmışdır. Hündürlüyü 0,9-1,7 m, eni 1,5-3 m olan bu dəfn kamerası yer səthindən 3,5-6,5 m dərinlikdə qazılmışdır. Qədim katakombalar əsasən bir, nadir hallarda isə iki kameralıdır. Əksəriyyətində cüt skeletlərə təsadüf olunur. Katakombalarda

dəfn küplərdə və taxta qutularda da müşahidə olunur. Küplər və ya taxta qutularda xırda əşyalar, əsasən bəzəklər qoyulmuş, ətraflara iri həcmli gil qablar düzülmüşdür. Mərhum qəbrə qoyulandan sonra kameranın ağzı daşla, yaxud kərpiclə hörülmüşdür. Katakombalarda başqa qəbirlərə nisbətən əmək alətlərinə daha çox təsadüf olunur. Bunlar balta, oraq, bıçaq, yaba, qarmaq, biz, iynə və s.-dən ibarətdir.

Qəbirlərin avadanlığı, xüsusən qəbirlərdən toplanmış numizmatik qalıqlar ilk katakombaları eramızın I-III əsrlərinə aid etməyə imkan verir.

1926-cı ildə D.Şərifovun rəhbərliyi ilə Qəbələnin Nic kəndi ətrafında Qarasu çayının sağ sahilində arxeoloji tədqiqat işləri zamanı beş torpaq qəbir öyrənilmişdir.

Yaloylutəpə mədəniyyətinin ilkin qazıntıları sistemsiz olaraq aparılmışdır. Qəbirlərdən əldə edilən maddi mədəniyyət nümunələri elmi cəhətdən D.Şərifov tərəfindən öyrənilmiş və Yaloylutəpə mədəniyyəti üçün səciyyəvi tapıntıların tək və üçayaqlı vazalar olduğunu bildirmişdir. Qəbirlərdə 1949-50-ci illərdə İ.Cəfərzadənin rəhbərliyi ilə qazıntılar davam etdirilmişdir. Bu qazıntılar zamanı qırmızı və sarı rəngli tək və üçayaqlı vazalar, süddanlar, yastı oturacaqlı, tayqulplu cam və küplər tapılmışdır.

Mədəniyyətin yayıldığı ərazilər qərbdə Alazan çayının Kürə töküldüyü ərazi də daxil olmaqla Balakən və Zaqatala rayonlarını, Şərqdə Abşeron yarımadasını, cənubda Kürün cənub sahili boyunu, şimalda Baş Qafqaz dağlarının cənub ətəklərini əhatə edir.

1926-cı il qazıntılar zamanı Yaloylutəpədən aşkar olunmuş sikkə nümunələri əsasında mədəniyyətin e.ə. IV-I əsrlərə aid olduğu təsdiq edilir.

Küp qəbirlər Albaniya qəbir abidələri arasında xüsusi yer tutur. Bu qəbir abidələri əsasən Albaniya ərazisində, Kür çayı sahili boyu, Mil, Şirvan düzü, Böyük Qafqaz dağ silsiləsinin cənub və cənub-qərb ərazilərində, Azərbaycanın cənub bölgələrində geniş yayılmışdır. Dəfndə müxtəlif ölçülü və müxtəlif formalı, bu məqsədlə hazırlanan təsərrüfat küplərindən, uşaqların dəfni üçün isə əsasən məişət qablarından istifadə olunurdu. Küplərdə adətən ölülər tək-tək, nadir hallarda cüt-cüt basdırılırdı. Dəfn küpləri quyularda həmişə şaquli vəziyyətdə qoyulurdu. İstiqamət isə fərqli idi, lakin bir çox hallarda üzü şimal-qərb, cənub-şərqə meyilli basdırılırdı. Küplərin basdırılma dərinliyi də müxtəlif idi. Ölünü yerləşdirmək üçün küpün qulpu və yuxarı hissəsi sındırılırdı. Ölünü və onunla birlikdə basdırılacaq əşyaları küpə yerləşdirdikdən sonra sındırılmış parçaları yerinə qoyulurdu. Küpün ağzı daş yaxud böyük saxsı parçası ilə bağlanırdı. Albaniyanın küp qəbir abidələri e.ə. IV əsrdən e. VII əsrinə qədər olan dövrə aid edilir.

Qafqaz Albaniyası ərazisində və Azərbaycanın cənub və qərb bölgələrində və digər ərazilərdə küp qəbir abidələri geniş yayılmışdır. Küp qəbirlərdə dəfn etmə adəti hələ e.ə. II minillikdə Kiçik Asiyada yaşamış

hetlər öz ölülərini iki küpün içərisində basdırmışlar. İki küpdə ölü dəfn etmək adəti şumerlər arasında və e.ə. I minillikdə Fələstində mövcud olmuşdur.

Müqayisəli şəkildə götürüldükdə küp qəbirlərin ən böyük kolleksiyası Azərbaycandadır. Küp qəbirlər haqda ilk məlumatı 1895-ci ildə E.Resler vermişdir. Azərbaycanda küp qəbirlərin ilk tədqiqinə 1927-ci ildə başlanmışdır. Həmin il V.M.Sısoyev və İ.İ.Meşşaninov Laçın rayonu ərazisində küp qəbirlərin olduğunu müəyyənləşdirmişdir. XX əsrin 30-cu illərində onlar Mil düzündə bir neçə küp qəbir qeydə almışlar. Həmçinin Y.A.Paxomov İsmayıllı, Ağcəbədi, Yevlax, Mingəçevir, Şamaxı, Ağdam rayonlarında və digər yerlərdə də küp qəbirləri üzə çıxarmışdır.

Adətən hər küpün içərisində yalnız bir skeletə təsadüf edilmişdir. Lakin Ağdaşda, Ucarın Bəhmən Bərgüşad kəndi ərazisində və Qəbələ rayonunun Həzrə kəndində aşkar olunan küp qəbirlərdə ölülər cüt-cüt basdırılmışdır. Bir qayda olaraq ölülər dizdən çox bükülü, əlləri üzünə doğru qaldırılmış halda sol və ya sağ böyrü üstə dəfn edilmişdir.

Qəbirlərin avadanlığı içərisində çox sayda zoomorf əşyalara təsadüf edilmişdir. Avadanlıqlar içərisində yüksək ustalıqla hazırlanmış iri lüləli gil qabları xüsusilə qeyd etmək lazımdır. Ağzı camla örtülmüş bu qabların üzərində yapma bəzək (məməciklər) vardır. Küp qəbirlər üçün səciyyəvi olan qabların bir qrupu da camlardır. Küpün içərisində dolça və badə tipli qablara da təsadüf edilmişdir. Qəbirlərdən tapılan alət və silahlar, əsasən dəmirdən düzəldilmişdir. Bəzəklər arasında əsas yeri tunc və dəmir bilərziklər tutur. Zinət əşyaları içərisində boyunbağılara, gərdənliklərə də təsadüf olunur. Onlar əsasən dəmir, tunc və gümüşdən hazırlanmışdır. Qəbirlərdə tuncdan düzəldilmiş düymə, sancaq, zınqırov və s. bəzək nümunələrinə də çox təsadüf edilmişdir.

Küp qəbirləri mədəniyyəti Azərbaycan ərazisində VIII əsrədək davam etmişdir.

# VII HİSSƏ. ORTA ƏSRLƏR

## IX FƏSİL

## QAFQAZDA ŞƏHƏR MƏDƏNİYYƏTİNİN YARANMASI

### 1. Orta əsrlərdə Qafqazda şəhər mədəniyyəti

Orta əsrlərdə Azərbaycan ərazisində çox sayda iri və kiçik şəhərlər, şəhər tipli yaşayış məskənləri, şəhərətrafı kəndlər mövcud idi. Bu dövrün planlı şəkildə öyrənilməsinə XX əsrin ikinci yarısında başlanmışdır. Böyük arxeoloji ekspedisiyaların təşkilindən əvvəl alimlər, tarixçilər yazılı mənbələrlə işləyirdilər. Dövr haqqında tarixi mənbələr arasında yunan, latın, o cümlədən də Azərbaycan, gürcü, ərəb, fars, türk, Suriya, rus və Qərbi Avropa (fransız, ingilis, alman, italyan) müəlliflərinin əsərləri vardır. Bunlar Plininin, Ptolomeyin, Strabonun məlumatları və Musa Kalankatlının 3 hissədən ibarət olan "Alban tarixi" kitabıdır. Həmçinin XI-XII əsrlər Şirvan tarixindən bəhs edən və "Hökmdarların mədhi" adlanan gürcü mənbəyi də əhəmiyyətli hesab olunur. Müxtəlif dövrlərə (IX-XIII əsrlərə) aid edilən ərəb mənbələrində Əl-Bəlazuri, Əl-Yaqubi, Əl-İstəxri, İbn-əl-Əsir və s. tərəfindən tariximizlə bağlı maraqlı məlumatlar verilmişdir. Bu dövrə aid arxeoloji qazıntılar əsasən kəşfiyyat xarakteri daşıyırdı. Bəzi qazıntılar uzunmüddətli olsa da, stasionar xarakterli idilər. Bu qazıntılar Azərbaycan arxeoloqlarının (Q.Əhmədov, R.Göyüşov, R.Məlikov, T.Dostiyev, A.Məmmədov və başqaları) rəhbərliyi altında aparılmışdır. Xarakterinə görə orta əsr Azərbaycan şəhərləri Şərqin digər ölkələrində olduğu kimi böyük sahəyə malik idilər - 30 hektardan - 100 hektara qədər. Şəhərin mərkəzində narınqala yerləşirdi. Adətən hakim təbəqənin yaşadığı bu qala "Şəhristan" yaxud "Şəhərgah", şəhərətrafı isə "rabad" adlandırılırdı. Qala boyu inşa edilən bu evlərdə isə aşağı təbəqəyə mənsub əhali məskunlaşırdı. Bir çox şəhərlərin müxtəlif qala və darvazaları olan müdafiə divarları vardı. Bəzi şəhərlərdə çox vaxt dağlar, göllər, sulu çaylar da müdafiə sisteminə daxil edilirdi. Şəhərlər əsas etibarilə ticarət yollarının kənarı boyu, yaxud dəniz sahilində liman-şəhər formasında, əhalinin məskunluq səviyyəsindən və urbanizasiya xarakterindən asılı olaraq salınırdı. Şəhərlərdə, IX əsrdən başlayaraq məscidlər, minarələr, bəzən mədrəsələr, o cümlədən də, bütün Şərqin və Azərbaycanın əsas simvolu sayılan bazarlar və bu bazarlarda satış yerləri tikilirdi. Şəhərlərin öz kanalizasiya sistemi, hamamları, şəhər girişində karvansaraları, müxtəlif növ ictimai binaları, sənətkar emalatxanaları və s. vardı.

**Beyləqan.** Şəhərin Örənqala adı ilə tanınan xarabalığı indiki Beyləqan rayonu ərazisində - Kəbirli kəndi yaxınlığında yerləşir. Yazılı mənbələrdə Paytakaran adı ilə məşhur olan bu şəhər dəfələrlə yadelli işğalçıların hücumlarına məruz qalmışdır. Şəhər xarabalığının Qala divarlarından içəridə olan sahəsi 40 hektara yaxındır.

Örənqalanın ümumi sahəsi düzbucaq şəkilli ayrıca qala divarı ilə iki hissəyə bölünür, elmi ədəbiyyatda böyük və kiçik şəhər adı ilə tanınır. Böyük şəhərin ətrafına çəkilmiş qala divarlarının uzunluğu 24000 m., kiçik şəhərinki isə 1525 m-dir.

Tədqiqatçıların fikrincə, Beyləqan ilk dəfə Örənqaladan 7 km cənub-şərqdə, indiki Təzəkənd ərazisində yerləşmişdir. Təzəkəndin şəhər sahəsi 5 hektardan çox ərazini əhatə edir. Qazıntılar nəticəsində burada təxminən 4 m qalınlığında mədəni təbəqə üzə çıxarılmışdır.

Müəyyən edilmişdir ki, Təzəkənd sahəsindəki şəhər eramızın ərəfəsində meydana gəlmişdir. VII əsrdən isə burada həyat kəsilmişdir.

Arxeoloji qazıntılar VI əsrdən başlayaraq Beyləqanın zəngin mədəni təbəqələrini üzə çıxarmışdır. Beyləqanda əsas tikinti materialı kimi çiy və bişmiş kərpicdən istifadə edilmişdir. Beyləqanın 8-10 m hündürlüyündə qədim qala divarı dördkünc formada olmuş və müxtəlif ölçülü çiy kərpicdən hörülmüşdür.

Qala divarlarının əhatə etdiyi sahədə metalişləmə, dulusçuluq, şüşə istehsalı, daşişləmə və digər sənətkarlıq sahələrinə məxsus istehsalat ocaqları, əmək alətləri, istehsalat tullantıları və s. tapılmışdır.

**Bərdə** mənbələrdə «Partava», «Firuzabad», «Bərdə» adları ilə şöhrət tapmış bu şəhər Tərtərçayın sol sahilində yerləşmişdir. Alban tarixçisi Moisey Kalankatlının yazdığına görə, Bərdəni Sasani hökmdarı Firuzun dövründə Alban hökmdarı Baçe (459-488) bina etmişdir.

Həmdulla Qəzvini şəhərin tikilmə tarixini daha qədimlərə apararaq Makedoniyalı İskəndərin adı ilə bağlayır və Sasani hökmdarı Qubad tərəfindən genişləndirildiyini göstərir.

Şəhərin yaşı barədə dəqiq fikir Bərdənin xarabalıqlarında aparılacaq arxeoloji araşdırmalardan sonra söyləniləcəkdir.

Şəhərin qədim xarabalıqlarında aparılan araşdırmalar zamanı tapılan maddi mədəniyyət qalıqları (pul dəfinələri və s.) sübut edir ki, hələ antik dövrdə bu ərazidə iri yaşayış məskəni olmuşdur.

Mənbələr VII-IX əsrlərdə Bərdənin təxminən 30 $km^2$ sahə tutduğunu və ətrafına qala divarları çəkildiyini bildirir. Şəhərdə 100 mindən çox insanın yaşadığı göstərilir. Şəhərdə dörd böyük bazar, ayrıca sənətkar məhəllələri, bir neçə hamam və çox sayda dini, ictimai binalar mövcud olmuşdur. Bərdə zərbxanasında müxtəlif hökmdarların adına mis, gümüş və qızıl pullar kəsilmişdir.

Tarixi faktlar göstərir ki, Bərdənin ən çiçəklənən vaxtı VI-XI əsrlər olmuşdur. Dağıdıcı monqol istilaları bu məskənin inkişafını xeyli aşağı saldı.

**Qəbələ.** Qazıntılar 1959-cu ildə Çuxur-Qəbələ kəndində başlanmışdır. Şəhərin qalıqları Qaraçay və Gavurçay arasında geniş təpədə aşkar olunub və iki hissədən ibarətdir. Şəhər bütövlükdə müdafiə divarları və qüllələrlə əhatə olunmuşdur. Ətrafı həmçinin dağ keçidləri ilə hər tərəfdən qorunurdu, bunlardan da ən yaxınları Savalan və Alvan idi. Qəbələdə I-V əsrlərdə alban Arşaki hökmdarlarının, V əsrdən etibarən isə Sasanilər tərəfindən bura təyin olunmuş mərzbanların iqamətgahları yerləşmişdi. IV əsrdə xəzərlərin basqınları ilə əlaqədar olaraq iqamətgah Partav-Bərdəyə köçürüldü. Qəbələ VIII-IX əsrlərdə belə ticari əhəmiyyətini itirməmişdi. Qəbələnin şəhər həyatı II əsrdən XVIII əsrə qədər davam etmişdir. Bunu sübut edən arxeoloji materiallar mövcuddur. Binalar daş və kərpicdən tikilir, daxildən və xaricdən həndəsi şəkilli gil ornament relyeflərlə bəzədilirdi.

Şəhərə su ətraf su hövzələrindən gil borularla daxil olurdu. Ətraf ərazilərdə dulus sobaları aşkar olunmuşdur.

Orta əsrlərdə Qərbi Azərbaycanda (indiki Ermənistan) feodal qəsrləri ilə yanaşı şəhərlərə məxsus yeni tipli karvansaralar, üstüörtülü bazarlar və digər tikililər inşa edilir. Qafqaz Albaniyasının tərkib hissəsi olan indiki Ermənistanda əsasən xristianlığın geniş yayılması ilə «bazilika» tipli alban kilsələri tikilir. Göyçə gölü ətrafındakı, Zvartnosda, Üçmüədzində belə kilsələrə rast gəlmək mümkündür. Bu kilsələrin heç birinin erməni kilsəsinə aidiyyəti yoxdur. Tarixdən məlumdur ki, ilk dəfə erməni katalikosluğunun indiki Ermənistana, daha dəqiq Üçmüədzinə köçürülməsinə XV əsrin sonunda Ağqoyunlu hökmdarı Uzun Həsən icazə vermişdi.

«Ermənistan» coğrafi adı antik və erkən orta əsr mənbələrində Fərat və Dəclə çaylarının yuxarı axarlarını əhatə edən ərazilərə şamil edilirdi. Müxtəlif miqrasiyalar, xüsusilə XIX əsrdə və XX əsrin əvvəllərində çar Rusiyasının köçürmə siyasəti nəticəsində ermənilər Cənubi Qafqazda yayılmış 1918-ci ildə isə ermənipərəst qüvvələrin himayəsi ilə tarixi Azərbaycan torpaqlarında (Qərbi Azərbaycanda) Ermənistan dövləti yaradılmışdır.

Köklü Azərbaycan türklərinin ən qədim şəhərlərindən biri də Dəbildir. İndiki Ermənistanın ərəb əlyazmalarına əsaslanan rus alimləri bu şəhəri «Dvin-Dvin» adlandırmışlar. XIX-XX əsrlər elmi ədəbiyyatda da bu şəhər belə adlandırılır.

Şəhər, şəhristan, onun ətrafında tikilən 2 cərgəli qala divarından və yaşayış məhəllələrindən ibarət olmuşdur. Şəhərin ən qədim tikintisi şəhristana yaxın olan, IV əsrdə tikilmiş xristianlığa qədərki 3 hissəli bazilikdir. Sonradan onun ətrafında digər tikintilər yaranmış və bununla da şəhərin mərkəzinə çevrilmişdi. Sovet İmperiyası dövründə Ermənistanın

ərazisinə daxil olduğuna görə elmi ədəbiyyata Dəbil Azərbaycan şəhəri kimi deyil, ermənilərin qədim şəhəri kimi daxil olmuşdur.

**Ani.** X əsrin ikinci yarısından Ani şəhəri kiçik bir qala divarlarından çıxaraq çox böyük siyasi və mədəni mərkəzə çevrilmişdir. Yazılı məlumatlara əsasən bu zaman şəhərdə 10 mindən artıq insan yaşayırdı. Şəhəri əhatə edən ikiqat qala divarları nəinki şəhristanı, hökmlarların yaşadığı sarayları, həm də bütün şəhəri əhatə edirdi. Ani şəhərinin divarları tikintisinə görə çox möhkəm olmuşdur. Şəhristan ərazisində hələ 1918-ci ilə qədər dünya şöhrətli alim N.Y.Marr tərəfindən arxeoloji araşdırmalar aparılmışdı. Həmin illərdə Ani şəhərinin yerində cənub və şimal kompleksindən ibarət olan saray qalıqları aşkar edilmişdi. Sarayın şimal hissəsində geniş və çox zəngin, rəngarəng naxışlarla bəzədilmiş böyük otaq üzə çıxarılmışdır.

**Bakı-Abşeron yarımadası.** Müasir Bakı şəhərinin əsası qədim zamanlarda qoyulmuşdu. Bakının erkən orta əsrlər tarixi barədə VIII-IX əsrlər ərəb və fars tarixçilərinin, həmçinin coğrafiyaşünaslarının əsərlərindən məlumat almaq olur. Şirvanşahlar sarayı daxilində aparılan arxeoloji qazıntılar zamanı VII-VIII əsrlərə aid edilən, əhalisi sıx məskunlaşmış şəhərin qalıqları aşkar olunmuşdur. VIII-IX və daha sonrakı əsrlərə aid sikkələr də tapılmışdır. Bakıda VII-IX əsr yerüstü abidələr qalmamışdır.

**Şamaxı.** Qədim Şamaxı ərazisində Xınıslı yaşayış məskəni yerləşirdi. Buradan 4 mədəni təbəqə aşkar edilmişdir - e.ə. IV əsrdən başlayaraq e.V əsrinə qədər. Yaşayış məskəni VII-VIII əsrlərdə artıq mövcud deyildi. Buna səbəb ərəb istilaları və yaxud dağıdıcı zəlzələ olmuşdur. Şamaxıda isə həyat VIII əsrin ortalarından başlayır. Həmin dövrdə Şamaxı Yezidiyyə adlandırılırdı.

**Dərbənd** orta əsrlərdə Şirvanın tərkibinə daxil olan qədim şəhərlərdən biri idi. E.ə. VIII-VI əsrlərdən başlayaraq burada müdafiə istehkamları tikilirdi.

Qədim yunan və Roma mənbələrində Kaspi və Alban keçidi, Alban mənbələrində Çora və ya Çola qapıları, İran mənbələrində Dərbənd, Ərəb məxəzlərində Bab-Əl Xalid (Dəmir qapı) və s. adlandırılan Dərbənd Azərbaycanın aramsız basqınlara məruz qalmış şəhərlərindəndir.

Yüksək dağların zirvəsi ilə dənizi birləşdirən bu səd şimalda (Dərbənd), cənubda (beşbarmaq) qoşa qala divarlarından ibarət olub, Sasanilər dövründə inşa edilmişdir. Gilgilçay və Dərbənd sədləri dairəvi bürclər silsiləsinə malik olmaqla narınqala ilə tamamlanır.

V-VI əsrlərdə Dərbənd Qafqazda xristianlığın əsas mərkəzlərindən birinə çevrilir. VII-IX əsrlərdə Xəzər yolu ilə ticarətin inkişafı nəticəsində Dərbənd böyük şəhərlərdən və Xəzər dənizinin önəmli limanlarından biri idi.

Dərbənd divarları boyu və şəhər daxilində arxeoloji qazıntılar bu günə qədər davam etməkdədir.

**Şabran** - bu şəhərin qalıqları Dəvəçi rayonu ərazisində yerləşir. Şabran qalası Qubadan cənubda axan eyni adlı çayın sahilində inşa edilmişdir. Təxminən 20 ilə qədər davam etmiş qazıntılar nəticəsində sənətkar, dulusçu məhəllələri, bazar və s. aşkar olunmuşdur. XVIII əsrin, daha dəqiq desək, 1720-ci ilə qədərki mədəni təbəqə tədqiq olunmuşdur. Həmin ildə şəhər dağılmışdır.

Yuxarıda göstərilən yaşayış yerləri Şirvanın orta əsr şəhərləridir. Bu şəhərlərdən başqa Azərbaycan ərazisində digər şəhərlər də mövcud olmuşdur: Naxçıvan, Ordubad, Bərdə, Gəncə, Şəmkir və s. Həmin şəhərlərin arxeoloji tədqiqatları bu günə qədər davam edir.

Gürcüstan - Orta əsrlərə aid Msxeta şəhərinin öyrənilməsi və Gürcüstanın sosial-iqtisadi inkişafının izlənilməsi baxımından Samtavrda aparılan arxeoloji qazıntıları xüsusi qeyd etmək lazımdır. Araşdırmalar nəticəsində burada yaşayışın e.ə. II minillikdən eramızın VII-VIII əsrlərinə qədər davamlı olması sübut edilmişdir.

Msxeta qəsəbəsinin şimalında yerləşən Samtavr çölündə aparılan stasionar qazıntılar nəticəsində burada küp qəbirlər, daş qutu qəbirləri, saxsı qəbirləri və əsasən uşaqların basdırıldığı torpaq qəbirləri üzə çıxarılmışdı. Şəhər yerlərindən və onlara məxsus olan qəbir abidələrindən külli miqdarda saxsı və şüşə məmulatlar, metalın müxtəlif növlərindən nəfis şəkildə düzəldilmiş zərgərlik məmulatları və müxtəlif ev əşyaları, sümükdən və balıqqulağından hazırlanan kiçik əmək alətləri, bəzək əşyaları, həmçinin, sikkə nümunələri aşkar edilmişdi. İberiyanın və Kaxetiyanın orta əsrlərdə fəaliyyət göstərən şəhərlərinin beynəlxalq ticarət əlaqələrinin ən bariz göstəriciləri sikkə materiallarının, Msxetdə və İberiyanın digər yerlərindən aşkar edilən və Makedoniyalı İsgəndərin adından zərb edilən stater nominalının xüsusilə, antik dövrə aid yerli oxşar nümunələri bu faktı sübut edir. Bu cür sikkələr daxili dövriyyədə e.ə. I əsrdən - eramızın II əsrinə qədər tamhüquqlu tədavül vasitəsi olmuşdur. Bu staterlərlə yanaşı, Gürcüstanın erkən orta əsrlərində fəaliyyət göstərən şəhərlərində Qotarzın adından zərb edilən draxmalar, Avqustun adından buraxılan denarilər də istifadə olunmuşdur. Beynəlxalq ticarət əlaqələrinin intensiv olmasını, həmçinin, Roma imperatorlarının (Nerondan Valeriana qədər) hər birinin adından zərb edilən sikkə nümunələri ilə göstərmək olar.

Əhali bu şəhərlərdə əkinçilik, maldarlıq, sənətkarlıqla məşğul olmuşdur. Aşkar olunan maddi mədəniyyət qalıqları və yazılı məlumatlar İberiyanın bir hissəsinin Qafqaz Albaniyasının tərkibində olmasını sübut edir.

**Armavir.** Şərqdə eyni adlı dağın ətəklərini, cənubda Araz çayı sahillərini əhatə edən, qərbdə Nor Armavir təpəlikləri arasında yerləşən bu

şəhər orta əsrlərə aid klassik abidədir. Abidənin yaxınlığında Eruandasat və Artaşat şəhərlərinin arxeoloji qazıntıları da həyata keçirilmişdi.

Keçən əsrdə erməni alimlərinin təkidlə «qədim erməni şəhərləri» adlandırdıqları bu yaşayış yerlərinin ermənilərə aid olması əslində onların özləri tərəfindən də heç bir maddi mədəniyyət qalıqları vasitəsilə sübuta yetirilməmişdir. Onların fikrincə, bu şəhərlərin salınmasında ellinizmə xas olan elementlərdən istifadə olunmuş, Urartu şəhərlərinə məxsus müdafiə tikililəri mövcud olmuşdur. Bu 2 fakta əsasən, onlar bu şəhərləri qədim erməni mədəniyyətinin nümunələri kimi elmə təqdim etmişlər. Əslində ermənilər bir etnik qrup kimi, dünyanın heç bir yerində ellinizm mədəniyyətinin, Urartunun yaradıcıları kimi tanınmamışlar. «Urartu tipli müdafiə tikililəri» sırasında bu müəlliflərin misal çəkdikləri 2 qat divar, yaxşı qorunan giriş hissə, düzbucaqlı formasında kontrforslar, künclərdə tikilən qüllələr dünya arxitekturasında şərq üslublarının əsas elementləri olaraq, Əhəmənilərə, Mesopotamiyaya, Babilə, Ön Asiyaya, Yaxın Şərqin qədim sivilizasiyalarına, Azərbaycanın orta əsr şəhərlərinə də aid olmuşdur və şəhər mədəniyyəti üçün adi olan xüsusiyyətlərdir. Digər tərəfdən eyni mütəxəssislər elmi nəşrlərdə, o cümlədən samballı «Sovet arxeologiyası» adlı çoxcildlikdə Armavir qazıntıları zamanı ellinizmə aid olan heç bir monumental arxitektura elementinin tapılmadığını da qeyd edirlər. Bu ərazilər qədim türk azərbaycanlılarına aid olan torpaqlar olmuşdur. Orta əsr şəhərlərinin «erməniləşdirilməsinə» nail olan alimlər tam olaraq ermənilərin protoyunan mənşəli olması barədə fikirlərinə Qərbi Azərbaycanda sübut tapa bilməmişlər. Bütün dünya alimləri antik dövrdə indiki Ermənistanın daxil olduğu Qafqaz Albaniyasının tarixini tanıyır və təsdiq edirlər.

Qafqazda erkən orta əsrlərə qədər, daha dəqiq ərəblərin işğalına qədər Albaniya, Atropatenanın bir hissəsi, Kolxida və İberiyanın olması faktı tam olaraq sübuta yetirilmişdi. Heç bir erməni dövləti və yaxud ermənilərə aid şəhər bu ərazilərdə tikilməmişdi. Ona görə də, keçən 70 ildə, Sovetlər İttifaqı zamanı ermənipərəst alimlər nə qədər çalışsalar da, elmi nöqteyi-nəzərdən, faktoloji əsaslarla, maddi mədəniyyət qalıqları ilə orta əsrlərdə belə bizim torpaqlarımızda heç bir erməni mədəniyyəti izləri qeydə ala bilməmişlər. Onların bu torpaqlara məcburi olaraq köçürülməsi XIX əsrin birinci yarısından məlum tarixi hadisələrin nəticəsində başlamışdır. O vaxta qədər Cənubi Qafqazda və ümumiyyətlə, Qafqazda heç bir erməniyə aid olan izlər yoxdur və ola da bilməz.

Bizim eranın VI əsrində Qərbi Azərbaycanın orta əsr şəhərlərindən Dvin sürətlə inkişaf edir. Burada IV əsrin əvvəllərindən xristianlığın dövlət dininə çevrilməsi xristian mədəniyyətinin inkişafına ciddi zəmin yaradır. Sənətkarlıq sürətlə inkişaf edir. Daş və metal işləmə, dulusçuluq və şüşə istehsalı öz rəngarəngliyi ilə şöhrət qazanır.

Son illər Azərbaycanın orta əsr şəhər mədəniyyətinin öyrənilməsi silsiləsindən Şəmkir, Bərdə, Gəncə, Şamaxı və digər yerlərdə arxeoloji qazıntılar aparılır. Bu sıradan xüsusi olaraq Şəmkir qazıntılarını qeyd etmək lazımdır. Belə ki, burada aparılan araşdırmalar nəticəsində şəhərin Narınqala hissəsindən xeyli sayda maddi mədəniyyət qalıqları aşkar edilmiş, onun geniş planı, ölçüləri, tikinti qurğuları öyrənilməkdədir. Aparılan işlər nəticəsində Şəmkir şəhərinin VII-XVIII əsrlər arasında müəyyən fasilələrlə fəaliyyəti haqqında məlumatlar əldə edilmişdir.

**Gürcüstan.** Bu ərazidə VI əsrdə ilk feodal dövlətləri Lazika - qərbdə, Kartli isə - şərqdə yaradılmışdır. Bu zamandan etibarən xristianlığın yayılması ilə əlaqədar həmin dövlətlərin ərazisində tikilən kiçik şəhərlərdə kilsələr inşa edilməyə başlamışdır. Təəssüf ki, bu günümüzə çox az sayda dini abidələr miras qalmışdır. Bu dövrdə Gürcüstanın paytaxtı olan indiki Tiflis böyük bir şəhərə çevrilmişdi. Ərəblərin işğalı zamanı Tiflis müsəlman əmirliyi olaraq, şərq üslubunda yenidən tikilmişdir. Xilafətin zəifləməsi şərqdə Kaxetiya knyazlığı, cənubda Tao-Klardjeti, qərbdə Abxaziya çarlığının yaranmasına səbəb olmuşdur.

Orta əsrlərdə Gürcüstanda mədəni həyat yenidən canlanmış, çox sayda kilsələr tikilmişdir. Bunlardan Müqəddəs Dado (VIII-IX əsr) kilsəsini, David Qurum kilsəsini misal çəkmək olar.

**İlk orta əsr qəbir abidələri.** İslama qədərki dövrün qəbir abidələrində vahid adət-ənənəyə təsadüf olunur. Ümumiyyətlə, ilk orta əsrlərdə dörd qrup qəbir abidələrinə təsadüf edilir: küp qəbirləri, katakombalar, daş qutular və müxtəlif tip xristian qəbirləri.

Son vaxtlara qədər Azərbaycanda küp qəbirlərindəki dəfn adətinin eramızın II əsrinə qədər davam etdiyi güman olunurdu. Lakin Şamaxının Bağırlı kəndi ərazisində Şərgah adlanan yerdə öyrənilmiş küp qəbirlər bu dəfn adətinin Azərbaycanda VIII əsrədək davam etdiyini sübuta yetirdi.

Şərgah küp qəbirləri 1-1,5 m dərinlikdə müxtəlif istiqamətlərdə basdırılırdı. Əvvəlki dövrdə olduğu kimi, burada da ölülər bükülü vəziyyətdə, sağ və ya sol böyrü üstə qoyulmuşdur. Şərgah küp qəbirlərindən ilk orta əsrlər üçün xarakterik maddi mədəniyyət qalıqları tapılmışdır.

Şirvan ərazisi üçün xarakterik qəbir abidələrinin bir qrupunu da Xınıslıdan aşkar olunmuş daş qutu qəbirləri təşkil edir. Bu qəbirlərin dörd tərəfinə daş lövhələr düzülmüşdür. Yan daşların hündürlüyü 0,9, uzunluğu 6,6-2,6, eni 0,4-0,9 m-dir. Küp qəbirlərdə olduğu kimi, burada da skeletlərin vahid istiqaməti yoxdur. Daş qutu qəbirlərdən gil qablar, şüşə və metal predmetlər, bəzək əşyaları, həmçinin əmək alətləri tapılmışdır.

İlk feodal dövrü qəbir tiplərindən biri də katakombalar olmuşdur. Orta əsr katakombaları əvvəlki dövrlərdəkindən öz quruluşuna görə fərqlənirlər.

İlk orta əsr katakombalarında kollektiv dəfn adətinə daha çox təsadüf olunur. Bəzən katakombalarda 15 skelet müşahidə olunur. Qəbir materialları azlıq təşkil edir.

Albaniyada xristianlıq qəbul edildikdən sonra qəbir adətlərində də xristianlaşma müşahidə olunur. Xristian qəbirləri həm torpaqda qazılır, həm də daş qutu formasında düzəldilirdi. Hər iki növ qəbir tipi Qafqaz Albaniyası üçün səciyyəvidir. Xristian qəbirləri üçün ən orijinal formalardan biri daş sənduqələrdir. Qəbələ, Şəki, Bərdə, Tərtər, Ağdam, Dağlıq Qarabağ ərazilərində müşahidə olunmuş bu abidələr ağ daşdan yonulub, ağzı qapalıdır. Uzunluğu əsasən 1,7 m, eni 48-50 sm-dir. Xristian qəbirlərində ölünü arxası üstə, əlləri qarın boşluğunda çarpazlaşmış halda dəfn etmişlər. Bu qəbirlərdə xırda bəzək əşyaları nəzərə alınmasa, başqa avadanlıq tapılmamışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan tarixi. 7 cilddə. I cild. Bakı. 1998.
2. Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı. 1998.
3. Azərbaycan arxeologiyası (Daş dövrü), I cild. Bakı, 2008.
4. Azərbaycan arxeologiyası (orta əsr). VI cild. Bakı, 2009.
5. Abbasova F. Şabran. Bakı: 2002.
6. Aslanov Q. Azərbaycanın tunc təbərzin baltaları. Bakı: Elm, 1982.
7. Aşurov S. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı: 2002, 157 s.
8. Avşarova İ.N. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər). Bakı: Nurlan, 2007, 178 s.
9. Azərbaycan Milli Ensiklopediyası / Azərbaycan Milli Ensiklopediyası Mərkəzi. Bakı: 2007.
10. Azərbaycan tarixi atlası. Bakı: Kartoqrafiya, 2007.
11. Babayev İ.Ə., Əhmədov Q.M. Qəbələ. Bakı: 1981.
12. Baxşəliyev V. Naxçıvanın erkən dəmir dövrü mədəniyyəti. Bakı: 2002.
13. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: 1951.
14. Bünyadov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960.
15. Cəfərzadə İ.M. Qobustan (Qayaüstü rəsmlər) Bakı: Elm, 1973.
16. Cəfərov Ə.Q. Quruçay dərəsində. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1990.
17. Cəfərov Ə. Azərbaycanın ilk sakinləri. Bakı: Elm, 2004, 219 s.
18. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı: 2000.
19. Dostiyev T.M. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 293 s.
20. Əhmədov Q.M. Örənqala. Bakı: 1962.
21. Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977.
22. Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı: İşıq, 1986, 158 s.
23. Həsənov Y. İbtidai icma tarixi (dərs vəsaiti). Bakı: Azərbaycan Dövlət Tədris-pedaqoji nəşriyyatı, 1963.
24. Hüseynov M.N., İsmayılov Q., Quliyev N. Azərbaycanın arxeoloji abidələri. Bakı: 1981.
25. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: 1981.
26. Kərimov S.K. Lerik rayonunun arxeoloji abidələri. Azərbaycan Milli Elmlər Akademiyası. Bakı: Araz, 2006.
27. Qasımov E. Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı. Bakı: 2002.

28. Qazıyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlardan. AMM-VII c. Bakı: Elm, 1973.
29. Mahmudova H.R. Sibir skifləri və Azərbaycan / Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün diss. Avtoreferatı. Bakı: Elm, 2006, 22 s.
30. Muradova F.M. Qobustan tunc dövründə. Bakı: Elm, 1979.
31. Müseyibli N. Gəmiqaya. Bakı: Çaşıoğlu, 2004, 316 s.
32. Novruzlu Ə.İ. Azərbaycanın orta əsr sənətkarlığı. Bakı: 1997.
33. Orucov A.S. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı: Elm, 1989.
34. Pirquliyeva Q. Numizmatikanın əsasları, Bakı: Nafta-press, 2009, 169 s.
35. Rzayev N. Qayalar danışır. Bakı: Elm, 1985.
36. Seyidov A. Naxçıvan e.ə. III-II minilliklərdə. Bakı: Elm, 2003.
37. Volfram Nagel, Yeva Ştrommenger. Qalakənd. Cənubi Qafqazın Kirovabad (Yelizavetpol) ərazisində erkən dəmir dövrünün arxeoloji tapıntıları (tərcümə). Bakı: Diplomat, 1999.
38. Zaur Həsənov. Çar skiflər. Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 479 s.

**Rus dilində**

39. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982.
40. Алиев В. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991.
41. Алиев В.Г. Петроглифы. Гемигая. Баку: Элм, 1985.
42. Алиев И. Очерк истории Атропатены. Баку: Азернешр, 1989.
43. Алиев К. Кавказская Албания (1 в. до н.э - I в. н.э.). Баку: 1974.
44. Амальрик А.С., Монгайт А.Л. Что такое археология? М.:КСИА, № 163, 1980.
45. Амирханов Х.А. Верхний палеолит Северного Кавказа и его соотношение с верхним палеолитом. Махачкала, 1974.
46. Апакидзе А.М. Города древней Грузии. Тбилиси: Мецниреба, 1968.
47. Археология СССР. I-IV том. М.: Наука, 1981-86 г.
48. Арциховский А.В. Основы археологии, М.: Московского Университета, 1954.
49. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Академии Наук Азербайджанской ССР, 1959.
50. Ахмедов Г.М. Города и городская культура в средневековом Азербайджане. Баку: ТДВАК, 1985.
51. Ахмедов Г.М. Средневековый город Байлакан (историко-археологическое исследование). Автореф. докт. дисс, Баку: Элм, 1972.

52. Ахундов Т. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку: Элм, 2001.
53. Ашурбейли С. Государство Ширваншахов (VI-XVI вв.). Баку: 1983.
54. Бабаев И. Города Кавказской Албании в IV в. до н.э. - III в. н.э. Баку: Элм, 1990.
55. Бердзенишвили Н.З. Новые данные о палеолите Абхазии. Тбилиси: Мецнереба, 1959.
56. Бжания В.В. Древнейшая культура Грузии (эпоха энеолита и ранней бронзы). М.: Наука, 1966.
57. Блаватский Б.А. Античная полевая археология. М.Наука, 1967, 207 с.
58. Болтунова А. Возникновение классового общества и государственные власти в Иберии. ВДИ, М.: Наука, 1956.
59. Большаков О.Т. Средневековый город Ближнего Востока (VII-сер. XIII в.). М.: Наука, 1981.
60. Борисковский П.И. Древнейшее прошлое человечества. Л.: 1979.
61. Возникновение человека и общества. М.: Прогресс, 1975.
62. Гаджиев М.С. Древний город Дагестана. М: Прогресс, 2001.
63. Герасимов М.М. Люди каменного века. М.: Наука, 1964.
64. Гуммель Я.М. Археологические очерки Баку: Аз-ФАН, 1940.
65. Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, Элм, 1985.
66. Гусейнов М.М. Пещера Азых. Баку: Коммунист, 1981.
67. Гусейнов М.М., Исмаилов Г.С. Энеолитические находки в пещерах. Азых и Таглар. Изв. АН. АзССР, (СИФП), № 1, Баку: 1967.
68. Джафарзаде И.М. Историко-археологический очерк о старой Гяндже. Баку: Ан.Аз.ССР, 1949.
69. Джафаров А.Г. Мустьерская культура Азербайджана. Баку: Элм, 1983.
70. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку: (по археологическим материалам Азербайджана). Баку: Элм, 1984.
71. Джидди Г.А. Средневековый город Шемаха IX-XVII вв. Баку: Элм, 1981.
72. Дикшит С.К. Введение в археологию. М.: Наука, 1960.
73. Доманский Я.В. Древняя художественная бронза Кавказа. М.: Искусство, 1984.
74. Жан Клод Гарден. Теоретическая археология. М.: Прогресс, 1983, 289 с.
75. Замятнин С.Н. Палеолит Абхазии. Сухуми: Изд-во Академии Наук Грузии, 1937.
76. Ивановский А.А. По Закавказью. (Материалы по Археологии Кавказа). Вып. VI, М.: 1911.

77. Исмаилов Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш. Баку: Элм, 1977.
78. Исмизаде О.Ш. Ялойлутепинская культура. Баку: 1956.
79. Керимов В.Г. Гемигая. Баку: Изд-во Чашыоглу, 2002.
80. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку: 1999.
81. Клейн А.С. Понятие типа в современной археологии. Типы в культуре. Л.: Свет, 1979.
82. Кошкарлы Г. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку: Элм, 1985.
83. Крупное Е.И. Древняя история Северного Кавказа. М.: Прогресс, 1960.
84. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси: АГССР, 1941.
85. Куфтин Б.А. Материалы к археологии Колхиды. Т.I. Тбилиси: 1949.
86. Куфтин В.А. К проблеме энеолита. Внутренний Картли и Юг Осетии. ВМГ-В, Тбилиси: 1947
87. Кушнарева К.Х., Чубинишвили Г. Древние культуры Южного Кавказа. Л.: 1970.
88. Ломоносов М.В. Избранные произведения, М, 1950, с. 396-397.
89. Лордкипанидзе Г.А. К истории Древней Колхиды. Тбилиси: Мецниэреба, 1970.
90. Лордкипанидзе Д.А. Раннеантичная Колхида и ее взаимоотношения с греческим миром в свете новейших археологических открытий. М.: МСПИАЭИТД, 1965.
91. Любин В.Н. Мустьерские культуры Кавказа. Л.: Свет, 1977.
92. Мартынов А.И. Археология СССР. М.: Высшая школа, 1982, 263 с.
93. Массой В.М., Боряз В.Н. Предмет и объект археологии и вопросы металлургии археологических исследований. Л.: Свет, 1986.
94. Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси: 1959.
95. Мещанинов И.М. История Азербайджана по археологическим памятникам. Изв.Аз.ФАН, № 7, 1944.
96. Мунчаев Р.М. Кавказ на заре бронзового века. М.: Наука, 1975.
97. Нариманов И. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: Элм, 1987.
98. Ниорадзе Т.К. Палеолит Грузии. Тбилиси: Мецниереба, 1934.
99. Османов Ф. История и культура Кавказской Албании IV в. до н.э. - III в. н.э. (на основании археологических материалов). Баку: Тахсил, 2006.
100. Пиотровский Б.Б. Археология Закавказья. Ленинград: ЛГУ им. А.А.Жданова, 1949.

101. Пириев В. Азербайджан в XIII-XIV веках. Баку: Элм, 2003.
102. Пиркулиева Г.А. Медные монеты Азербайджана. Баку: МВМ, 2007.
103. Рустамов Дж.Н. Мезолитическая стоянка в Гобустане. Баку: Элм, 1984.
104. Скифия и Кавказ. Сборник. Киев: Высшая школа, 1980.
105. Сумбатзаде А.С. К истории Атропатены. Баку: Элм, 1978.
106. Техов Б.В. К истории изучения памятников эпохи энеолита и бронзы в нижнем течении реки Большой Лиахви. Академия Наук Грузинской ССР. Тбилиси: АН Грузинской ССР, 1963.
107. Техов Б.В. Центральный Кавказ в XVI-X вв до н.э. М.: 1977.
108. Техов В.Б. Скифы и Центральный Кавказ в VII – VI веках до н.э. М.: Наука, 1980.
109. Халилов Д.А. Бабаев И.А. О городах Кавказской Албании. В журн. Советская Археология, № 4, М.: 1974.
ПО. Халилов Д.А. Материальная культура Кавказской Албании. Баку: Элм, 1985.
111. Халилов Дж.А. Археологические памятники Западного Азербайджана в эпоху бронзы и начала железного века (бассейн рек Шамхорчай и Дзегамчай). Баку: АН Аз.ССР, 1959, 181 с. (на азерб.яз).
112. Чубинишвили Г.Н. К истории южного Кавказа. Тбилиси: Мецниереба, 1971.
113. Шер Я.А. Методологические вопросы археологии. М.: Наука, 1976.
114. Ямпольский З.И. О времени образования государства Атропатена. Баку: Элм, 1971.

# İLLÜSTRASİYALAR




**Ön Asiyanın qədim dövr xəritəsi.**




**Azərbaycanın qədim dövr xəritəsi.**




**Azərbaycanın ərəb xilafəti dövründə coğrafi və tarixi xəritəsi.**





1. **Məmmədəli Hüseynov Azıx mağarasının tədqiqi zamanı.**
2. **Azıxantropun alt çənə sümüyü.**



**Qazma mağarasının qazıntı sahəsinin ümumi görünüşü.**



**Tovuz rayonu - Göytəpə neolit dövrü yaşayış məskəninin tikinti qalıqları.**





**Şomutəpə (1) və İlanlıtəpənin (2) arxeoloji qazıntılar zamanı tədqiq olunan hissəsi (D.Axundov tərəfindən bərpa edilmişdir).**



**İlk əkinçi tayfalara məxsus yaşayış yerlərinin planları - İmirisqora, Arıxlı, I Kültəpə.**



**Şulaverisqora - arxeoloji qazıntının planı.**




**İmirisqora – şərq hissənin planı və tikililər**
**(A.İ.Djavaxişvili tərəfindən rekonstruksiyası).**





**Xocalı şəhəri - daş hasar qalıqları və Xocalı kurqanının planı.**




**Xanlar rayonunun qərbində yerləşən 8 saylı kurqanın planı, kəsiyi və qəbir kompleksinin planı.**





**Goranboy rayonu küp qəbir abidəsi.**




**Təknə qəbir.**



**Çaparlı ilk orta əsr abidəsi - xaç formalı qəbir.**



**Antik və ilk orta əsrlər dövrünə aid məbədin qalıqları. Qazax rayonu Ləkit məbədi.**



**Orta əsr Beyləqan şəhərinin bərpa layihəsi.**



**Şəmkir şəhər qalası və qalanın planı (müəllif E.Avalov).**



**Şəmkir rayonu Qaracəmilli kəndi. İlanlıtəpədən əldə olunmuş sütunaltlığı və qazıntı sahəsindən bir görünüş.**



**Azıx mağarası (ilk aşel - VI təbəqə). Daş əmək alətlərindən nümunələr.**



**I Kudaro mağarası. Daş alətlərdən nümunələr.**



**Yaştux dağı (Abxaziya). Daş alətlərdən nümunələr.**



**İrəvan mağarası. Qərbi Azərbaycan (indiki Ermənistan).**
**Daş alətlərdən nümunələr.**



**Lusaket mağarası. Qərbi Azərbaycan (indiki Ermənistan).**
**Daş alətlərdən nümunələr.**



**Tağlar mağarası. Daş alətlərdən nümunələr.**



**Yuxarı Salahlı - daş alətlərdən nümunələr (Aşel dövrü).**



**İlk mustye düşərgəsi (Kuban ətrafı). Daş alətlərdən nümunələr.**



**Axıştır mağarası (Qara dəniz sahili). Daş alətlərdən nümunələr.**



**Bronza mağarası (İmereti). Daş alətlərdən nümunələr.**

Curçula-Kudaro mustye mədəniyyətinə aid daş alətlər.





**Kəlbəcər rayonu - Orta Şurtan düşərgəsi. Daş əmək alətləri.**



**Daş Salahlı paleolit düşərgəsi. Daş əmək alətləri (Mustye dövrü).**



**Damcılı mağarası. Əmək alətləri (Mustye dövrü).**



**Buzeyir mağarası. Mustye mədəniyyəti dövrünün əmək alətləri.**



**Qobustan - Böyükdaş, yuxarı terras, 29 saylı daş.**



**Qobustan - qayaüstü təsvirlər.**



**Gəmiqaya - qayaüstü təsvirləri (Naxçıvan).**



**Gəmiqaya - qayaüstü təsvirləri (Naxçıvan).**



**Kəlbəcər - qayaüstü təsvirləri.**



**Abşeron qaya təsvirləri.**



**Qərbi Azərbaycan ərazisində (indiki Ermənistan), qayaüsü təsvirlər.**



**Tetramisa yaşayış yerindən əldə olunmuş əşyalar (Qara dəniz ətrafı).**



**Texut yaşayış yerindən əldə olunmuş maddi mədəniyyət nümunələri.**



**İmirisqoradan əldə olunmuş keramika məmulatları.**



**Kvemo - Şulaver yaşayış yerindən əldə olunmuş maddi mədəniyyət nümunələri.**



**Arıxlı (Axulo) I yaşayış yerindən əldə olunmuş maddi mədəniyyət nümunələri.**



**Xramis - Didiqora və Kvemo - Şulaver yaşayış yerindən əldə olunmuş maddi mədəniyyət nümunələri.**



**Şulaverisqora yaşayış məskənindən əldə olunmuş keramika məmulatları.**



**Antropomorf fiqurlar. 1, 2 - Arıxlı; 3 - Qarğalar təpəsi; 4-7 - Xramis-didiqora; 8 - Şulaverisqora.**



**Obsidiandan hazırlanmış alətlər - I Kültəpə.**



**Daş və metal alətlər - I Kültəpə.**



**Keramika məmulatları - I Kültəpə.**



**I Kültəpə boyalı qabları.**



**Naxçıvan boyalı qabları.**



**Əliköməktəpədən tapılmış maddi mədəniyyət nümunələri və Əliköməktəpə yaşayış yerinin planı.**




**Qinçi yaşayış yerindən əldə olunmuş keramika məmulatları.**



**Xanlar, Gədəbəy və Mingəçevirdən tapılmış saxsı və daş qablardan nümunələr.**



**Mingəçevir, Şəmkir və Doşanlıdan əldə olunmuş keramika məmulatları.**



**1. Tunc tac, 2-3. Tunc asmalar (Xanlar); 4-6. Tunc və sürmədən hazırlanmış disklər (Gədəbəy); 7. Baş bəzəyi (Xaçbulaq); 8-14. Tunc medalyonlar (Gədəbəy, Şəmkir, Dolanlar, Mingəçevir).**



**1-6. Tunc bilərziklər (Gədəbəy); 7. Tunc gərdənlik (Gədəbəy), tunc bilərzik (Çovdar); 8. Dingə tipli alın bəzəyi (Xanlar); 9-11. Tunc kəmər qırıqları (Gədəbəy); 12-13. Tunc asmalar (Xanlar).**



**Tunc kəmərlər. 1-3,5. Gədəbəy; 4. Qazax.**



**1. Tunc gədənlik (Gədəbəy); 2-3. Tunc ox ucu, tunc toppuz (Gədəbəy); 4. Tunc cida başlığı (Mingəçevir); 5. Tunc cida başlığı (Dovşanlı); 6. Tunc qın (Xaçbulaq); 7-8. Tunc xəncərlər (Gədəbəy); 9. Tunc balta (Gədəbəy); 10.Tunc balta (Xanlar); 11-12. Tunc cida başlıqları (Mingəçevir); 13. Tunc xəncər (Gəncə).**



**1-3. Tunc fiqurlar (Xanlar); 2. Tunc qab (Gədəbəy); 4-5. Tunc insan fiquru (Tovuz); 6-9. Tunc fiqur (Gədəbəy); 10. Tunc fiqur (Daşkəsən).**



**Zoomorf qablar (Jak de Morqanın tədqiqatları əsasında) Soni, Tülü, Rəzdov kəndləri; tunc zınqırovlar (Soni və Rəzdov kəndləri).**



**Tunc silahlar: 1-3, 5-7. Gədəbəy; 4. Qazax; 8-11. Xanlar, Şəmkir; 12-18. Mingəçevir, Gədəbəy, Xanlar; 19. Gədəbəy; 20-21. Xanlar, Gədəbəy; 22-23. Mingəçevir; 24-30. Xanlar; 31-35. Mingəçevir.**



**Şimali Osetiya və Abxaziyadan tapılmış tunc sancaqlar və fiqurlar.**



**Tunc və dəmir baltalar. Lerik rayonu (Çayrud, Hovil, Buzeyir və Kündəsər kəndləri).**



**Koban mədəniyyətinə aid tunc baltalar və fiqurlar (Şimali Osetiya).**



**Skiflərə aid qızıl boyun bəzəyi və qızıl daraq.**



**Skif mədəniyyətinə aid kurqandan əldə olunmuş qızıl maral fiquru, qılınc və qızıl qabın təsvirindən fraqment.**



**Koban maddi mədəniyyət nümunələri.**



**Kolxida. Saxsı qablar (e.ə. VI-IV əsrlər).**



**Küp qəbirlərdən əldə olunmuş maddi mədəniyyət nümunələri (e.ə. IV-III əsrlər).**



**Urartu mədəniyyətinə aid nümunələr.**



**İberiyanın metal məmulatları, e.ə.VII-VI əsrlər.**



**Tunc və gümüş əşyalar (Van).**



**Qərbi Azərbaycandan (indiki Ermənistan) əldə olunmuş keramika məmulatları.**



**İberiyadan əldə olunmuş şüşə qablar.**



**Albaniyanın əmək alətləri və silahları.**



**Alban çarı Cavanşirin tunc heykəli (tunc buxurdan).**



**Albaniyadan əldə olunmuş möhürlər.**



**Albaniyanın keramika məmulatları.**



**Atropatenadan əldə olunmuş bəzək əşyaları və keramika məmulatları.**



**Zoomorf qablar (Lerik rayonu - Böyükkəndil və Kürdəsər kəndləri).**



**Daşbulaq yaşayış məskəni-keramika məmulatları.**



**Çaparlı son antik və ilk orta əsrlər abidəsi. Məbədin bəzək elementləri.**



**Çaparlı son antik və ilk orta əsrlər abidəsi.**
**Abidədən əldə olunmuş keramika məmulatları.**



**Daş qoç heykəlləri. Lerik tarix - diyarşünaslıq muzeyi (Babagil, Baba İsa və Baba İbrahim türbələri).**



**Örənqala saxsı qabları.**



**Örənqala saxsı qab qırıqları.**



**Örənqala saxsı qabları.**

**MÜNDƏRİCAT**

**MÜƏLLİFLƏRDƏN** ........................................................................3

**ÖN SÖZ** ........................................................................................4

**RƏYÇİDƏN**......................................................................................6

**I HİSSƏ. İbtidai icma quruluşunun tarixi**

I FƏSİL. İBTİDAİ İCMA QURULUŞUNUN ÖYRƏNİLMƏ TARİXİ ........8

1. İnsanın yaranması ...........................................................................8

**II HİSSƏ. Arxeologiya**

II FƏSİL. QAFQAZDA ARXEOLOGİYA ELMİNİN YARANMASI VƏ FORMALAŞMASI TARİXİ..........................................................................18

1. Giriş .................................................................................................18

2. Qafqazda arxeologiya elminin inkişaf tarixi...........................................21

3. Arxeoloji dövrləşmə və xronologiya.....................................................25

4. Arxeologiyanın bəzi tədqiqat üsulları ...................................................27

**III HİSSƏ. Daş dövrü**

III FƏSİL. QAFQAZIN DAŞ DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ ..........32

1. Azərbaycanın daş dövrü arxeoloji abidələri ...........................................32

2. Gürcüstanın və Şimali Qafqazın daş dövrü arxeoloji abidələri.................38

3. Qafqazın mezolit və neolit dövrü arxeoloji abidələri...............................43

IV FƏSİL. QAYAÜSTÜ TƏSVİRLƏR .....................................................48

1. Qafqazın qayaüstü təsvirləri.................................................................48

**IV HİSSƏ. Paleometal dövrü**

V FƏSİL. QAFQAZIN ENEOLİT DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ ...51

1. Qafqazda paleometal dövrünə aid arxeoloji abidələrin xüsusiyyətləri......51

**V HİSSƏ. Tunc və dəmir dövrü**

VI FƏSİL. QAFQAZIN TUNC DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ........62

1. Qafqazdakı tunc dövrü arxeoloji abidələrinin xüsusiyyətləri ..................62

2. Eneolitin sonu - tunc dövründə Qafqazdakı etnomədəni proseslər...........74
VII FƏSİL. QAFQAZIN DƏMİR DÖVRÜ ARXEOLOJİ ABİDƏLƏRİ....78
1. Qafqazda dəmir dövrünə aid arxeoloji abidələrin xüsusiyyətləri..............78
**VI HİSSƏ. Antik dövr**
VIII FƏSİL. QAFQAZIN ANTİK DÖVR ARXEOLOJİ ABİDƏLƏRİ ......85
1. Qafqazda antik dövr arxeoloji abidələrinin xüsusiyyətləri........................85
2. Atropatena və Albaniya .........................................................................91
**VII HİSSƏ. Orta əsrlər**
IX FƏSİL. QAFQAZDA ŞƏHƏR MƏDƏNİYYƏTİNİN YARANMASI...99
1. Orta əsrlərdə Qafqazda şəhər mədəniyyəti ..............................................99
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**....................................................107
**İLLÜSTRASİYALAR**.........................................................................112

**Nəşriyyat redaktoru: Canıyeva U.H.**

**Kompyuter tərtibatı: İmanova A.M., Ədilov S.R.**

**Çapa imzalanmışdır: 20.09.2010**

**Kağız formatı: 60x84 1/16, Sifariş 65, Tiraj 300. Həcmi 15,5 ç.v.**

**«Bakı Universiteti» nəşriyyatı, Bakı- 370148, Z.XəIilov, 23.**